Telman Orucov

Qələbə xalqı ucaltdı

XALQIMIZIN FACİƏLİ PROBLEMİ

Silah diplomatyası və ya diplomatiya silahı

(Bu məqalə 12 il əvvəl "525-ci qəzet"-də çap olunmuşdur və 44 günlük müharibədəki qələbənin əsas səbəbləri həmin yazıda qabaqcadan əsasən göstərilmişdir. Bunu nəzərə alaraq, 27 noyabr 2020-ci ildə, qəzetin redaksiya heyəti həmin yazıdakı qələbənin labüdlünə güclü inamı və arqumentlərin reallıqla tam səslənməsini nəzərə alaraq, onu yenidən oxucuların diqqətinə çatdırmağı lazım bilmişdir.)

Dağlıq Qarabağ münaqişəsi iki qonşu dövləti müharibəyə cəlb etməklə, onların xalqlarına öz bədbəxtliklər hədiyyəsini bəxş etmişdir.20 il əvvəlin qışında o vaxt ki, muxtar vilayətin paytaxtının mərkəzi meydanında başlanan və əvvəlki mərhələdə dinc xarakter daşıyan nümayişlərdə qatı erməni millətçilərinin– separatçıların ortaya atdığı qığılcımdan nəhən düşmənçilik tonqalı alovlanmağa başladı. Onlar Azərbaycanın tarixi və hüquqi tərkib hissəsini qoparıb qəsb etmək, onun suverenliyini pozaraq ərzazisini parçalamaq, bu xalqın qədim mədəniyyət ocağı sayılan torpaqları ələ keçirmək üçün bəla vəd edən hər cür avantüralara getməyə hazır idilər. Öz məkrli məqsədlərinə çatmaq üçün hər şeyə əl atan həmin adamlar buna hüquqi cəhətdən nail ola bilməsələr də, onlar bu iki xalqı düşmən düşərgələrinə bölmək, bir-birinə yalnız döyüş səngərlərindən baxmağa sövq etmək vəzifəsini həyata keçirə bildilər. Münasibətlərdə vaxtilə mövcud olmuş tarixi ləkələrə baxmayaraq,-bu biyabırçı damğalar da erməni milətçilərindən qalma miraslardır,- dinc qonşuluq tərzi uzun müddət ərzində mövcud olmuşdur və ona xələl gətirən elə bir əsaslı səbəb də yox idi. Lakin qatı millətçilər acı xatirələri yenidən tarix səhnəsinə gətirmək kimi ağılsız fikirdən vaz keçməyib, iki ölkə və xalq arasında keçilməzliyi ilə bu gün Çin səddini andıran bir düşmənçilik divarını ucaltdılar. İmperator Şi Xuan-di sonuncu dəfə 22 əsr əvvəl bu Böyük Səddin daşlarını insan qanı ilə suvatdırdığı kimi, erməni millətçilərinin meydana atdığı fəsad minlərlə gəncin qanının tökülməsi rüsumunu tələb etdi. Bu yüz minlərlə azərbaycanlı qocaların, qadınların, uşaqların görünməmiş müsibətlərinə və əzablarına səbəb oldu. Kin , nifrət divarı öz tarixi prototiplərindən ərşə qalxan hündürlüyü və ölçüyə sığmayan qalınlığı ilə fərqləndiyindən, onu yarıb keçmək də asan məsələ deyildir. Həm də onun baiskarları bu divarın uçulub dağılmaması üçün əllərindən gələn hər şeyi edirlər. Hadisələr bir daha göstərir ki, ağılsız adamların "igidlik" komediyası nəticə etibarı ilə dəhşətli faciəyə çevrilir.Onlar müharibə cığırına düşərək siyasətin bütün digər vasitələrini inkar edib, sonra onun daha arzuolunmaz vasitəsinə əl atmaqdan, bu insan təbiətinə yad olan təsir riçağından istifadə etməkdən də çəkinmədilər. Bu vaxt siyasət səhnəsində uduzacaqlıarına şübhə etmirdilər, çünki iddialarının qum üzərində qərar tutduğunu anlayırdılar, onları heç bir ağıllı , hüquqi dəlil və arqumentlərlə nəinki sübut etmək, heç izah etmək də mümkun deyildi.

Silahlar toqquşanda, mübahisənin həllinə top atəşləri girişəndə təkcə muzalar susmur, hətta zəkanın da digər imkanları məhdudlaşmış olur. Qatı millətçilər bir qayda olaraq ağılı , idraki təxəyyülə, illyuziyalara tabe edirlər,uydurduqları məkrli yalanlardan ilham alırlar. Ötən dövrdə hərb səhnəsində onlar müəyyən üstünlük əldə etmiş, xeyli ərazinin işğalına nail ola bilmişlər. Bununla öyünsələr də, özləri də yaxşı dərk edirdilər ki, bu məğrurluq bir andaca yoxa çıxa bilər, çünki müvəqqətidir, ötüb keçəndir.Məqsəd və niyyət isə yenə də xəyali və qeyri- real olaraq qalır.Qəsbkarlıq heç vaxt əbədi xarakter daşıya bilmir, başlanğıcı olduğu kimi sonluğuna da malikdir.Ermənistanın müharibədə qazandıqları öz hüquqi təsdiqini tapmamış və tapa da bilməz, ona görə də hər an ləğv olunmaq təhlükəsi ilə üzləşə bilər.Müharibəni və təcavüzü başlayan tərəf öz sifətini saxlamaq üçün sülh danışıqlarından istifadə etməyə daha çox ciddi-cəhdlə girişməlidir.

Çünki sülh danışıqlarının və onun uğurlu nəticələrinin əslində alternativi yoxdur.Qeyri –məqbul sayılan altrentiv isə müharibə tonqalının yenidən daha gur və məhvedici qaydada alovlanmasıdır.Ermənistan siyasətçiləri əgər real düşüncə müstəvisindən bütünlüklə uzaqlaşmamışlarsa, müharibənin yeni fazasının onlara nələr vəd etdiyini dərk etməmiş deyillər.Axı qüvvələr nisbətindəki baş verən dəyişikliklər də nəzərə alınmalıdır. Son beş il ərzində baş verən mühim fərqlər isə göz qabağındadır.

Vaxtilə Napoleon qeyd edirdi ki, müharibənin taleyi puldan aslıdır, başqa sözlə hərbi qüdrət iqtisadiyyatdan və onun törəməsi olan maliyyə imkanlarından qidalanır, güclü iqtisadi baza müharibənin nəticələrini müəyyən edən başlıca faktor rolunu oynayır. Ser Uniston Çorçill İkinci Dünya müharibəsinin başlanğıcından Hitler Almaniyasının labüd məğlubiyyətə düçar olacağına inanırdı, çünki proqnozlaşdırırdı ki, ABŞ və SSRİ ilə Böyük Britaniyanın müttəfiqliyinin malik olduğu resuslar düşmənin imkanlarından ikiqat çox olacaqdır və bu üstünlük nəhayət etibarilə münaqişənin hansı sonluqla yekunlaşacağını müəyyən edəcəkdir.

Ermənistanla müqayisədə, həm də faktiki olaraq Azərbaycanın iqtisadiyyatı dinamik olaraq inkişaf edir .Bunu bütün göstəricilər təsdiq edir.Son üç ildə ölkədə daxili ümumi məhsul istehsalı demək olar ki, iki dəfə artmışdır.

Son on ilərzində neft istehsalının bir neçə dəfə artması enerji daşıyıcılarının satışından daxil olan vəsaitlərin xeyli böyüməsinə səbəb olmuşdur. Bütün bunlar həm də müəyyən dərəcədə sosial problemlərin həll olunmasına yol açmışdır. İqtisadiyyatın irəliləyişi, maliyyənin sağlam durumda olması ölkənin hərbi qüdrətinin əsaslı qaydada möhkəmləndirilməsinə əlverişli şərait yaradır.Silahlı qüvvələrin müasir silah , döyüş texnikası və cihazlarla təchizatında xeyli müsbət dəyişikliklər əmələ gəlmişdir. Orduda canlı qüvvələrin hazırlığına diqqət artırılmış, vətənpərvərlik və fədakarlıq ruhu yüksəldilmişdir.

Azərbaycanın iqtisadi inkişaf səviyyəsini müəyyən etmək üçün geniş miqyasda tədqiqatlar aparmağa da ehtiyac yoxdur. Ölkədə, xüsusən onun paytaxtında aparılan nəhəng ölçüdə tikinti- quruculuq işləri, infrastruktur şəbəkəsinin yenidən qurulması, əhalıinin öz məişətini yaxşılaşdırmaq üçün sərf etdiyi xərclərin məbləğinin xeyli artması, hətta təsirindən əziyyət çəkdiyimiz infilyasiyanın dördnala çapması, nə qədər paradoksal görünsə də, xalqın maddi rifahında baş verən yüksək dəyişikliklərdən xəbər verir. Bakının mərkəzini və yaşayış zonalarını bahalı mağazalar, restoranlar şəbəkəsi, saysız- hesabsız şadlıq evləri bəzəyir və onların boş qalıdığını güman etmək belə mümkün deyildir. Şəhər küçələrində tez- tez baş verən və avtomobillərin sürətini az qala faytonların malik olduğu səviyyəyə endirən nəqliyyat tıxacları, istifadədə olan minik maşınlarının günbəgün çoxlamasından və benzinə sərf olunan xərclərə məhəl qoyulmamasından xəbər verir. Bəlkə də bunlar adi məsələlərdir, lakin istehlakının səviyyəsi və nəhayət, güzaran haqqında daha real təsəvvür yaratmağa imkan verir.

Azərbaycanın regionda ciddi nüfuz sahibinə çevrilməsini də heç kəs inkar edə bilməz. Bunu mümkün edən ən vacib amil iqtisadi tərəqqidirsə, digər mühim cəhət düşünülmüş, tarazlaşdırılmış , ardıcıl aparılan xarici siyasətdir. Əlbəttə, Azərbaycan kiçik dövlətdir, lakin dünya dövlətləri ailəsinin tam hüquqlu və bərabər üzvi kimi müstəqil siyasətini yeritməyə çalışır və ona əsasən nail olur.Kiçik dövlətlərin tarixən bufer rolunu oynaması, güc mərkəzləri arasında saaat kəfkiri kimi hərəkət etməsi dövlətimizin mövcüdluq tərzinə, yaşayş və fəaliyyət obrazına yaddır.Kiminsə himayəsinə qısılmaqla özünü güclü göstərmək bizim dövlətin xarici siyasətinin səciyyələndirən amil deyildir.Hətta iri dövlətlərin bu mövqe ilə razılaşmaması və ya nədənsə narazı qalması Azərbaycanı öz tutduğu yoldan sapdıra bilmir.Çünki bu siyasətdə başlıca məqsəd xalqın uzağa gedən mənafeyini nəzərə almaqdır.Ona görə də xarici siyasət vektoru müəyyən edilərkən hansısa güclü dövlətin himayəsinə qısılmaq variantı bütünlükə rədd edilir.Əlbəttə, belə müstəqil mövqe heç də hüsn –rəğbətlə qarşılanmır, bəzən üstüörtülü hədələrlə və təzyiqlərlə rastlaşmaq lazım gəlir.Xarici siyasətdə məhəbbət kimi narazılıq da

müvəqqəti xarakter daşıyır.Onları əsas götürməklə qurulan münasibət də davamlı olmur, daimi olan dövlətin, xalqın özünün mənafeyidir, onun sarsılmazlığıdır.Bunun bariz nümunəsini Azərbaycanın dünya dövlətləri ilə genişlənən iqtisadi əlaqələrində görürük. Ölkəmiz Avropanın, Asiyanın, Amerikanın çox sayda dövlətləri ilə ticarət -kommersiya əlaqələri qurmuşdur.Qarşılıqlı faydaya əsaslanan bu münasibətlər Azərbaycanın dünya iqtisadiyyatı şəbəkəsinə inteqrasiya edilməsində mühim rol oynayır.Yaxşı cəhət orasındadır ki, xarici siyasətdə olduğu kimi, dövlət iqtisadi əlaqələrində də hansısa qütbə sitayiş mövqeyindən çıxış etmir, bu fərqi nəzərə almamağa çalışır və əsas diqqəti öz iqtisadi maraqlarına uyğun gəlib, gəlməməsi amilinə yönəldir. Azərbaycanın iqtisadi əlaqələrində və əməkdaşlığında xüsusi çəki ilə götürdükdə İngiltərə, Rusiya , ABŞ, Almaniya , Çin mühim rol oynayır. Və bu vaxt həmin dövlətlərin öz aralarındakı münasibətlərin hərarət dərəcəsinə əhəmiyyət verilmir.

İngiltərə hökuməti və kompaniyaları ilə əlaqələr Azərbaycanın bu sahədəki uğurlu cəhdlərindən biri sayıla bilər.Britiş Petroleum şirkəti dünyanın ən iri iqtisadi maliyyə maqnatı olmaqla yanaşı, Azərbaycanın neft sənayəsinin inkişafında yaxından və səmərəli qaydada iştirak edir.BP-nin ölkəmizə gəlişi ilə dənizdə neft hasilatı yeni elmi- texniki əsaslar üzərində qurulmuş, ARDNŞ ilə onun əməkdaşlığı olduqca yaxşı nəticələr vermişdir.Ölkəmizin bir əsir yarıma qədər tarixi olan neft sənayəsi yeni tərəqqi və çiçəklənmə dövrünə qədəm qoymuşdur.Əgər sovet dövründə Xəzər dənizinin 20 metrlik su qatının altından neft çıxarılması iftixar mənbəyi sayılırdısa, dənizdə yeni neft yataqlarının istismarında müasir texniki imkanların yaradılması, böyük sənaye kompleksini andıran platformaların qurulması 200 metrdən daha çox dərinliklərdəki su qatının altından neft çıxarılmasına imkan vermiş və bu karbohidrogen sərvətin istehsalının əsaslı qaydada artırılmasına şərait yaratmışdır.

İngiltərə hökuməti təkcə iqtisadi əlaqələr sahəsində deyil, hümanitar sahələrdə də Azərbaycanla yaxından əməkdaşlıq etmək niyyətini nümayiş etdirir.Minlərlə azərbaycanlı gənc İngiltərənin məşhur universitetlərində və kolleclərində təhsil alır.İngiltərə firmaları öz əsas fəaliyətləri ilə yanaşı ölkəmizdə xeyli xeyriyəçilik tədbirləri keçirir.Milli incəsənətimizə qayğı göstərməyi yaddan çıxarmır.Bu azərbaycanlılarda İngiltərəyə, ingilislərə münasibətdə səmimi minnətdarlıq hissləri oyatmaya bilməz.

Azərbaycan həm də dünya üçün təhlükə mənbəyinə çevrilən terrorizmə qarşı mübarizə sahəsində fəal iştirak edir, öz üzərinə düşən vəzifələri ləyaqətlə yerinə yetirməyə çalışır. Ölkənin daxilində terrorizm , ekstermizim rüşeymlərinin vaxtında ləğv edilməsi ictimai asayişin qorunub saxlanılmasına böyük yardım göstrədi. Azərbaycan ordusunun nümayəndələri İraqda və Əfqanistanda beynəlxalq sülh məramlı dəstələrin tərkibində terrorizim bəlasının genişlənməsinin qarşısını almaqda nəyə qadir olduqlarını göstərmək üçün yüksək nizam və döyüş hazırlığı nümayiş etdirmişlər.

Azərbaycan xalqını daim əzən, narahat edən yeganə məsələ torpaqlarının işğalda, düşmən tapdağı altında qalmasıdır.Lakin bu narahatlıq heç də ümidsizlik hissləri doğurmur, əksinə aparılan siyasət müsbət yekuna nail olmaq ümidini bir qədər artırmışdır.Bu inam həm də ordunun möhkəmliyini qüvvətləndirir. Lakin Azərbaycan mümkün qədər hərbi iddialardan , güc nümayiş etdirmək mövqeyindən uzaqdır və sülhə nail olmaq tərəfdarıdır. Lakin onun həm də öz torpaqlarını hərb yolu ilə azad etmək hüququ vardır.

Sülh müqaviləsi əlbəttə ki, kompromisslərə getmək iradəsi hesabına imzalana bilər və Azərbaycan dövləti ondan asılı olan muxtariyyət statusu verilməsində hər cür güzəştlərə getməyə hazır olduğunu dəfələrlə bəyan edib.Təəsüf ki, Ermənistan özünü qalib qiyafəsində gördüyündən, danışıqların uğurla nəticələnməsinə hər cür maneçiliklər göstərir. Dağlıq Qarabağda yaşayan ermənilərin təhlükəsizliyi üçün ağlasığmayan qarantiyalar verilməsi bəhanəsilə şərtlər irəli sürülür, əslində nəticə etibarilə bu, həmin ərazini Azərbaycanın suveren yurisdiksiyasından qoparmaq məqsədini güdür .Ermənistan qəsb etdiyi ərazilərin boşaldılması müqabilində dünya praktikasında analoqu olmayan tələblər irəli sürməklə,

sülhə nail olmaq prosesinə hər cür əngəllər törədir.Haqq, ədalət isə Azərbaycanın tərəfindədir və nə ölkə rəhbərliyi, nə də xalq onun suveren hüquqlarına xələl gətirən və əlavə biabırçılıq bəxş edən heç bir addımı atmaz, diqtə üslubunda irəli sürülən şərti qəbul etməz. Ermənistan danışıqlarda formal qaydada iştirak etsə də, müxtəlif bəhanələrlə real danışıqlardan boyun qaçırmaq yolu ilə müharibə vəziyyətinin uzanmasına , sülh şərtlərinin sıradan çıxmasına can atır.Bu isə əslində arzu olunmayan perspektivin yaranmasına səbəb ola bilər və onun Ermənistan üçün daha qeyri- məğbul olacağını proqnozlaşdırmaq heç də çətin deyildir. Ermənistan yalnız qısa müddət üçün və lokal xarakter daşıyan müharibəyə davam gətirə bilər.

Azərbaycan isə daha geniş müqyaslı və uzun müddətli müharibənin ağırlığına dözmək iqtidarındadır.Müharibəyə Ermənistanın tərəfində hansısa ikinici bir dövlətin qarışması əlavə çətinliklər yaratmaqla yanaşı , digər tərəfədən də əlaqə qüvvələrin cəlb olunmasına, müharibə teatırının bütün regionu əhatə edərək, böyüməsinə gətirib çıxra bilər və bu perspektiv həmin təşəbüsdə ilkin bulunan dövlətə heç bir fayda verməz.

Azərbaycan, ümumiyyətlə silahlı münaqişlərin yenidən start götürməsini məqsədəuyğun saymır və ona gorə də danışıqlarda konstruktivlik nümayiş etdirir. İndi top yenidən Ermənistan tərəfdədir və hadisələrin sonrakı inkişafı onun düzgün mövqe tutub, tutmayacağından asılı olacaqdır. Ermənistan sülhə meyl etməsə, əldə etdiklərini qoruyub saxlamaq fikirinə düşsə, regionu yenidən fəlakətə sürükləyəcək və ondan ən böyük zərəri özü çəkməli olacaqdır.

İkinci Puniya müharibəsi ərəfəsində Krarfagenə gəlmiş Roma senatının nümayəndə heyətinə başçılıq edən Fabi Maksim yerli senatda çıxışını bitirdikdən sonra toqasının ətəyini büküb orada çökək əmələ gətirərək demişdi: “Mən sizə burada sülh və müharibə gətirmişəm, hansını istəyirsiniz seçin”. Karfagen senatı müharibəni seçdi və iki onilliyə qədər çəkən silahlı münaqişənin sonunda ağır şərtlərlə sülh bağlamaq məcburiyyətində qaldı.Haniballın hərb dühası da ona kömək edə bilmədi. Yarım əsir keçməmiş üçüncü müharibədə romalılar Karfageni darmadağın edib , viran qoydular, şəhər- dövlət bütünlüklə yer üzündən silindi.

İndi Ermənistan tərəfi öz seçimini etməlidir.İndiyə qədər bel bağladığı silah diplomatiyası ona artıq fayda verə bilməz. Çünki üç mühim sahədə- siyasi, iqtisadi və müəyyən dərəcədə də hərbi sahədə Azərbaycan ondan yaxşı vəziyyətdədir .Vaxtilə bizim ölkəni gücdən salan başıpozuqluq və anarxiya meyilləri bütünlüklə aradan qaldırılmışdır. Hakimiyyətlə xoş münasibət simfoniyasından söhbət getməsə də, cəmiyyət düşmənə münasibətdə monolitlik yoluna qədəm qoymuşdur .Bu sahədə iqtidar- müxalifət münasibətləri bir- birini inkar etmək mövqeyindən uzaqlaşmağa cəhd edir, bütövlükdə demokratik və sivil mübarizə çalarları qəbul edir. Ermənistanda isə son prezident seçkilərindən sonra vəziyyət xeyli gərginləşmiş, itaətsizlik halları, əks mövqedən çıxış edən nümayiş iştirakçılarının öldürülməsi baş vermişdir. Əslində, bu ölkədə siyasi mübarizə böhran səviyyəsinə çatan qarşıdurma ilə əvəz olunmuşdur. Xalqın iki yerə parçalanması qorxusu özünü nişan verməyə başlamışdır.

İqtisadi inkişaf və onun himayəsində boy atan hərbi qüdrət sahəsində Azərbaycanın potensialı xeyli böyümüşdür, buna baxmayaraq o öz əlehdarının, daha dəqiq deyilsə düşməninin siyasi və iqtisadi sahədəki zəifliklərindən istifadə etmək fikrindən çox uzaqdır. Coğrafi qonşuluq , yaxınlıq hətta müharibənin yaratdığı düşmənçiliklə də ləğv edilə, silinə bilməz. Hər iki tərəf bu həqiqəti dərk etmək, ondan nəticə çıxarmaq istəyində və iradəsində olmalıdır.Çünki hər bir müharibə sülhlə yekunlaşır və bəşər tarixi göstərir ki, şüurlu insan üçün sülh şəraitində yaşamağın özgə bir alternativi yoxdur.

Bu gün hər iki xalq dillema qarşısındadır: sülh və ya müharibəni seçmək . Azərbaycan xalqının və rəhbərliyinin seçiminə heç bir şübhə yoxdur. Ermənistan rəhbərliyi bu bəladan xilas yoluna iti düşüncə

tərzi ilə baxmalıdır və gec də olsa diplomatiya silahından istifadəyə və onun qələbəsinə nail olmağa üstünlük verməlidir.

“525-ci qəzet”.26.07.2008

Bu zəfər xalqın tarixini bəzədi

Azərbaycan 2020-ci ilin son ongünlüklərini qazanılmış qələbəyə görə bayram əhval-ruhiyyəsində qeyd edir. 10 noyarlda Ermənistanın siyasi və hərbi rəhbərliyi əsasən qeyd-şərtsiz məğlubiyyətə imza atmış, ordusunun bütünlüklə məhv edilməsinin qarşısını almaq üçün bu alçaldıcı addımı atmağa məcbur olmuşdu. Ermənistan dövlətinə başçılıq edən avantüristlər üç onillik ərzində daim Azərbaycan ordusunun döyüş qabiliyyətinə inanmır, ona istehza qaydasında şübhə ilə baxırdılar. Onlar əks tərəfin siyasi, iqtisadi və hərbi cəhətdən xeyli möhkəlmələnməsini də nəzərə almır, eyforiya dumanının zəhərli nəşəsi ilə nəfəs almaqda davam edirdilər.

Azərbaycanın siyasi rəhbərliyi isə torpaqlarının düşmən tapdağından azad olunması məqsədinə sadiq qaldığını bəyan edir və bunu reallaşdırmaq üçün hər cür hazırlıq tədbirlərini həyata keçirirdi. İqtisadi qüdrəti hesabına böyük maliyyə imkanlarına yiyələnən bir dövlətə çevrilməsi Azərbaycana ordu quruculuğu ilə də müasir tələblərə cavab verən qaydada məşğul olmağa şərait yaratdı. Ordu ən yaxşı hərbi texniki, silah, sursatla təmin edildi, silahlı qüvvələrdə intizam və hərbi hazırlıq səviyyəsi xeyli yüksəldi, vətənpərvərlik ruhu, fədakarlığa hazır olmaq əsgər andının mənəvi tərkib hissəsinə çevrildi. Ordunun döyüş səviyyəsinə birbaşa təsir göstərən mənfi cəhətlər aradan qaldırıldı. Əslində, son onillikdə yeni texnika və silahla təchiz edilmiş və ruhən tam yeni ordu formalaşdırıldı. Xalq əsgər və zabitlərin epizodik qəhrəmanlıq nümunələri ilə fəxr etməyə başladı.

Ermənistan torpaqlarımızı işğal edəndə ölkədə xaos, anarxiya meyilləri öz dağıdıcı təsirlərini göstərməkdə davam edirdi. Qabiliyyətsiz siyasi rəhbərliklər bir-birinin ardınca dəyişdirilirdi. Çünki onlar nizami ordunun yaradılmasına və onun təkcə silahla deyil, hətta qida ilə təmin edilməsinə laqeyd yanaşırdılar. Ölkə rəhbərliyi xalqın tələbi ilə möhkəmləndirildikdən sonra keçmişin Avgi tövləsini təmizləməyə xeyli vaxt sərf edildiyindən, ordu quruculuğu da müvafiq olaraq ləng gedirdi. Ona görə də torpaqların azad olunması şüarları tez-tez səslənsə də, gerçəklik bu çağırışa cavab verə bilmirdi.

XXI əsrin başlanğıcından Azərbaycan iqtisadi-sosial geriliyi ilə bütünlüklə vidalaşdığı kimi, ordu quyuçuluğuna və onun təchizatına diqqət əsaslı surətdə dəyişildi. Son 20 ildə ölkənin iqtisadi qüdrəti xeyli böyüdü, ordu ruruculuğu sahəsində əldə edilən nəticələr isə danışıqlar fayda vermədiyi təqdirdə, Ermənistan rəhbərliyi isə həmin prosesi uzatmaqla mövcud status-kvonu, başqa sözlə işğal vəziyyətini saxlamağa və uzatmağa cəhd etdikcə, Azərbaycanın ərazi bütövlüyünün hərbi yolla həll olunması müstəvisinə keçirilməsi zərurəti meydana gəldi. Erməni silahlı qüvvələri özlərinin cəzasız qalacaqlarına əmin olduqlarından ardıcıl olaraq tərk-silah şərtlərini pozur, əsgərlərimizi tək-tək də olsa qətlə yetirirdilər. Ermənistan hərbçilərinə cavab kimi müharibə qaçılmaz olduqda, Azərbaycan ordusu bir neçə istiqamətdə hücuma keçib, erməni silahlı birləşmələrinə ağır zərbələr vurdu. 44 gün davam edən müharibə nəticəsində işğal olunmuş ərazilərin hamısı erməni qoşunlarından azad olundu. 10 noyabrda imzalanan üçtərəfli –Azərbaycanın, Ermənistanın və Rusiyanın birgə bəyənatına görə, Ermənistan ordusu Kəlbəcər, Ağdam və Laçın rayonlarını isə döyüşsüz tərk etdi və həmin rayonlar 3 onilliyə yaxın müddətdən sonra yenidən Azərbaycanın ərazi yurisdiksiyasına qatıldı.

Ölkədə qələbənin qazanılması xalqın böyük sevincinə səbəb oldu. Bakıda izdihamlı yürüşlər günlərlə davam etdi. Azərbaycan bayrağı xalqın arzu etdiyi və yenidən yiyələndiyi ən böyük mənəvi hündürlükdə dalğalanmağa başladı. Ali Baş Komandan İlham Əliyevə minnətdarlıq ifadələri, məhəbbət sədaları dillərdən düşmürdü. Ölkə prezidenti möhkəm iradəsi, həsəd aparılacaq cəsarəti, diplomatik məharəti ilə Qələbə yoluna daş döşəməklə kifayətlənməmiş, onun baş verməsi üçün bütün səylərini səfərbər etmişdi. Bəziləri bunu taleyin xalqa tarixi bəxşi adlandırıtlar. İlk dəfə idi ki, prezidentə ümumxalq məhəbbəti belə bir Everest zirvəsinə yüksəlmişdi.

Bir italyan diplomatının «Qələbənin çox sayda atası olduğu halda, məğlubiyyət daim yetim olur» dediyi sözlərə bir qədər düzəliş versək, 10 noyabr Qələbəsinin müəllifləri xalq, ordu və prezidentdir. Strateji qələbənin yeganə müəllifi olan Ali Baş Komandan həm də taktiki gedişlərə və operativ məsələlərə daim və hərtərəfli müdaxilə etmiş və nəticə etibarilə zəfərə əsas imzanı atan olmuşdur. Ordu əsl fədakarlıq nümunələri göstərmişdi. Şuşanın alınması böyük igidlik rəmzi kimi ölkənin hərb tarixinə qızıl hərflərlə yazılacaqdır.

Ermənilər 1992-ci ildə Xocalıda soyqırım törətdilər, qızları,gəlinləri, qocaları əsir götürdülər. Azərbaycan əsgərinə isə erməni vəhşilikləri bütünlüklə yaddır. Ona görə də Hadrutda, Şuşada erməni qızlarına və qadınlarına təcavüz edilməsi faktlarına rast gəlinmir. Götürülən əsrilər də yalnız hərbçilərdir, onların arasında bir nəfər də olsun qız, qadın, ümumiyyətlə heç bir mülki şəxs yoxdur.

1922-ci ildə Mustafa Kamalın komandanlığı altında türklər müharibədə qalib gəldikdə, iki yunan generalı, Aralıq dənizindəki təslim olmalarını bəyan etmək üçün türk sərkərdəsinin qərargahına gəldi. Yolda onlara türklər lənətlər yağdırırdılar. Mustafa Kamal isə onların əlini sıxdı, oturmalarını xahiş etdi və məğlubiyyətlərinin acısını yumşaltmaq üçün onlara təskinedici sözlər dedi. Şübhə yoxdur ki, erməni generalları əsir düşsəydi, bizim Ali Baş Komandan da onlarla çox sevdiyi Atatürk kimi rəftar edərdi. Biabırçı təslim aktı ilə heç də iki deyil, bütün erməni generalları məğlubiyyətə düçar oldu. Məhv edilən ordunun generalı iki qılıncı əlindən alınmış sərgərdan samurayı - ronini xatırladır. Erməni generallarında yapon zabitlərinə məxsus cəsarət hissi də yoxdur ki, özlərini seppuku edə biləydilər.

Üçtərəfli bəyənatın imzalanması bir qədər geciksəydi, o generallar öz qoşunları ilə birlikdə ya əsir düşər, ya da məhv edilərdilər. Bəyənat qalibin mərhəmət əlaməti olmaqla, əslində onları layiq olduqları ağır cəzadan xilas etdi.

10 noyabr Qələbəsinin tam və qəti olmasının sübutu üçün, ancaq ölkənin daxili ərazisinin xəritəsindəki əsaslı dəyişiklikləri seyr etmək kifayətdir. Azərbaycan ordusu təkcə işğal olunmuş yeddi rayonu deyil, həm də xalqın geniş mədəni məbədi sayılan Şuşanı, həmçinin Hadrut rayonunu, Dağlıq Qarabağın xeyli sayda kəndlərini azad etmişdir. Bunların baş verməsi hər bir azərbaycanlı üçün iftixar mənbəyidir, çünki əsgərlərimizin və zabitlərimizin öz həyatlarını qurban verməsi hesabına əldə edilmişdir. Həmin torpaqlar igid oğlanlarımızın müqəddəs sayıla biləcək qanları ilə suvarılmışdır. Ona görə də hər sözümüzdə ehtiyatlı olmalı, reallığı nəzərə almadan xəyalı işə salıb, şirin səslənən bəyanatlarla çıxış etməməliyik, özündən razılıq, hədyanlıq kimi düşmənimizə xas olan xüsusiyyətləri özümüzə rəva bilməməliyik. Qələbəmizin yüksək dəyərini daim nəzərə almaqla, həlak olanların ruhuna hörmət hissini unutmamalı, yaralananların könlünə toxunmamağı da nəzərdən qaçırmamalıyıq.

. Azərbacan ordusu həm də, hətta yadların da təsdiq etdiyi kimi, döyüşdə XXI əsr müharibəsinin mühüm xüsusiyyətlərini sərgiləndirmişdir, bunu biz niyə inkar etməliyik. Vuruşmağı kimdənsə öyrənməyə bizim artıq ehtiyacımız yoxdur, qoy başqaları bizdən öyrənsinlər. Çünki, Azərbaycan

ordusunun həyata keçirdiyi kampaniya çox sayda yeni elemntləri ilə fərqlənirdi, onun apardığı döyüşlərin silahlı qüvvə növlərinin hərəkətlərinin birgə planlaşdırılması, hazırlanması əsasında getməsi və səmərililiyi vuruşduğu Ermənistan tərəfində olandan xeyli üstün idi və onu bunlara həsəd aparmağa məcbur etdi. Qələbənin əldə edilməsinin digər mühüm cəhətləri ilə yanaşı həmin həlledici faktor da xüsusi qeyd edilməlidir. Bunlara isə Azərbaycan uzun müddət ərzində öz hərbi institutlarının professional səviyyəsini xeyli yüksəltməklə və ən müsir texnologiyaları əldə etməklə nail olmuşdu. Həm də Azərbaycanın apardığı döyüş kampaniyası gücə deyil, daha çox coğrafi məqsədə istiqamətlənmişdi və bu, müharibənin uğurla başa çatmasına gətirib çıxardı.

Respublika rəhbərliyi müharibə dövründə qeyri-adi diplomatiya əzmkarlığı göstərdi. Həm də biz xalqımızın həqiqi dostlarını daha yaxşı tanıya bildik. Türkiyədən və İsraildən alınmış silahlar döyüşdə yüksək keyfiyyətə malik olduqlarını bir daha sübut etdi. Türkiyə Azərbaycana böyük mənəvi kömək, əsl qardaşlıq münasibəti göstərdi. Rusiyanın nisbi də olsa neytrallığı uğurlarımıza maniəçilik gəstərmək cəhdlərinin baş verməsini yoxa çıxardı.

Müharibə düşmənin xarakterindəki pis cəhətləri bir daha üzə çıxardı. Yapon hərb xadiminin dediyi kimi, müharibədə istifadə olunan yalan hökmən məğlubiyyətə aparır. Ermənilər isə 44 günlük müharibədə yalandan bol-bol istifadə edirdilər. Onlar əraziləri məcburiyyət qaydasında təhvil verib, geri çəkildiklərini danır, döyüşdəki uğursuzluqlarını ört-basdır etməyə can atdıqda, ağ yalanlardan da çəkinmirdilər. Yüksək rütbəli zabit Türkiyənin “F-16” təyyarəsinin Ermənistanın “Cy-15” təyyarəsinin vurub yerə saldığını gözləri ilə gördüyünü deyirdi. Az sonra

onun yalanı ifşa olundu. Türkiyə hərbi təyyarələri birgə təlimdən sonra Naxçıvandakı aerodromda qalırdı, bir dəfə də olsun havaya qalxmamışdı.

Ermənistanın baş naziri Nikol Paşinyan ordularının ağır məğlubiyyətini gizlətmək üçün ölkə əhalisinə bəyan etdi ki, onlar böyük qələbə çalacaqlar, ona görə Laçın dəhlizinə doğru geri çəkilirlər ki, Azərbaycan qoşunlarını tələyə salıb, məhv etsinlər. Azərbaycan ordusu isə irəliyə doğru yürüşünü davam etdirərək, Laçın dəhlizinə sahib oldu. Paşinyanın ağ yalanı bütünlüklə üzə çıxdı.

Ermənilər döyüşdə kimlərinsə bağışladığı köhnə silahdan istfadə etdikləri kimi, öz xislətlərinin fərqləndirici cəhəti olan yalan cəbbəxanasından da artıqlamasilə yararlanmağa cəhd edirdilər. Onların taktiki priyomları da yalanları kimi naftalin iyi verdiyindən, hər iksindən əslində heç bir fayda götürə bilmirdilər. Son müharibə daim gizlədilən bir həqiqəti də üzə çıxardı. Məlum oldu ki, hamisinin hesabına özünü pələng qiyafəsində görən Ermənistan, bu hami kənara çəkiləndə "kağız çaqqaldan" başqa bir şey deyilmiş.

Döyüşlərdə uduzan erməni hərbiçiləri gücsüzlüklərinin əvəzini, cəbhədən xeyli aralı olan şəhərlərdəki və kəndlərdəki dinc əhalini raket atəşinə tutmaqla çıxır, yaşayış evlərini dağıdır, uşaqların, qocaların və qadınlarln ölümünə bais olurdular. Bu müharibə cinayətlərini isə guya hərbi obyektləri nişan almaları ilə izah edirdilər, əslində isə əhalidə vahimə yaratmaq məqsədini güdürdülər. Şəhərləri və kəndləri xarabazara çevirmək isə onların köhnə peşəsi idi. Axı işğal etdikləri şəhərləri xarabalıqlar muzeyinə, bayquşlar məskəninə çevirmişdilər. Son müharibədə isə digər şəhərləri də onların gününə salmaq istəyirdilər. Az da olsa buna nail oldular, lakin ağır zərbə aldıqlarından, canlarını qurtarmaq üçün qaçmağa üz tutdular.

Vaxtilə Ermənistanın siyasi və hərbi xadimləri məğrurluq xəstəliyinə tutulduqlarından vaxtaşırı Şuşada qalibiyyət təntənəsinin nümayişi kimi yallı

şəklindəki rəqs tamaşaları təşkil edirdilər. Son yallı rəqsini əlaltıları ilə birlikdə Paşinyan özü ifa etmişdi. Fransa kralı IV Henri katoliklərlə, özünün liderlik etdiyi huqenotların münaqişəsini yatırtmaq və paytaxta girmək imkanını qazanmaqdan ötəri öz məzhəbini dəyişdi və bu vaxt demişdi: "Paris messaya dəyər." Messa katoliklərin bazar günü keçirilən mühüm dini mərasimidir. IV Henri sülhə nail olmaq üçün belə nəcib addım atdı. Ermənistan liderləri isə tam əks istiqamətdə hərəkət edib, iki xalq arasında qatı düşmənçiliyə yol açdılar və axırda ağır məğlubiyyət timsalında matəmlə üzləşdilər. Ona görə də onlara demək istəyirsən ki: "Matəminiz şən rəqsinizə dəyər."

Erməni marginalları qonşu dövlətin suveren ərazisini ziyafət süfrəsi hesab edib, dəvət olunmadan oradakı dadlı təamları, nemətləri udmağa girişdilər. Lakin dar mədə bu qidanı həzm edə bilmədiyindən ağır cərrahiyyə əməliyyatı aparmaq zərurəti yarandı. Əməliyyat möhkəm zərbə xarakteri daşıdığından təcavüzkar işğal etdiyi əraziləri tərk etməyə məcbur oldu. Məqsəd təkcə mədəni deyil, sərsəm ideyaların məskəni olan beyinləri müalicə etmək idi. Xəstəlik müalicə olunmasa, hökmən məhvə aparır. Azərbaycan ordusu həmin nəcib əməliyyatı olduqca ustalıqla həyata keçirdi, öz vəzifəsini şərəflə yerinə yetirdi. Xəstə çox zəifləmişdir, güclə nəfəs alır. Müalicənin ikinci məqsədinin nə qədər faydalı olduğunu isə zaman göstərəcəkdir. Ermənistan ordusunun özünə gəldikdə isə, o elə ölümcül yara almışdır ki, əslində onun bu adı daşıması da artıq şübhəli görünür, daha çox kəfənə bürünmüş cəsədi xatırladır. Kəfən isə yalnız qarşıdakı dəfndən xəbər verir.

Qələbə düşmənə qarşı münasibəti də dəyişir, onlara artıq bədbəxt bir insan kimi yanaşılır. Abraham Linkolnun prezidentliyinin dörd ili ərzində gedən müharibə 9 aprel 1865-ci ildə Cənub Konfederatının məğlubiyyəti ilə nəticələndi. ABŞ-ın ərazi bütövlüyü qanlı döyüşlər hesabına qorunub saxlanıldı, prezidentin də başlıca niyyəti məhz Birliyi bərpa etmək idi. Linkoln müharibədən sonra cənublulara düşmən kimi deyil, vahid dövlətin vətəndaşları kimi baxır, onların

kütləvi qaydada əfv edilməsini istəyirdi. Azərbaycan rəhbərliyi də öz dövlətinin vətəndaşı kimi respublika ərazisində yaşayan ermənilərin insan haqlarına hörmətlə yanaşılacağını vəd etmişdir.Prezident İlham Əliyev də dünənki düşmənlərə QayYuli Sezarın öz əleyhdarlarına qarşı clementia – mərhəmət hissi ilə yanaşmaq qaydasında olan kimi hərəkət etməyi vacib sayır və bu, həm də Azərbaycan Respublikasının vətəndaşlığının cazibə qüvvəsini artırır.

Müharibənin nəticəsinin ən başlıca şərti erməni qatı millətçilərinin ondan lazım olan ibrət dərsini götürmələridir. Qoy onlar bir daha öz bədbəxt xalqını ağır və üzücü sınaqlara məruz qoymasınlar. Onların iyrənc niyyətləri bir daha baş tutmamalıdır, yaxşı olar ki, onlar belə zərərli əməlləri ilə xalqı yenidən ağır bəlalara məruz qoymasınlar.

Bibliyanın “İsayya” kitabında Allahın sülhə böyük əhəmiyyət verdiyi, müharibənin tarixdən birdəfəlik silinməsi barədə onun istəyi qeyd olunur. Allahın iradəsinə görə xalqlar qılınclarını döyüb, kotana çevirməli idilər. Millətlər heç vaxt bir daha başqalarına qarşı müharibəyə başlamatacaqdılar. Lakin bəşər tarixi tam əks istiqamətdə getdi, müharibələr xalqların həyatına zəhər qatdı. Ermənilər Allahın göstərişinə məhəl qoymayıb, müharibə cığırını seçdilər, onlar qılınclarını döyüb, kotana çevirmək əvəzinə onu daha da itiləməyə can atdılar. Azərbaycanlılar bu işi öz üzərinə götürüb, ermənilərin döyüş qılıncını qırıq-qırıq etdilər, qoy özləri məcburiyyət qarşısında qalıb, ondan kotan düzəltsinlər.

Ordumuzun qələbəsini biz uzun müddət gözlədik və sevincli anları yaşamağımızla haqlı olaraq öyünürük. Lakin biz ayıq düşüncə tərzimizi, sayıqlığımızı bir an da olsun itirməməliyik. Çünki bizə düşmən kəsilənlərin məkrinə yaxşı bələdik. Onların hördükləri hörümçək torundan gələcəkdə özümüzü qorumalıyıq, xalqın qanı hesabına keçdiyimiz ağır imtahanlar heç vaxt yaddan çıxmamalıdır, qazanılan zəfər əbədi xarakter daşımalıdır.

525-ci qəzet

Qələbənin növbəti fazası

2020-ci ilin payızında ay yarıma qədər davam edən qanlı epopeya Azərbaycan ordusunun Ermənistan silahlı qüvələri üzərində tam qələbəsi ilə, əslində axırıncının aqoniyası ilə başa çatdı. Noyabrın 10-da Ermənistan rəhbəri diz çöküb, döyüşlərə son qoyulmasını yalvardı və 1990-cı illər müharibəsində hər cür vəhşiliyə əl atan bu düşmənə Azərbaycan rəhbərliyi daim özünə xas olan mərhəməti yenə də göstərdi. Həm də ermənilər əks tərəfin irəli sürdüyü bütün şərtləri, hətta alçaldıcı olanları da qəbul etmək məcburiyyətində qaldı. Şuşa da daxil olmaqla işğal edilmiş ərazilərin hamısı, Dağlıq Qarabağın çox sayda kəndləri azad olundu. Ermənistan hərbi qüvvələri Azərbaycan hüdudlarından qovuldu. Azərbaycanın böyük ərazisini dar bir zolağın ayırdığı Naxçıvanla onun birbaşa əlaqəsini yaratmaq üçün quru yolun çəkilməsi şərti ilə də Ermənistan razılaşmalı oldu. Bu, Türkiyə ilə hərtərəfli əlaqələrin genişlənməsinə də şərait yaradacaqdır. Həmin məsələ vaxtilə sovet dövründə qaldırılsa da, Moskva Ermənistanı buna razılıq verməyə məcbur edə bilməmişdi. İndi isə həmin "inadkar" tərəf güc qarşısında baş əyməli oldu.

Ermənilər addımbaşı "xalqlar dostluğuna" sədaqət andı içirdilər, həm də bu saxta ağacın dadlı meyvələrindən bol-bol faydalanırdılar, Azərbaycandan onlara qaz kəməri çəkilmişdi. Onlar isə bu əliaçıqlığa, bütün sahələrdəki xoş münasibətə nankorluqla cavab verib, fürsət düşən kimi iç üzlərini göstərməklə, qonşu xalqa qarşı düşmənçiliyə başladılar. Yalnız müstəqil, böyük qüdrət sahibinə çevrilmiş Azərbaycanın hərbi qüvvələri onları ram edə bildi. Ölkəmizin rəhbərliyi isə çalınmış qələbə şəratində onların onsuz da zəifləmiş müqavimətini bütünlüklə yoxa çıxardı.

Qələbədən düz bir ay sonra Bakının Azadlıq meydanında Zəfər paradı keçirildi. Bu təntənə xalqımzın düşmənə tutarlı cavab verdiyinin əyani nümayişinə çevrildi. Döyşdə iştirak etmiş silahlı qüvvələrin bütün növlərinin əsgər və zabitləri başlarını uca tutaraq tribuna önündən keçdilər, burada

onları ölkə Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Taip Ərdoğan salamlayırdı. Bu şərəfi onlar döyüşlərdə fədakar iştirakları ilə qazanmışdılar. Böyük Britaniyanın görkəmli dövlət xadimi Uinston Çörçill ingilisləri "şir ürəkli" xalq arlandırmışdı. Son müharibədən sonra azərbaycanlılara da əslində bu tərifli epitet yaraşır. Məgər sıldırım qayalara dırmaşaraq, Şuşadakı erməni hərbiçilərini əlbəyaxa döyüşdə məhv edən igidlər şir ürəyinə sahib olduqlarını real olaraq sübut etməmişlərmi?

Meydanın üstündə yəqin ki, şəhidlərin ruhi dolaşırdı, axı bu zəfərin qazanılması üçün onlar öz canlarını, həyatlaını fəda etmişdilər. Onlar hələ yaşamalı, həyatdan həzz almalı, Vətənə özləri kimi sədaqətli övladlar bəxş etməli idilər. Lakin Vətənin çağırışı onları müqəddəs borcu verməyə səsləmişdi, paradda cismən iştirak etməsələr də, indi ruhən də olsa öz döyüş silahdaşlarının arasında idilər. Ehtiram əlaməti olaraq, Prezident onların xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsini xahiş etdi.

Paradda düşməndən qənimət götürülmüş çox növdə və sayda hərbi texnika, hücum və müdafiə sistemləri nümayiş etdirildi. Erməni əsgərləri tufanı andıran hücum qarşısında bu texnikanın əksəriyyətini qoyub qaçmışdılar. Sonra meydana ordumuzun döyüşlərdə istifadə etdiyi hərbi texnika ağır yük maşınlarının üstündə daxil oldu. Ümumilikdə 150 vahid döyüş texnikası, həmçinin yenicə silahlanma cəbbıxanasına götürülmüş ən müasir növlər, raket-artilleriya qurğuları, hərbi-hava hücumundan müdafiə vasitələri nümayiş etdirildi. Onlardan ustalıqla istifadə etməyi bacaran ordu qələbə çalmaya bilməzdi. Düşmən isə köhnə, yararlılığını itirmiş texnikaya bel bağlayırdı, onların səmərəsi isə olduqca az idi. Onlar silahlarının keyfiyyəti ilə deyil, kəmiyyəti ilə öyündüklərindən acı nəticələrə yiyələndilər.

Zəfər paradı müasir döyüş vasitələri ilə silahlanmış, əslində XXI əsr müharibəsinə qadir olan yeni ordumuzun nümayişinə çevrildi və bu, xalqımızda qürur hissi yaratmaya bilməzdi. Dostlarımız da bu mənzərəni seyr

etdikcə sevinirdilər, düşmən isə, onsuz da elə bir təsiri olmayan hiddətini gizlədə bilmir, ordumza nifrin yağdırırdı. Təəssüf ki, onlar özlərinə havadarlar da tapırdı. Rusiya Dövlət Dumasının deputatı bədnam bəyanat verərək, paradın keçirilməsini Ermənistanın təhqir olunması kimi qiymətləndirmişdi. Yəqin o, çox istəyərdi ki, məğlub edilmiş düşmənin şərəfinə şən şərqilər oxunsun. Bəs niyə 30 il ərzində Azərbaycan xalqı təhqirlərə məruz qalanda onlardan heç kəs səsini də çıxartmamışdı? Bu azmış kimi, həmin natiq daha uzağa gedərək, təcavüzkarın çirkin əməllərini ifşa etmək əvəzinə, Ermənistandaki ata-baba yurdlarından qovulmuş azərbaycanlıların tarixi torpaqlarının adının çəkilməsini az yox, əsl qisasa çağırış əlaməti adlandırmaqla, Azərbaycan rəhbərliyinin sülhsevər siyasətinə kölgə salmağa çalışmışdı.

Zəfər paradı təkcə ordumuzun şücaətinin tərənnümünə həsr olunmuş tamaşa olmayıb, həm də qələbədən sonrakı dövr üçün azad olunmuş ərazilərin bərpası, ümumilikdə ölkənin inkişafı barədəki ideyaların irəli sürüldüyü məkana çevrildi. Azərbaycan həmişə olduğu kimi yenə də öz sülhsevər siyasətinə sadiq qalacaqdır. Prezident İlham Əliyev bəyan etdi ki, regionda sülhün bərqərar olunması üçün mükün olan hər şey ediləcəkdir. Ermənistan son illərdəki militarist və revanşist mövqeyindən uzaqlaşsa, onunla iqtisadi əmədakşlıq başlana bilər. Türkiyə Prezidenti də bu təklifə tərəfdar çıxıb bildirdi ki, Ermənistanın saxta iddialarından əl çəkməsi müqabilində ölkəsi ona öz dövlət sərhədlərini aça bilər.

Əlbəttə, düşmənçilik heç kəsə fayda vermir. Buddanın dediyi kimi “Nifrətə nifrətlə son qoymaq mümkün deyildir, ona yalnız məhəbbətlə son qoymaq olar.” Biz heç də ermənilərdən saxta məhəbbət ummuruq, çünki onlar tarix boyu fürsət düşən kimi cinayətkar nankorluqlarını göstərməkdən çəkinməmişdilər. Ermənistan qatı millətçiləri türklərə və azərbaycanlılara nifrət bəsləməklə, onları düşmən qiyafəsində görürlər. Bu nifrət hissi birinci

növbədə ermənilərin özünə ziyan vurur və əks tərəfdə də onlar belə münasibətin formalaşması meyllərinin yaranması ilə üzləşməli olurlar.

Ən vacib məsələ isə işğaldan azad olunmuş ərazilərdə şəhərlərin və kəndlərin bərpası, onların insan yaşayışı üçün yararlı hala salınması, təsərrüfat fəaliyyətinin yeni əsasda qurulmasıdır. Əslində "bərpa" termini bu ərazilərdə aparılacaq böyük miqyaslı işlərə heç də uyğun gəlmir. Axı erməni işğalçıları, kiçik istisna ilə bütün yaşayış məntəqələrini xaraba qoymuş, binaları, evləri dağıtmış və yandırmışlar, burada bərpa edilmək üçün heç nə qalmamışdır. Dahi Nizami hələ doqquz əsr bundan əvvəl Persiya şahı Ənuşirəvanın timsalında böyük əraziləri viran qoyacaq ermənilər görmüşdü. İki bayquş övladlarını evləndirmək üçün sövdələşəndə, qız atası gələcək qudasından yüz xaraba kənd istəyir. Tələbi eşidən bayquş deyir ki, nə qədər ki, Ənuşirəvan şahdır, sənə lap çox sayda da xaraba kənd verəcəyəm. Erməni təcavüzkarları da işğal etdikləri ərazilərdə şəhərləri və kəndləri xarabazara çevirmişdilər, iyrənc əməlləri ilə Nuşirəvan timsalını da geridə qoymuşdular.

İndi xarabalıqlar üzərində yeni şəhərlər, kəndlər salınmalıdır. Jurnalistlər stereotipi əsas götürərək, ermənilərin belə iyrənc fəaliyyətini vandalizm nümunəsi kimi qələmə verir, onun müəlliflərini isə vandallar adlandırırlar. Məsələnin mahiyyətinə və dağıntıların miqyasına baxdıqda bu söz ancaq bir evfemizm kimi səslənir. Tarixə nəzər yetirsək, vandallar kral Geyzerixin başçılığı altında 455-ci ildə Romanı tutaraq, qarət etmiş, oradakı antik mədəniyyəti, çox sayda tarixi abidələri məhv etmişdilər. Bundan 45 il əvvəl vestqotlar da öz kralları Alarixin başçılığı altında Romanı ilkin qarətə məruz qoymuşdular. Əbədi şəhərə ağır yaralar vurulsa da, bütünlüklə dağıdılmamışdı, şəhər yaşayırdı, sakinlərin evlərinə elə ziyan dəyməmişdi. Vandalların pis əməllərindən də "vandalizm" termini meydana gəlmişdi.

Biz şəhərlərimizi qədim Roma ilə müqayisə etmək fikrindən uzağıq. Lakin Romanın başına gələnlərlə, bizim şəhərlərin dağıdılması arasında

böyük fərq vardır. Vandallar Romanı heç də bütünlüklə xarabazara çevirməmişdilər, şəhər yenə də düşmənləri cəlb edən hədəf olaraq qalırdı. Ona görə də az sonra, 476-cı ildə Odoakrın başçılıq etdiyi german muzdluları sonuncu imperatoru qətlə yetirməklə, Qərbi Roma İmperiyasının mövcudluğuna son qoymuşdular. Ermənilərin işğal etdikləri Ağdam, Füzili, Cəbrayıl şəhərlərinə gəldikdə, onların əvvəllər sadəcə yaşayış məntəqəsi olmasından da heç bir əsər-əlamət qalmamışdır. Onlarda salamat bina tapılmırdı ki, ərazi azad olunandan sonra onun üstündə Azərbaycanın dövlət bayrağı qaldırılsın.

Əməllərinə görə, vandalların mənəvi övladları olan ermənilərin adını əsas götürərək bəzi ziyalılar onların törətdiklərini "hayizm" adlandırırlar, çünki onlar ruhi əcdadlarının əməllərini - vandalizmi də kölgədə qoyurlar. Bədbəxtlik orasındadır ki, onlar öz eybəcər əməllərindən heç də utanmırlar. İkinci Dünya müharibəsindəki məğlubiyyətdən sonra almanlar dəhşətli cinayətlərinə görə peşiman olduqlarını etiraf etdilər, öz günahlarını tövbə etdilər. Bəs ermənilər niyə öz günahlarını etiraf etmək istəmirlər? Alman natsistlərinin maddi və texniki imkanlarına malik olsaydılar, ermənilər irqçilərə məxsus olan qaydada qonşu xalqların kökünü qazardılar. Yaxşı ki, dəvənin qanadı yoxdur, özünü dağıdıcı bombaya, lap istilik-nüvə silahına çevirərdi.

Işğaldan azad olunmuş şəhərlərin tikintisi, abadlaşdırılması nəhəng maddi xərclər və səylər tələb edir. Keçən əsrdə yeni şəhərlərin salınması təcrübəsi mövcud olmuşdur. Öz ölkəmizdə Sumqayıt və Mingəçevir şəhərləri salınmışdır. Məşhur fransız arxitektoru Le Korbyuzenin layihəsi əsasında Hindistanda Çandiqarx şəhəri meydana gəlmişdi. Braziliyanın yeni paytaxtı olması məqsədilə böyük memar Oskar Nimeyerin lahihəsi ilə gözəlliyi ilə seçilən Brazilia şəhəri tikilmişdir. Qazaxıstandakı Astana şəhəri bütünlüklə yeniləşdirilmiş, arxitektura inciləri ilə seçilən modern şəhərə çevrilməklə,

ölkənin paytaxtı ora köçürülmüşdür. İndi şəhər onun əsaslı rekonstruktiyasının təşəbbüskarı olan prezidet Nazarbayevin şərəfinə Nursultan adını daşıyır.

Bunlar tək-tək nümunələrdir və vahid tikinti meydançasında boya-başa gəlmişdir. Ölkəmizdə isə dörd şəhər yenidən salınacaq, digər dörd şəhərdə yenidənqurma işləri aparılacaqdır. Vəzifə olduqca böyükdür və əsl Herakl hünəri tələb edir. Böyük maliyyə vəsaiti və inşaat materialları sərf edilməlidir ki, səkkiz yeni abad şəhər, yüzlərlə kənd meydana gəlsin.

Həqiqətən də nəhəng miqyasda işlərin görülməsi planlaşdırılılr. Qələbə xalqda elə coşğunluq, elə ruh yüksəkliyi yaratmışdır ki, o, Fərhad kimi Bisutun dağını da çapmaqdan çəkinməyəcək, qarşıdakı böyük işlərə cəsarətlə girişəcəkdir. Son iki onillikdə ölkəmizdə çox geniş miqyasda tikinti-quruculuq işləri həyata keçirilmiş, Bakı möhtəşəm binalarla zəngin olan bir şəhərə çevrilmişdir. Bir-iki il əvvəl Bakıda olan qonaq yenidən şəhərimizə gəldikdə göz oxşayan abadlıq hesabına onu tanıya bilmir. Paytaxtla yanaşı Naxçıvan, Lənkəran, Qəbələ, Sumqayıt və Gəncə şəhərləri də xeyli abadlaşmışdır.

Bəli, Qələbənin nail olunmasının mürəkkəbliyinə görə onun həyata keçirilməsindən də geri qalmayan yeni, iknci fazası başlayır. Xalqımız son müharibədə qeyri-adi ehtiras nümayiş etdirmiş, onu hərbi işə yönəltmişdi. Qələbədən sonra hərbi işə olan ehtiras artıq arxada qalmışdır, lakin bu güclü hiss heç də yoxa çıxmamışdır, mövcudluğunu qoruyub saxlamışdır. İndi bu ehtiras tikinti-quruculuq işlərinə, ölkənin iqtisadi inkişafının sürətləndirilməsinə yönəldiləcəkdir. Prezident İlham Əliyev qeyri-neft sektorunun inkişafı hesabına qarşıdakı on ildə ümumi daxili məhsul istehsalının iki dəfə artırılması vəzifəsini irəli sürmüşdür. İllik artım tempi 8-10 faiz olacaqdır, bu o qədər də əlçatmaz görünmür, əvvəlki illərdə respublika daha yüksək inkişaf tempinə nail olmağı bacarmışdı. Ölkə

iqtisadiyyatı qarşısında qoyulan böyük vəzifə həm də qazanılmış Qələbəyə, onun yaratdığı yüksək əhval-ruhiyyəyə əsaslanır.

Dənizçilik asan fəaliyyət növü deyildir, xüsusi qabiliyyət və fərasət tələb edir. Buxarla işləyən gəmilər icad olunana qədər minilliklər ərzində insanlar əsasən dənizlərdə və okeanlarda yelkənli gəmilərdə üzmüşdülər. Gəminin hərəkət etməsi üçün, qəribə səslənsə də, yanacaq kimi küləyin olması vacib idi. Homerin yazdığına görə, ordunun başında Troyaya yola düşmək istəyən Aqamemnon allahlardan külək əsdirməsini xahiş edib, doğma qızı İfigeniyanı bu məqsədlə qurban vermişdi. Miflərdə qeyd olunduğu kimi, Mikena çarı Troyadan qayıtdıqdan sonra bu qurban ailədə yeni faciələrə səbəb olmuş, onun özü və arvadı Klitemnestra qətlə yetirilmişdi. Yaxud, Hindistana yeni açılmış su yoly ilə gedəndə Afrikanın cənubundan Hind okeanına keçmək üçün qitənin qərb sahili suları ilə üzmək lazım gəlirdi, lakin Qvineya sahilləri yaxınlığındakı sularda dənizçilər küləyin əsməməsi ilə, tam sakitliklə üzləşirdilər, bu isə əsl fəlakət demək idi. Dənizçilər qızmar istidən və susuzluqdan ölürdülər. Portuqaliya dəniz səyyahı Pedru Kabral 1500-cü ildə Hindistana gedərkən bu təhlükədən qaçmaq üçün Qvineya sahilinə yaxınlaşmaq istəməyərək, qərbə doğru üzdü, sonra su cərəyanı onu Braziliya sahillərinə gətirib çıxardı və özündən asılı olmayaraq o, Cənubi Amerika qitəsinin kəşf etməli oldu. Bəzən sərt küləklər, tufan fəlakətə də aparır. 1588 –ci ildə İngiltərəni işğal etməyə gedən ispanların Məğlubedilməz Armadasını məhv etməkdə tufan ingilislərə əvəzsiz kömək göstərmişdi.

Ona görə də dənizçilərə uğur arzulayanda deyirdilər ki, “Yelkənlərin küləklə dolsun!” Azərbaycan isə nəhəng vəzifə qarşısında olduğuna görə onu sevənlərin hamısı bir ağızdan bu iri gəminin dənizçilərinə demək istəyir: “Yelkənlərin fırtına ilə dolsun!” Çünki Qələbənin ikinci fazası başlayır və o əvvəlkindən az səylər tələb etməyəcəkdir. Düzdür, artıq düşmənə qarşı döyüş getməyəcəkdir, lakin müharibələr vaxtı, həm də işğal illərində düşmənin

vurduğu ağır yaraların sağaldılmasına çalışılacaqdır. Yeni qələbə naminə, ən azı daha uzun müddət zəhmət çəkmək lazım gələcəkdir. Şübhə yoxdur ki, Azərbaycan iqtisadi sahədə də zəfər çalmaqla, birinci qələbəsini ləyaqətlə qazandığını sübut etməklə yanaşı, öz xalqının necə böyük bir potensiala malik olduğunu bütün dünyaya göstərdi.

525-ci qəzet

Sərkərdə ordunu şərəfə çatdırır

2020-ci ilin sentyabr-noyabr aylarında gedən 44 günlük müharibə bir çox məsələlərə aydınlıq bəxş etdi,köhnə mifləri dağıtdı, yeni qəhrəmanları səhnəyə gətirdi. Müharibə, Azərbaycanın iftixar mənbəyi sayıla biləcək bir qələbəsi ilə başa çatdı, xalq 30 il ərzində onu utanmağa məcbur edən ləkəni yoxa çıxarmağı bacardı - işğal edilmiş ərazilər azad olundu, Ermənistan ordusu bütünlüklə qovulub öz mağarasında gizlənməyə məcbur edildi.

Müharibə cəmiyyətimizdə də ümumi atmosferi saflaşdıran ozon rolunu oynadı, bu tufan xalqın pərakəndəliyinə son qoydu və onu mistik bir qüvvə ilə möhkəm birləşdirdi. Ən qatı müxalifətçilər də müharibə dövründə olmasa da, qələbədən sonra, onu boya-başa gətirənləri Ali Baş Komandan İlham Əliyevin şəxsində təbrik etdilər. Xalqın bütün seqmentləri isə bir qədər əvvəl hansı mövqedən çıxış etdiyini unudub, müharibədəki zəfərə görə ümumi şadlığa qoşularaq, bu mürəkkəb və çətin işin başlanğıcından sonuna qədər orduya - silahlı orkestrə bacarıqla dirijoruq edənə minnətdarlıq hissləri ifadə etdilər.

Həm də ölkə prezidentinin diplomatik fəallığına, dövlət siyasətinin təbliğatının necə uğurlu qurulmasına və hücumçu xarakterinə heyran qalmışdı. Axı müharibə dövründə təbliğat bir qədər öz funksiyasını dəyişib, döyüşlərin gedişinə təsir edən səmərəli vasitəyə, güclü silaha çevrilir.

Ədalət naminə etiraf etmək lazımdır ki, prezident İlham Əliyev 27 sentyabrdakı ilk cəsarətli addımından sonra bir an da olsun geri çəkilmədi, prinsipial hücumçu mövqeyini tərk etmədi, Şuşa azad ediləndə isə xalqla sevincini bölüşəndə hamı başa düşdü ki, müharibə artıq başa çatır.

Qələbənin tam və qəti olduğuna heç bir qüvvə xələl gətirə bilməz. Üçtərəfli bəyanat əslində Azərbaycanın öz iradəsini bütünlüklə diktə etməsinin ifadəsi idi.

Müharibənin hansısa ekspromt xarakter daşımasını güman edənlər ciddi səhvə yol verirlər. Bu heç də Qay Yuli Sezarın Bospor çarlığının çarı Farnak

üzərində «veni, vidi, vici» - «gəldim, gördüm, qalib gəldim» kimi ifadə etdiyi asan qələbə də deyildi. Vaxtilə hərbi qüdrəti ilə seçilən, böyük əraziləri işğal edən düşmənə qarşı müharibə heç də kiçik məsələ deyildi, həm də onun açıq və gizli havadarları da az deyildi. Əvvəlki qısa müddətli döyüşlərin dayandırılması təcrübəsi göstərdi ki, yenə də kənardan hər cür müdaxilə ola bilər və bu, düşmənlə mübarizəni daha da çətinləşdirər. Ona görə də Ermənistan rəhbərliyinin arxalandığı və müdafiə bastpionu hesab etdiyi Alp dağları timsalındakı müasir maneəni keçmək lazım idi. Bu vaxt məhz Ali Baş Komandan İlham Əliyevin möhkəm iradəsi öz işini gördü, o, bütün mürəkkəbliklərə baxmayaraq, torpaqların azad edilməsi üçün hərbi yolun yeganə vasitə olduğuna əminliyini əsas götürərək, düşmənin həmləsi müqabilində qoşunlarımıza hücum əmri verdi. Əgər bu qərar verilməsəydi, beynəlxalq vasitəçilərin bizə təlqin etdiyi, münaqişənin yalnız dinc yolla həlli barədəki xalqımızın mənafeyinə zidd olan bir ideya işğalın hələ əlavə onilliklər davam edəcəyinə səbəb olacaqdı.

Müharibə elə də asan getmirdi, döyüşlərdə ən yeni texnikadan istifadə olunur, əsgərlərimiz və zabitlərimiz qəhrəmanlıq nümunələri göstərirdilər. Uzun illər ərzində bu döyüşlərə ciddi hazırlıq getmişdi, ordu müasir hərbi texnika, hücum və müdafiə sistemləri ilə silahlandırılmışdı. Bunun arxasında isə son onillikdə ölkəmizin iqtisadi qüdrətinin xeyli böyüməsi dururdu. Deməli, müharibə sadəcə istəyə, emosiyaya deyil, ağıla, ciddi hazırlıqlar görülməsinə əsaslanmışdı.

Xarici siyasətdə bəzi güclərin neytrallaşdırılması, həm də qardaş Türkiyə ilə münasibətlərin yeni səviyyəyə qaldırılması mühüm rol oynadı. Əvvəlki xırda toqquşmalardan fərqli olaraq Rusiya rəhbərliyi Azərbaycanın ərazi bütövlüyünün bərpasının haqq işi olduğu qərarına gəldiyinə görə, müharibəyə kiminsə tərəfində olmaqla müdaxilə etmək istəmədi və yalnız son akkordun vurulmasında iştirakını özü üçün vacib hesab etdi.

Azərbaycan ordusu döyüşlərdə yeni hərbi taktikalardan və silahlardan istifadə etdi və özünə güvənən düşmən üçün mühüm problemlər yaratmağı bacardı. Erməni generalları özlərini qəflətən yuxudan ayılan kimi hiss etdilər ki, XIX əsrdə vuruşmaq heç də Şuşada musiqi təranələri altında rəqs etmək deyildir. Yəqin ki, buna görədir ki, erməni əsgərləri, indi bəzi generalları onları döyüş səhnəsində qoyub qaçdıqlarına görə ittiham edirlər. Koçaryanın, Sarqsyanın, Paşinyanın illər boyu lovğalanması erməni xalqını fəlakətə yuvarlatdı. Bu xalq məğlubiyyətin səbəblərini ciddi surətdə araşdırsa, yəqin ki, öz siyasi və hərbi xadimlərinə, ermənileri azərbaycanlılara qarşı düşmənçiliyə səsləyən qatı millətçilərinə nifrət yağdıracaq, əsgərlərinin kütləvi qaydada cəbhədə həlak olmasının əsl səbəbkarları olan həmin qatillərdən cavab tələb edəcəklər. Həyatda diri qalmaqdansa, ölüb qəbirdə olsaydılar, onlara həyat bəxş etmiş xalqa daha faydalı xidmət göstərmiş olardılar. Axı onlar bu xalqı öz dinc qonşularına qarşı düşmənçiliyə təhrik etmişdilər. «Küləyi səpərsən,tufan biçərsən» zərb-məsəli burada yerinə düşür, onlar külək qaldıranda aldanıb sevinirdilər, tufan onları haqlayanda bir-birlərini ittiham etməyə başladılar.

Müharibə iradələrin münaqişəsidir. Azərbaycanın siyasi rəhbərliyinin möhkəm iradəsi Ermənistan rəhbərliyinin bütün sahələrdəki zəifliyini göstərdi və onlara əyani dərs verdi. Ali Baş Komandan İlham Əliyev hiss etdi ki, gecikmək, fürsəti əldən vermək işğalın nəhayətsiz uzanmasına, xalqın mənəvi aşağılanmasının davam etməsinə yol açacaqdır. Lakin bu vaxt ümid işığı parladı və qələbəyə aparacaq müharibənin başlanmasını özünün imperativ - çox zəruri borcu odluğu fikri prezidentə hakim kəsildi. Ən böyük əzablara qatlaşmaq lazım gəlsə də, dayanmaq olmazdı. Bu həm də zamanın çağırışı idi. Xalq ondan bu addımı gözləyirdi və uğurlu sonluq bu çətin işə başlamağın çox düzgün olduğunu sübut etdi. 1992-1993-cü illərin məğlubiyyətinin kədəri yoxa çıxdı, ürəklərdə gur sevinc hissləri meydana gəldi. Müharibə böyük itkilərə səbəb olsa da, qələbə onların hamısını igidliklərinin səviyyəsindən asılı olmayaraq, şəhidlik zirvəsinə yüksəltdi və bu, onların valideynləri, yaxınları üçün əlavə təskinlik rolunu oynadı. Onlar təkcə qəbirlərdə uyumurlar, xalqın minnətdar ürəyində onların sakral sərdabəsini tapmaq olar.

Müharibənin sona çatması barədə müxtəlif rəylər, fikirlər ola bilər. Lakin heç kəs unutmamalıdır ki, bu sonluq Azərbaycanın qazandığı və təklif etdiyi şərtlər əsasında meydana gəlmişdir. Qələbənin yaratdığı şadlıq isə nadir bir hal xarakteri daşıyırdı. Həmin gün hamıda bir sevinc dəlisovluğu var idi. Allaha da şükür olunurdu ki, xalqa qismət olan bütün xoşbəxtliklər ondan gəlmişdir.

Bu gün prezident İlham Əliyevin doğum günüdür. O, həmişə öz şəxsi bayramını ailəsinin, yaxınlarının iştirakı ilə keçirir. Bu ilki onun birbaşa özünə məxsus olan sevinci bütün xalqın böyük sevinci ilə üst-üstə düşür. Ona ünvanlanan xoş sözlər, ürəkdən gələn arzular, xalqın ona bəslədiyi ehtiram Prezident üçün ən qiymətli hədiyyə hesab edilməlidir. Ən böyük hədiyyəni isə ona özü və Azərbaycan ordusu vermişdir, onun da adı tarixləri bəzəyəcək Qələbədir.

Hər bir böyük tarixi hadisənin qranit kimi, paslanmayan polad kimi silinməz izi qalır. Bu izin casibəbədarlığının digər fərəhli cəhəti orasındadır ki, liderin adını bəzəyəcək həmin parlaq nişanı o, öz əli ilə döyüb yaratmışdır, Napoleonun sözləri ilə desək, öz doğma torpağına qranit plitələrdən yoxa çıxmatan nişanlar qoymuşdur.

Müasir dəyişikliklərin artan sürətinə görə biz bilmirik ki, yüz ildən sonra dünya necə olacaqdır. Axı XXI əsrin başlanğıcının ideyaları da, insanları da bir əsr əvvəl mövcud olmuşlardan xeyli fərqlidir, baxmayaraq ki, keçmişin irsləri bütünlüklə itmir, qeybə çəkilmir, bizə öz təsirini göstərməkdə davam edir. Lakin zaman ötüb keçsə də, insanlar xalqın həyatında baş verən mühüm hadisələri unutmur, ona daim sitayiş qaydasında yanaşmaqda davam edir. Azərbaycanın

qazandığı zəfər gələcəkdə də öz parlaqlığını güman ki, itirməyəcəkdir. Çünki yeni nəsillər üçün də Qələbə ruhu inkarnasiya edərək, müqəddəs bir ənənə xatirəsi kimi yenidən meydana gələcəkdir. Çox şeylər yaddan çıxsa da, unudulsa da, 2020- ci ildə qazanılmış zəfər daim xatırlanacaq, onun arxitektoru olan sərkərdə də daim layiq olduğu uca hörmətlə yad ediləcəkdir.

525-ci qəzet

24.12.20

Qələbənin mühüm cəhətlərinin tarixi prototipləri

Zəfərin iki xalqa təsiri

Bir neçə aydır ki, İkinci Qarabağ müharibəsindəki qələbənin vəsfinə həsr olunmuş xoş sözlər, həqiqi məna yükünə malik olan tərifler deyilir, sənət adamları xalqın sevincini tərənnüm etməkdə bir-birilə yarışırlar. Matəm haləsinə bürünmüş uzun illərdən sonra Qələbə ölkəyə bayram əhval-ruhiyyəsi gətirmiş, xalqın özünü təsdiqinə şərait yaratmış və onun öz qüvvəsinə inamını bütünlüklə bərpa etmişdir. Axı son iki əsr ərzində ölkəmizin buna bənzər böyük uğuru, düşməni diz çökdürmək faktı olmamışdı.

Qələbə həm də öz sağlamlaşdırıcı təsiri ilə elə bil ki, xalqı da dəyişdirə bilmiş, harada yaşamasından asılı olmayaraq azərbaycanlıları yumruq kimi birləşdirmişdi. Dünya azərbaycanlılarının həmrəyliyi ideyası çoxdan meydan gəlsə də, onun reallaşmasına, gerçəkləşməsinə böyük miqyasda yalnız 2020-ci ilin noyabrından sonra nail olunmuşdur. Qazanılan zəfər təkcə hərbi parad vasitəsilə qeyd olunmamış, həm də xalqın, millətin düşüncə tərzinə sehrli bir işıq salmış, onu saflaşdırmışdır.

Tarix dünya siyasətinə güclü təsir göstərən. qüvvələr nisbətini köklü surətdə dəyişdirməklə, yeni beynəlxalq münasibətlərin formalaşmasına yol açan böyük miqyaslı müharibələrə şahiddir. 1856–1763-cüillərdə gedən Yeddiillik müharibə, Birinci Dünya müharibəsi (1914–1918-ci illər) və İkinci Dünya müharibəsi (1939–1945-ci illər) Yer üzünün xəritəsində mühüm dəyişikliklər əmələ gətirmiş, natsizmi və yapon militarizmini məhv etmiş, yeni fövqəldövlətlərin meydana gəlməsi ilə əlamətdar olmuşdur.

Azərbaycan və Ermənistan savaşı miqyasına və nisbətən kiçik ərazini əhatə etməsinə görə onlarla müqayisə olunmasa da, iki xalqın taleyində oynadığı rola görə olduqca böyük əhəmiyyətə malikdir. Azərbaycan işğal altında olan

torpaqlarını bütünlüklə azad etdi, düşmən ordusunu məhv təhlükəsi altına salıb, ölkə hüdudlarından qovub çıxartdı. Ermənistan üçün isə məğlubiyyət əsl fəlakət, faciə xarakterinə yiyələndi, ermənilərin şüurunda baş verən metamorfozaya uyğun olaraq, müstəqil dövlət kimi onlara məxsus varlığı şübhə altına alan dəhşətli bir fikir meydana gəldi. Dünənə qədər özünü qonşu xalq üzərində qalib hesab etməklə, cəzasız qalacaqlarını güman edən ermənilər daha böyük fəlakətlə üzləşəcəkləri qorxusuna məruz qaldı. Azərbaycan uzun illər davam edən biabırçılıqdan azad olduğu halda, ermənilər daha böyük itkiyə məruz qalmaq təhlükəsini göz önünə gətirərək, dözülməz biabırçı psixoloji durumda yaşamağa başladı və gələcəyə olan ümidini də itirdi.

Qələbəmizin bir sıra mühüm cəhətlərini tarixdə baş vermiş böyük hadisələrdə, onun qədim prototiplərində tapmaq mümkündür. Bu heç də zəfərin əhəmiyyətini şişirtmək, hiperbolaya yol vermək istəyi deyildir. Çünki mənfur düşmən üzərində qazanılan uğur gözlənildiyindən də daha vacib nailiyyətlərə səbəb olduğundan, onun tarixdə mövcud olmuş bənzərliklərlə müqayisə etmək heç də qəbahət sayılmamalıdır. Böyük hadisələrə bir qayda olaraq böyük şəxsiyyətlər imza atır və onların bəzi xüsusiyyətləri sonrakı hadisələrdə də özünü büruzə verir. Digər tərəfdən, tarixi bəzəyən əməliyyatlar, hərəkətlərin də çoxu o qədər də böyük miqyasda baş verməmişdir, hətta xırda məkanda da fədakarlıq, qəhrəmanlıq öz ifadəliyliyinə görə həmin yerin özünə də şöhrət qazandırır. Bizim eradan əvvəl 480-ci ildə Persiya çarı Ksepksin başçılığı altında 150 minlik ordu Yunanıstana müdaxilə etmək üçün onun şimali-şərqindəki Fermonil keçidindən keçməli idi. Keçiddə onları Sparta çarı Leonidin başcılıq etdiyi 300 spartalı qarşıladı. Persiyalılar onların cəsarətinə təəccüb edirdilər. Onlar xeyli müqavimət göstərdikdən sonra, üçüncü günü son döyüşə girməli idilər. Leonid bəzi döyüşçülərin kədərli olduğunu görüb, onlara dedi: «Onsuz da şamı cəhənnəmdə edəcəyik, gəlin səhər yeməyinizi yeyin». Hamı yaxşı əhval-ruhiyyədə çörəklərini yedi, vuruşa hazır oldular. Onlar düşmənin yağdırdığı oxlardan həlak oldular, lakin qəhrəmanlıqları min illər keçsə də, dillərdən düşmədi.

B.e.ə. 431–404-cü illərdə Afina ilə Sparta arasında gedən Peloponnes döyüşü iki yunan şəhər-dövlətinin (polisinin) düşmənçiliyi, Spartanın təcavüzü nəticəsində baş vermişdi. Sparta Afinanı tutdu, lakin şəhəri viran qoymadı, bir neçə on illik sonra özü də işğal olunmaq təhlükəsi ilə üzləşdi. Fiva çarı Epaminond spartalıları darmadağın etdi, lakin Spartanı tuta bilmədi, yalnız sərkərdənin ölümü şəhəri bu təhlükədən xilas etdi. Öz militarizminə bel bağlayan, qapalı Sparta dövləti sonralar tarixi tərk etdi, b.e.ə. 146-cı ildə Roma tərəfindən Korinf işğal edildikdən sonra bu ərazi imperiyanın bir əyalətinə çevrildi və bir daha şəhər-dövlət kimi mövcud olmadı. Afina isə yaşamaqda davam etdi, öz mədəni və siyasi irsini bəşəriyyətə töhfə kimi verdi.

Tarixçi Fukidid Peloponnes müharibəsini elə təsvir edir ki, iki Balkan şəhər-dövləti arasındakı müharibə elə bil ki, dünya ağalığı üstündə gedir. Təcavüzkar Sparta Afinanın elmi, iqtisadi, mədəni inkişafına qısqanclıqla yanaşıb, məhv

etməklə onun təsir gücünü yoxa çıxartmağa cəhd edirdi. Bəzi paxıllıq mərəzinə tutulmuş müasir dövlətlərlər də Sparta ilə oxşarlığı özündə büruzə verir.

QayYuli Sezarın b.e.ə. 52-ci ildə Qall şəhəri Aleziyanı tutması və sərkərdəVertsinqetorikı əsir götürməsi böyük hay-küyə səbəb olmuşdu.

Bunlar hamısı müəyyən şöhrət haləsinə bürünmüşdür, həmin hadisələrin baş iştirakçıları- müəllifləri görkəmli tarixi şəxsiyyətlər hesab olunur. Azərbaycanın Ermənistan üzərində qələbəsi də ən azı iki xalqın, regionun salnaməsində möhkəm iz qoyduğundan, qədim prototipləri ilə müqayisə onu heç də böyütmək cəhdi kimi qəbul edilməməlidir. Faktın özü qiymətlidirsə, hansısa bir müqayisə onun əhəmiyyətinə əsaslı bir şey əlavə edə bilməz. Elə təsəvvür yaranmamalıdır ki, bütün müharibələr böyük ərazilərdə və nəhəng güclər arasında getmişdir. Azacıq nəzər salsaq görərik ki, Makedoniyalı Aleksandrın persiyalılara qarşı İss və Qavqamala, Hannibalın romalılara qarşı Kann, Trayanın Dakiyadakı, Böyük Karlın, Çingiz xanın, Teymurləngin və Napoleonun apardığı döyüşlər, XVIII-XX əsrlərdə gedən, çox saydakı dövlətlərin iştirak etdikləri müharibələr istisna edildikdə, çox sayda müharibələr miqyasına görə elə bir təəccüb doğuran xarakter daşımamışdır. Ona görə də hansı məqsədlərdən asılı olmayaraq, Azərbaycanın qələbəsini kiçiltmək, adiləşdirmək cəhdlərinin qarşısı alınmalıdır, bu vaxt vuruşan iki xalqa aid olan müsbət və mənfi çalarların göstərilməsi bu məsələdə tutarlı dəlil rolunu oynaya bilər.

Müharibəyə başlamaq qərarının vaxtı

Prototiplərə müraciət edərkən, müharibəyə başlamaq vaxtının düzgün seçilməsi, malik olduğu resursların döyüşlərin şiddətlə və uzun sürməsinə uyğun gəlməsi, qələbənin qazanılacağına xidmət göstərən düzgün planlaşdırma və ona bəslənilən sarsılmaz inam mühüm rol oynayır. Makedoniyalı Aleksandr yürüşü davam etdirərkən logistika məsələlərinə ciddi fikir verirdi.

Dünya tarixində böyük hadisələrin baş verməsi, onu həyata gətirən şəxslərin - əsl liderlərin iradə gücündən, ağıllı riskə getməyə hazır olmasından, qətiyyətli hərəkətindən çox asılıdır. Onlar öz dəsti-xəttləri ilə tarixə yeni səhifələr yazmaları ilə seçilir.

Bəşəriyyət salnaməsində ən məşhur sərkərdə kimi bir şərəfə sahib olmuş Bğüyk Aleksandr qeyri-adi cəsarətə, orduya məharətlə pəhbərlik etmək qabiliyyətinə görə, həm də şəxsi igidliyinə görə həqiqətən də unikal bir şəxsiyyət idi. O, 22 yaşında mərhum atasının planlarını həyata keçirmək üçün Asiyaya yürüş etmiş, on il müddətində böyük əraziləri işğal etməklə, o vaxtlar məlum olan dünyanın sonuna çatmağı qət etmişdi. Yorulmuş ordunun tələbi ilə Hindistandan geri dönməyə məcbur olmuşdu.

Atası, Makedoniya çarı II Filipp b.e.ə. 336-cı ildə artıq Yunanıstanda hegemonluğa yiyələndikdən sonra Persiyaya ümumyunan yürüşünü hazırladığını

elan etdi. Lakin onu həmin il qızı Kleopatranın toyunada öldürdülər, ona görə də planını həyata keçirə bilmədi.

Oğlu, Makedoniyalı Aleksandr (III Aleksandr) çar oldu, əvvəlcə Yunanıstandakı tayfa üsyanlarını yatırtdı və sonra Persiya ilə haqq-hesabı çürütmək istədi. Çünki b.e.ə. VI-V əsrlərdə Persiya üç dəfə Yunanıstana müdaxilə etmiş, persiyalılar 480-ci ildə Afinanı yandırmışdılar. Ona görə də yunanlarda qisas hissi çox güclü idi. II Filippin planı da, Aleksandrın yürüşü də buna əsaslanırdı. Həm də həmin dövrdə Persiya imperiyası xeyli zəifləmişdi. Aleksandr əvvəlcə Kiçik Asiyanın cənubundakı İoniya yunan dövlətlərini persiyalıların zülmündən "azad etdi", dörd il ərzində Persiya imperiyasının bütün ərazisini işğal etdi. Misirdə onu xilaskar kimi qarşılayırdılar.

Napeleon da 1796-cı ilin noyabrında Milan yaxınlığında düşmən atəşi altında olan Arkol körpüsündə əsgərlərinin qorxub qaçdığını görüb, özü körpü ilə irəli yüyürməyə başlamaqla əsgərlərini ruhlandırdı və fransızlar avstriyalılara qalib gəldilər. Bu döyüş Napoleonun gələcək nəhəng şöhrətinin başlangıcı rolunu oynadı.

İnqilab da öz ruhu ilə müharibəyə çox bənzədiyindən, ona başlamaq vaxtının düzgün seçilməsi, gecikməyə yol verilməməsi məqsədə çatılmasına, hakimiyyətin ələ keçirilməsinə şərait yaradan vacib amilə çevrilir. Bu məsələni araşdırdıqda Böyük Oktyabr inqilabı ərəfəsində V.İ.Leninin düzgün mövqe tutub, xalqı inqilaba vaxtında qaldırmasını misal göstərmək olar.

1917-ci ilin iyulunda baş verən Kornilov qiyamı yatırıldıqdan sonra Müvəqqəti hökumətin taleyinə görə qorxuya düşən onun başçısı A. F.Kerenski hamı ilə, bolşeviklərin daxil olduğu sol inqilabçılarla da ittifaqa girmişdi. Onsuz da Müvəqqəti hökumətlə yanaşı, Petroqradda Fəhlə və Əsgər deputatları Sovetləri real hakimiyyətə malik idi. Yenə də «Bütün hakimiyyət Sovetlərə» şüarı irəli sürüldü və bu, əslində, bolşeviklərin hakimiyyəti ələ keçirməsi çağırışı idi.

Həm də Leninə məlumat verilmişdi ki, Avstriya-Macarıstan Birinci Dünya müharibəsini tərk edəcək və bu, rus ordusunun vəziyyətinin yaxşılaşdıracaqdır. Cəbhədə qazanılan bir-iki qələbə Petroqraddakı inqilabi ruha zərbə vura bilərdi. Çünki inqilabı məğlubiyyət qidalandırır, meydana gətirir. 1905-ci il rus-yapon müharibəsində Rusiyanın biabırçı məğlubiyyətindən sonra I Rus inqilabı baş vermişdi. Cəbhədə rus ordusunun vəziyyəti ağırlaşanda və böyük itkilər verilində 1917-ci ilin Fevral İnqilabı monarxiyanın ləğvi ilə nəticələndi.

Ona görə də Lenin inqilabın gecikmədən başlanmasını tələb edirdi. RSDFP Mərkəzi Komitəsi üzvlərinə yazdığı məktubda deyirdi: «Gözləmək olmaz! Hər şeyi itirmək olar. Çıxış edilməsində gecikmək ölümə bərabərdir». Oktyabrın 24-dən 25-nə keçən gecə bolşeviklərin Hərbi-İnqilab Komitəsi Petroqraddakı strateji əhəmiyyət daşıyan idarələri tutdu və Müvəqqəti Hökumət hakimiyyətdən qovuldu. Lenin Xalq Komissarları Sovetinin sədri oldu.

Avstriya-Macarıstan məsələsinə gəldikdə, 24 oktyabrda imperiyanın əsgərləri Kaperottada italyanlarla döyüşə başlasa da, ağır məğlubiyyətə uğradı, 450 minə yaxın Avstriya-macar əsgəri və 24 general əsir götürüldü. Avstriya-

Macarıstanda etnik xalqlar qiyama başladılar. Onun qoşunu müharibəni tərk etməsə də, çox zəifləmişdi.

Uzun müddət idi ki, Azərbaycan qarşısında öz ərazilərini düşməndən azad etmək vəzifəsi dururdu. Bu vacib vəzifə ciddi hazırlıq görülməsini tələb edirdi. Respublika rəhbərliyi lazım olan bütün hazırlıq tədbirlərini görmüşdü, müharibəni vaxtında başlamaq vəzifəsi də heç də xırda məsələ deyildi. Azərbaycan prezidenti günü- gündən azğınlaşan və atəşkəsi pozan ermənilərə qarşı 2020-ci il sentyabrın 27-də müharibəyə başlamaq əmrini verdi. Döyüşlər uğurla gedirdi və noyabrın 10-da Qələbə təbili çalındı. Belə nəticə müharibəyə başlamağın vaxtının düzgün seçilməsinin də böyük əhəmiyyət daşıdığını göstərdi və hadisələrin gedişi də təsdiq etdi ki, bu cəhət də əsl ustalıq qaydasında nəzərə alınmışdır.

Əgər bir müddət gecikməyə yol verilsəydi, bu, güc sahibi olan dövlətlərini işə qarışmasına, döyüşlərin gedişinin dayandırılmasına, nəticə etibarilə işğalın müddətinin qeyri-müəyyən şəkildə uzanmasına yol açardı. Digər tərəfdən yaxınlaşan və başlayan qış ordunun döyüş əməliyyatlarına və hərbi texnikadan səmərəli istifadəyə böyük maneə törədərdi. Müharibəyə başlamağın gecikməsi həm də digər əngəllərin meydana çıxmasına, təsadüflərin təsirinin artmasına səbəb olardı. Döyüşlər payız günlərində getsə də, yaxşı hava şəraiti də işlərin uğurlu getməsinə şərait yaratdı, axı əməliyyatlar əsasən dağətəyi zonalarda gedirdi.

Ali Baş Komandan İlham Əliyev müharibənin ilk günlərindən sonuna qədər əməliyyatlara bilavasitə rəhbərlik etdi və zabitlərin çox vaxt bəhanə kimi istifadə etdikləri ehtiyatlılıq naminə ləngimələrinə, hücumun zəifləməsinə imkan vermədi. Çünki bəzi yüksək rütbəli zabitlər riskə getməkdən qorxur, hücumun baş tutmayacağını əsas gətirərək, ona fasilə verir, bu isə ordunun, əsgərlərin döyüş ruhuna zərbə vurmamış qalmırdı.

1863-cü ilin iyulun lap əvvəlində ABŞ-dakı vətəndaş müharibəsi gedərkən Gettsburqda yunionistlər (şimallılar) və konfederatlar (cənublular) arasında gedən üçgünlük döyüş yunionistlərin qələbəsi ilə nəticələndi. Şimallıların generalı Qrant cənubluların 32 min əsgərini, 5 generalını əsir götürmüşdü. Şimallıların 1863-cü ilin yayındakı hərbi uğuru vətəndaş müharibəsinin gedişini dəyişdirdi. 4 iyunda tar-mar edilmiş cənubluların ordusu general Linin komandanlığı altında Virciniyaya dönmək istədi. Bu vaxt prezident Linkoln general Midə göstəriş verdi ki, Li ordusu Potomak çayını keçməmişdən onu haqlasın və məhv etsin. Potomakda suyun səviyyəsi qalxdığından cənublular çayı keçə bilmirdi. Əla təbii tələ yaranmışdı, düşmən sadəcə əlin içində idi. Yalnız onu əzmək lazım idi. Lakin Mid ona verilmiş tapşırığa məhəl qoymayıb, hərbi şura keçirtdi və Liyə hücum etmədi. İyulun 14-də suyun səviyyəsi endiyindən cənublular çayı keçib, öz Virciniyalarına qayıda bilmişdilər. Mid ləngiməklə Cənub ordusunun məhvinə mane olmuş, müharibənin də az qala iki il uzanmasına şərait yaratmışdı. Li ordusu məğlub edilsəydi, müharibə başa çatar, əlavə qan tökülməsinin qarşısı alınardı.

Azərbaycan ordusunda belə əməllərin baş verməsinə imkan verilmədi, dağ çayını andıran hücumun şiddəti bir an da olsun azalmadı və 8 noyabrda Şuşa alınanda müharibənin taleyi artıq bütünlüklə həll olunmuşdu.

Qətiyyyətlilik uğur qazandrır

Hərb məsələlərində qətiyyətli olmaq, mümkün təhlükələri ağıllı qaydada nəzərə almaq, avantüra meyillərindən uzaq olmaq məqsədin həllinə kömək edir, yaxşı nəticələr verir. Qətiyyətli addım onun müəllifinin bəslədiyi niyyətlərə çatmaq imkanı yaradır. Axı insan özündən sonra nə qoyub getdiyi ilə böyük olur.

Qalliyadakı döyüşlərdən qazandığı böyük uğurlarla qayıdan Yuli Sezarı triumf əvəzinə Senatın və həmin dövrdə kolleqasız konsulluq edən Pompeyin ədalətsiz münasibəti gözləyirdi. Onun tərəfdarları da sıxışdırılırdı. Sezarın Senatla münaqişəsi əvvəlki illərdən, konsul olarkən başlamışdı. Konsul kimi özünün və müttəfiqlərinin mənafeyi naminə qanunları pozur, xalq tribunlarının etirazına, hətta dini qadağalara məhəl qoymurdu. O, Senatda adamları alçaltmaqdan da çəkinmirdi, bir əleyhdarı olan senator çıxış edəndə, onun başına bir vedrə peyin tökdürmüşdü. Sezar b.e.ə. 49-cu ilin yanvarında qanun icazə vermədiyi halda, Qalliyanı İtaliyadan ayran kiçik Rubikon çayını bir legionla keçməyi qət etdi. Bu vaxt o, bu hərəkətinin ciddi nəticələrə səbəb olacağını bilirdi, lakin tərəddüd etməyib, «Alea jacta» – «Püşk atılmışdır» deyib, çayı keçdi. Çünki qanun sərkərdəyə ordusu ilə birlikdə Roma ərazisinə girməyə icazə vermirdi. Lakin Sezar Senatın tələbi ilə ordunu buraxsa və Romaya silahsız qayıtsa, əleyhdarları onu məhkum edəcək və Romadan qovacaqdı.

Ölkədə vətəndaş müharibəsi başlandı, Sezar paytaxta müqavimət göstərilmədən daxil olarkən, Pompey ordusu ilə birlikdə Yunanıstana qaçmışdı. Sezar onun arxasınca getdi və b.e.ə. 48-ci ildə Farsaldakı döyüşdə Pompey qüvvələrini məğlub etdi. Bu dəfə də sığınacaq tapmaq üçün Misirə qaçan Pompey orada da öldürüldü, Sezar isə Misirdəki sarayda hakimiyyət dəyişikliyi etməklə, ölkəni Romanın nüfuz zonasına daxil etdi. B.e.ə. 30-cu ildə isə Misir Romanın əyaləti oldu.

Sezar Romaya qayıtdıqdan sonra çar səlahiyyətlərinə yiyələndi, lakin b.e.ə. 44-cü ilin martında respublika quruluşu tərəfdarlarının təşkil etdiyi sui-qəsddə öldürüldü.

Sezar qətiyyətli hərəkət etməklə Senatın və Pompeyin ədalətsiz münasibətinə cavab vermək istəmişdi, lakin dövlətə zərbə vuran vətəndaş müharibəsinə yol açmışdı. O, Rubikonu keçəndə yalnız öz şəxsi mənafeyini güdmüşdü, qanuna, vətəndaş müharibəsinin başlanacağı variantına məhəl qoymamışdı və gələcək şəxsi fəlakətinin də baş verməsinə şərait yaratmışdı.

Azərbaycanda isə Prezident qətiyyətli hərəkəti ilə birinci növbədə xalqın ümdə mənafeyinə xidmət etmişdi, heç bir şəxsi məqsəd güdməmişdi. Xalqının və ölkəsinin üstündən işğalın biabırçı damğasını silib təmizləməklə, düşməni doğma torpaqlardan qovmaqla, yalnız ölkənin ərazi bütövlüyünü bərpa etmək məqsədini güdmüşdü. Həm də o, nə öz dövlətinin qanunlarını, nə də beynəlxalq hüququn norma və prinsiplərini pozmamışdı.

Digər bir tarixi şəxs, Napoleon təkcə döyüş səhnəsindəki Austerlits, İena döyüşlərində qazandığı böyük qələbələrə görə şöhrət tapmamışdı. Uğursuzluqları ilə əlaqədar 1814-cü ildə Aralıq dənizindəki Elba adasının idarəçiliyinə sahib olmağa göndərildikdən bir il sonra, 1815-ci ilin martın 1-də üzüb, Fransa sahilinə çıxmışdı. Bu olduqca riskli hərəkət idi. Kral XVIII Lüinin onun həbs etməyə göndjərdiyi marşal Ney söz vermişdi ki, Napoleonu «dəmir qəfəsdə gətirəcəkdir». Lakin o, qorxmadan əsgərlərin qabağına çıxıb, sinəsini açaraq onu vurmağı əmr etmişdi. Əsgərlər, marşal Ney də onun tərəfinə keçdi. Napoleon öz qətiyyəti ilə şəxsiyyətinin bütövlüyünü bir daha təsdiq etmişdi. O, Parisə daxil olanda, kral qaçmışdı və onun bərpa olunan hakimiyyəti əlavə «yüz gün» davam etdi. 1915-ci il 18 iyununda Vaterloodakı ağır məğlubiyyətindən sonra o, MüqəddəsYelena adasına sürgün edildi və altı il sonra orada öldü. Lakin onun döyüşlərdə nümayiş etdirdiyi yüksək sərkərdəlik məharəti ilə yanaşı, Elbadan qaçdıqdan sonrakı cəsarəti və qətiyyəti onun şərəf salnaməsini daha da bəzəyir.

Mahatma Qandi 1914-cü ildə vətəni Hindistana dönənə qədər Cənubi Afrika Respublikasında vəkil işləyərkən ağların ağalığına qarşı, hindli köçkünlərin siyasi hüquqları uğrunda mübarizə aparmış, işgəncələrə məruz qalsa da, tutduğu yoldan bir an da olsa çəkilməmişdi. O, zorakılıqsız müqavimət taktikasını işləyib hazırladı, bu, «satyaqraxa» («həqiqətdə inadkarlıq» demək idi) təlimi idi. Hindistanın müstəqilliyi uğrunda onun mübarizə taktikalarını Hindistan Milli Konqresin partiyası öz ideya silahı kimi istifadə etdi.

Mahatma Qandi zorakılıqsız mübarizəni təbliğ və tətbiq edəndə, istər Cənubi Afrika Respublikasında, istərsə də öz vətənində hər cür təqiblərə məruz qalsa da, qətiyyəti və polad iradəsi hesabına öz mübarizə üsulundan bir an da olsun geri çəkilmədi.

XX əsrin digər görkəmli siyasi xadimi Uinston Çörçill Böyük Britaniya Hitler ordusunun hava hücumlarına qarşı gücsüz olan bir vaxtda, 10 may 1940-cı ildə baş nazir təyin edildi. Bu vaxt ölkədə Hitlerlə sülh müqaviləsi bağlamaq tərəfdarları da az deyildi, kral ailəsində də Hitlerə pərəstiş edənlər var idi. Keçmiş kral VIII Eduard natsist rəhbərliyinə yaxınlığı ilə seçilirdi. Belə bir şəraitdə Çörçill son ingilis qalana qədər Hitler Almaniyası ilə vuruşmaq mövqeyində dayanmışdı. O inanırdı ki, natsizm ilə heç bir kompromis ola bilməz. İyun ayında Fransa almanlara təslim olub, mübarizə sırasını tərk edəndə, Böyük Britaniya hərbi cəhətdən çox güclü Almaniyaya qarşı təkbaşına müharibə aparmalı oldu. Lakin Almaniya Britaniya adalarına müdaxiləsinin vaxtını geri çəkməyə məcbur oldu və onun niyyəti baş tutmadı. Lakin Çörçill qələbəyə inamını itirmirdi və o, Müttəfiq ordularının alman natsizmi, Hitler üzərində 1945-ci ilin mayında qazandığı parlaq qələbənin arxitektorlarından biri oldu.

Qətiyyətli hərəkət etmək, iradə möhkəmliyi, verdiyi qərarın icrasına görə məsuliyyətdən qaçmamaq bir qayda olaraq liderə hörmət qazandırır, onun nüfuzunu artırır. Ruhdan düşənlər də liderin mövqeyinin sarsılmazlığından nəticə çıxarır, onların özündə də qarşıdakı çətin, lakin mümkün olan qələbəyə inam yaranır.

1941-ci ilin payızında alman ordusu Moskvaya çox yaxınlaşanda, hökumət, nazirliklər Kuybışev şəhərinə köçmüşdü. 16 oktyabrda İ.V.Stalin Moskvanı tərk etmək üçün dəmir yol vağzalına gəlmişdi, o, perronda xeyli gəzişdikdən sonra düşüb maşına əyləşib, Kremlə qayıtdı.

O, mühasirə vəziyyəti elan etdi və şəhərdə hərbli qayda qoydu və belə bir əmr verdi: «Moskva sonuncu sakinə kimi müdafiə ediləcəkdir».

Noyabrın 7-də isə Oktyabr inqilabının ildönümünə həsr olunmuş hərbi paradda Mavzoleyin tribunasından əsgərləri salamladı. Parad göstərdi ki, Moskva yaşayır, vuruşa kömək edir. Dekabrın 6-da isə Sovet ordusu əks-hücuma keçib, alman qoşunlarını paytaxtdan 200 km uzaqlaşdırdı. Hərbi parada gəldikdə, bu qeyri-adi tədbir bütün dünyada böyük əks-səda yaratdı.

Digər bir misal isə müasir dövrümüzə aiddir. 2011-ci ilin mart, aprel aylarında görünməmiş tsunami Yaponiyanın şimal-şərq sahilinin xeyli hissəsini yuyub, okeana tökdü. «Fukusima–1» atom elektrik stansiyasında qeyri-adi dərəcədə olan bir qəza baş verdi. Tokioda və ətraf regionda radioaktiv maddələrə yoluxma təhlükəsi çox böyük idi.Xarici səfirliklər paytaxtdan yüz kilometrlərlə aralı olan cənubi-qərbə qaçmışdılar.

Hökumət imperator Akixitoya şəhərdən çıxıb, 500 km məsafədə olan Kiotodakı köhnə imperator sarayına köçməyi təklif etdi. Hamı istəyirdi ki, mikado paytaxtı tərk edib, təhlükəsiz yerdə yaşasın. İmperatorun isə buna cavabı lakonik «mümkün deyil» (yaponca «arienay») sözü oldu. Səbəb kimi isə onu irəli sürdü ki, axı Tokio əhalisi evakuasiya edilməmişdir. Bu, Akixitonun qətiyyətini, xalqın əsl rəmzi olduğunu bir daha göstərdi. Onsuz da imperatorun ölkədə mövcud olan böyük nüfuzu bu hərəkəti ilə daha da artdı.

Digər bir hadisə isə böyük şəxsiyyətlərin deyil, sıravi yapon məmurunun vətən qarşısındakı borcuna sədaqətini, buna görə əsl fədakarlıq göstərməsini nümayiş etdirir. «Fukusima–1» atom elektrik stansiyasında tsunami nəticəsində bir blokun partlaması kimi baş verən qəzaya həm də yanğın əlavə olunmuşdu. Yanğın geniş miqyas alsa və əlavə bloklar partlasa, radioaktiv şüalanma təhlükəsi təkcə şəhər üçün deyil, bütün ölkə üçün ölümcül ola bilərdi. Tokio yanğınsöndürmə idarəsinin rəisinə göstəriş verildi ki, komandası ilə birlikdə həmin yanğını söndürməyə getsin. Bu əmrin icrası ölümün ağuşuna atılmağa bərabər idi. Rəis arvadına zəng edib, vəziyyəti çatdırdı və atom stansiyasına getdiyinə görə onunla vidalaşmaq istədi. O gözləyirdi ki, xanımı ona ehtiyatlı olmağı, özünü qorumağı deyəcəkdir. Arvadı isə ona qısa, əmrə bənzəyən bir şəkildə dedi: «Yaponiyanı xilas et!» Bu onun fədakarcasına işə girişməsi qərarlılığını daha da möhkəmləndirdi. Onlar yanğını söndürə bildilər və sağ qaldılar, Yaponiya da Çernobıl təhlükəsindən xilas olundu. Göründüyü kimi, vətənin müdafiəsinə atılmaq, tərəddüd etməmək öz mükafatı kimi insanın həyatını da hifz edə bilir.

Müharibədə yeni və səmərəli silahın rolu

Müharibədə döyüşlərin taleyini həll edən, tərəflərdən birini qələbəyə çatdıran mühüm amillərdən biri istifadə olunan silahların bolluğu və səmərəliliyidir. Silahın yeni olmasından, digərlərindən keyfiyyətcə və sürət etibarilə üstün olmasından çox şey asılıdır. Müharibədə insan ağlı və fərasəti sınağa çəkildiyinə görə daha mükəmməl silah, hücum və müdafiə vasitələri mühüm rol oynayır. Bir silah növü nə qədər fayda verməsindən asılı olmayaraq onun gücünə aludə olmaq, onun qələbəyə çatdıracağına bel bağlamaq nəticə etibarilə fayda vermək əvəzinə, onu fetişləşdirəni məğlubiyyətə yaxınlaşdırır. Napoleon quru döyüşlərində taktiki möcüzələr göstərirdi, sərəncamında olan artilleriyadan və canlı qüvvədən səmərəli istifadə etməkdə özünə bərabər olan sərkərdə tanımırdı, bu səbəbdən də tərkib etibarilə ikiqat üstün olan rəqibinin də ağır məğlubiyyətə düçar edirdi. Lakin onun hərbi-dəniz donanması başlıca düşmən hesab etdiyi Böyük Britaniyanınkından xeyli zəif idi. İngilis admiralı Horatsi Nelson Napoleon Misirdə vuruşarkən fransızların Abukirdəki hərbi gəmilərini məhv etmişdi. 1805-ci ilin oktyabrında isə NelsonTrafalqar körfəzində fransızların və ispanların birgə hərbi donanmalarını darmadağın edib, Napoleonun məğlubedilməzlik mifinə ağır zərbə vurmuşdu. Həmin döyüşdə Nelson özü həlak olsa da, heybətli düşmənینə qarşı mübarizədə İngiltərəyə əvəzsiz xidmət göstərmişdi.

Birinci Dünya müharibəsində almanlar İngiltərəyə qarşı dəniz döyüşlərində sualtı qayıqlardan geniş istifadə etmişdi. Kayzer II Vilhelm Britaniya hərbi-dəniz qüvvələrinə nisbətən üstünlük əldə etmək üçün dəniz silah növü kimi submarinlərə ciddi fikir verirdi. Onların tətbiqi nə qədər mükəmməl olsa da, fayda versə də, təkcə bir silahla müharibədə qalib gəlmək mümkün deyildir və nəticə etibarilə Almaniyanın liderlik etdiyi Mərkəzi dövlətlər adlanan ittifaq Antantaya uduzdu.

İkinci Dünya müharibəsində isə Hitler Atlantik okeanda ağalıq etmək üstündə gedən dəniz döyüşlərində sualtı qayıqların böyük rol oynadıqlarına məhəl qoymayaraq, suüstü gəmilərin qayırılmasını prioritet əhəmiyyətli hesab edirdi. Onun böyük ümid bəslədiyi «Bismark» nəhəng hərb gəmisi ilk döyüşə başlamamış ingilislər tərəfindən partladılıb batırıldıqda, Hitlerin ümidləri də puç oldu.

Azərbaycan ordusu İkinci Qarabağ müharibəsinə hərtərəfli qaydada hazırlaşdırılmışdı, ən yeni silahlarla, hərbi texnika və pilotsuz uçuş vasitələri ilə təchiz edilmişdi. Döyüşlərin ilk günlərindən düşmənlə müqayisədə Azərbaycan ordusu daha yaxşı silahlanması ilə fərqlənirdi. Ermənistan isə bir neçə il ərzində döyüş xəttində tikdiyi möhkəm istehkamları ən güclü müdafiə silahı hesab edib, onlara bel bağlayırdı. İşğal etdiyi əraziləri fransızlarınkına bənzər yeni Majino xətti ilə qoruyucağına əmin idi, istehkamları ötüb keçmək imkanlarına isə məhəl qoymurdu. Əlbəttə, istehkam səmərəli müdafiə qurğusudur, lakin onu bütün hücumlara davam gətirə biləcək panatseya olduğuna inam bəsləmək ağılsızlıqdan başqa bir şey deyildir.

Ordu həm döyüş hazırlığı, həm də ruhu, fədakarlığa hazır olmaq hissi ilə düşməndən üstün olmalıdır. Napoleon qələbənin ¾-nü ordunun mənəvi qüvvəsində görürdü. Lakin bunlar da hansı silah növlərindən istifadə edilməsini, onun

müasirliyinin və effektliliyinin əhəmiyyətini azalda bilməz. Azərbaycanın siyasi rəhbərliyi bu vəzifəni daim diqqətdə saxlamış və uğurla həll edə bilmişdi. Ordumuz döyüş texnikası cəhətincə Ermənistan ordusundan çox güclü idi. Onun cəbbəxanası ən müasir silahların və döyüş texnikasının sərgisini andırırdı. Həm də əsgərlər və zabitlər onlardan ustalıqla istifadə etmək vərdişlərinə yiyələnmişdilər. Pilotsuz uçuş aparatları, radioelektronika susdurma sistemləri, həmçinin düşmənə hücum etməyə və onu müşahidə altında saxlamağa cavab verən xüsusi döyüş bölmələri müharibədə böyük effekt verirdi. Düşmənin döyüş meydanındakı qərargahları, silah anbarları və təchizat yolları ardıcıl olaraq dağıdılırdı. Azərbaycan ordusu ilk günlərdən havadakı nəzarəti bütünlüklə ələ keçirmişdi. Ermənilər isə hava hücumlarından müdafiə olunmadıqlarından, radioelektronika vasitələrinə qarşı durmağa qadir deyildilər və bu, onları «kor» edə bilirdi.

Türkiyədən və İsraildən alınmış pilotsuz uçuş aparatları hərbçilərimizə imkan verirdi ki, adi artilleriya zərbəsi ilə hərbi obyektləri vurana qədər düşmənin mövqeləri barədə tam məlumata malik olsunlar və onları təchiz olunmaqdan məhrum etsinlər. Ermənistan özünün Su-30 qırıcı təyyarələrindən də istifadə edə bilmədi. Həm də belə vəziyyət düşmənin ağır itkilər verməsi ilə müşayiət olunurdu.

Türk dronlarının 44 günlük müharibədəki gördüyü işi Ənvər paşanın başçılıq etdiyi türk ordusunun 1918-ci ildə azərbaycanlılara göstərdiyi böyük köməklə müqayisə etmək olar. Bu silah növü döyüşlərdə düşmənin qərargah mənzillərini və obyektlərini bombardman etməkdə öz üstünlüyünü nümayiş etdirdi. Erməni hava hücumundan müdafiə sistemləri İkinci Qarabağ müharibəsində onlara qarşı duruş gətirə bilmirdi. “Bayraktar TB2” ilk günlərdən balansın Azərbaycanın xeyrinə dəyişilməsində mühüm rol oynadı.

Türk pilotsuz uçuş aparatları erməni silahlı qüvvələrinin 1 milyard dəyərində olan döyüş texnikasını məhv etdi. Ermənistan 224 döyüş texnikası itirdiyi halda, Azərbaycanın həmin tip texnikadan yalnız 36-nı itirdi. Onların tətbiqi də o qədər çətin deyildir, səmərəliliyi ilə seçilir və çox vəzifələri həll etməyə qadirdir. Hava hücumundan müdafiə vasitələri onlara qarşı dura bilmir, çünki yüksək texniki xarakteristikalara və tətbiq olunma təcrübəsinə malikdir. Onlar döyüş əməliyyatları vaxtı insan itkisini, həmçinin maliyyə və texniki riskləri xeyli azaldır. Bütün sutka ərzində, müxtəlif hava şəraitlərində monitorinq və bombardman etməyi bacarır. Bu silah növü hazırda cəbbəxanada olan ən təhlükəli vasitə hesab olunur və həm də tankların səmərəli döyüş texnikası olması barədəki rəyi xeyli gözdən salır.

Döyüşə təsir edən hansısa bir növün ya priyomun tətbiqi özünün miqyasından asılı olmayaraq, döyüşçüyə yeni silah təsiri bağışlayır, onun üstünlük əldə etməsinə səbəb olur. Usun əsrlər ərzində silahın təkmilləşməsi olduqca ləng getsə də, dayanmırdı. Hunlar üzəngidən istifadə etdikdən sonra sürətli ox atan süvarilərə malik oldular. Onlar uçan quş dəstəsinə bənzəyirdilər. Üzəngi atlıya əlində iri qılıncı və nizəni saxlamağa imkan verirdi. Məhz üzənginin tətbiqi ilə yaranan ağır süvarilər dəstəsi qorxulu qoşun növünə çevrilmişdi. Piyadalar onlarla bacarmır və böyük itki verirdilər. Hunlar çinlilərdən ipəklə və pulla təzminat

alırdılar. Attilanın başçılığı altında V əsrin əvvəllərində Romaya gəlib çıxmışdılar. Çingiz xanın monqol imperiyası isə (XIII əsr) Yapon dənizindən Şərqi Avropaya qədər, cənubda isə Mesopotamiyadakı İraqa qədər uzanırdı. Çingiz xanın süvariləri uzaqda bir nöqtə kimi göründüyü halda, düşmən üstünə yaxınlaşanda qara bulud təsviri yaradırdı. Çingiz xan imperiyası yaranana qədər quldurlar tacirlərə hücum edib, əmlaklarını müsadirə edir və özlərini öldürürdülər. Çingiz xandan qorxu quldurların fəallığını heçə endirdi. İpək Yolu əvvəlki dövrlərdən daha güclü surətdə işləməyə başladı və imperiyanın böyük əraziyə malik olması, tacirlərin əvvəllər sərhədlərindən keçdikləri çox sayda dövlətlərə daha ağır rüsum vermək kimi əzici borcdan azad etdi.

Döyüş silahının inkişafındakı sonrakı yenilik, çinlilər tərəfindən kükürdlə şoranın sintezindən hazırlanan barıtın icad edilməsi ilə, odlu silahların tətbiqinə yol açılması oldu. Avropa müharibələrində ingilis toplarından istifadə olunurdu.

Tarixi təcrübə də göstərir ki, yeni, daha səmərəli silahları olmayan tərəf müharibədə mütləq uduzur, həm də ağır itkilər verməyə məcbur olur. Persiya ilə Türkiyə arasındakı 1514-cü ilin martında Araz çayının mənşəyininin yaxınlığında gedən Çaldıran savaşı bunu bütünlüklə təsdiq edir. Osmanlı imperiyası Səfəvi imperiyası üzərində qəti qələbə çaldı, Şərqi Anatoliyanı və Şimali İraqı Səfəvi İranından alıb, Osmanlı özünə birləşdirdi.

Ən mühüm fərq ondan ibarət idi ki, Osmanlı dövləti daha böyük və yaxşı silahlanmış orduya malik idi, onun sərəncamında çox sayda artilleriya qüvvəsi var idi. Səfəvilərin ordusu tərkib etibarilə ondan 1,5 dəfə kiçik idi və artilleriyaya ümumiyyətlə malik deyildi. Şah İsmayıl döyüşdə yaralanıb, təslim oldu. Onun arvadları sultan I Səlim tərəfindən əsir götürüldü. Bu İss döyüşündən qaçan III Daranın ailəsinin - arvadının və qızlarının Makedoniyalı Aleksandr tərəfindən əsir götürülməsinə bənzəyirdi.

Müharibənin başlanmasının əsas səbəblərindən biri Səfəvilərin Osmanlı imperiyasında şiəlik məzhəbini yaymaq cəhdləri idi. Şiə Qızılbaşları Osmanlı ərazisində iğtişaşlar törədirdi. I Səlim isə onları «imansız və kafir» kimi təsvir edirdi, 40 min Qızılbaşlını Anatoliyada edam etdirmişdi.

Osmanlılar Çaldıran döyüşündə artilleriyadan geniş şəkildə istifadə etmişdi. Axı yarım əsr əvvəl, Avropadan alınan topların köməyi ilə II Mehmet Fateh 1453-cü ildə Konstantinopolu işğal etmişdi, həmin toplar ona keçilməz sayılan qalın qala divarlarını yarmağa, uçurmağa imkan vermişdi. Çaldıran döyüşündə Səfəvilərin bir topu da yox idi, onlar ancaq süvarilərinə bel bağlayırdılar. Top atəşi isə canlı qüvvəni kərənti kimi biçirdi. Həmin dövrün müasir silahı döyüşdə həlledici rol oynadı, ona görə də osmanlıların qalib gələcəyinə heç bir şübhə yox idi.

Yeni silah növünün əks tərəfdə böyük itkilər verməsinə səbəb olmasının 1898-ci ildə general Kitçenerin başçılığı altında ingilis əsgərləri ilə Omdurmanda Mahdinin tərəfdarları olan sudanlılarla döyüşün nəticəsində görürük. İngilislər yeni Maksim pulemyotlarından istifadə edir, sudanlıları qırır, ot kimi biçirdilər. Mahdi tərəfdarları isə çubuqla doldurulan köhnə tipli tüfənglərlə vuruşurdu. Nəticədə

ingilislər 18 nəfər əsgər itirdiyi halda, sudanlıların itkisi 12 min nəfərdən ibarət olmuşdu.

Azərbaycan ordusu məhz yeni tipli döyüşlər apardığına və ən müasir silahlardan istifadə etdiyinə görə Avropa dövlətləri hərbi dairələrinin diqqətini cəlb etdi. Onlar Azərbaycanın döyüş əməliyyatlarını öyrənməyə cəhd edirlər, çünki ermənilərə qarşı savaşda XXI əsrin müharibəsi nümayiş etdirilmişdi və o keçmiş müharibələrdən tam fərqli idi. Bu vaxta qədər Avropa təyyarəni «göyün kralı» hesab edirdi. İndi tam əks vəziyyət meydana gəlmiş, " kral" yeni vasitələr önündə gücsüzə çevrilmişdi. Axı I Dünya müharibəsində də artilleriya "müharibənin allahı" kimi qiymətləndirildi. II Dünya müharibəsi motorlar müharibəsi olduğundan, tanklar və təyyarələr daha böyük əhəmiyyət kəsb etdi. Tankın üstündə top və pulemyot quraşdırıldığından, o daha mobil və səmərəli silah növünə çevrildi. Ona görə də müharibənin gedişində vuruşan dövlətlər tank və təyyarə istehsalına daha çox fikir verir, onların parkları ən yeni növlər hesabına ardıcıl olaraq təzələnirdi.

Ermənistan ordusu isə son müharibədə öz texnoloji geriliyindən, həm də özləri bunu etiraf etməsələr də, əsgərlərinin fərariliyindən əziyyət çəkirdi. Onların istifadə etdiyi Sovet dövründə istehsal edilmiş hərbi texnika həm fiziki, həm də mənəvi aşınmaya məruz qalmışdı, çox vaxt öz yararsızlığını göstərirdi. Hətta dinc şəhərlərə atdıqları raketlərin bir hissəsi partlamamışdı. Lovğalanmağı özünə qalxan hesab edən Ermənistan ordusu müasir silahlarla və texniki vasitələrlə silahlanmış Azərbaycan ordusu qarşısında cılız və miskin görünürdü. Azərbaycan öz iqtisadi inkişafına və böyük maliyyə imkanlarına görə, həm də rəhbərliyin uzaqgörən siyasətinə arxalanaraq daha yaxşı silahlanmışdı və bu, perspektivdəki qələbənin labüdlüyünə inamı möhkəmləndirirdi.

Yeni silahlarla yanaşı, yeni taktiki üsullar da düşməni çaş-baş salmaqla, onun məğlubiyyətinə şərait yaradırdı. Fransa 1870-ci ilin iyulunda Prussiyaya müharibə elan etmişdi, bir ay yarım sonra, 2 sentyabrda Sedanda fransız ordusu təslim oldu və imperator III Napoleon əsir düşdü. Sonra Paris mühasirəyə məruz qaldı. Prussiya ordusunun bu uğuru baş qərargah rəisi Helmut fon Moltkenin hazırladığı planın yerinə yetirilməsinin nəticəsi idi. Bu plana əsasən, Reyn çayından keçməklə dəmir yolu ilə Fransaya üç alman ordusunun sürətlə gətirilməsi kampaniyanın uğurunu həll etmiş oldu. Dəmir yolundan ilk dəfə hərbi məqsədlər üçün belə səmərəli istifadə olunmuşdu.

Fransa Prussiyanın qüdrətinin böyüməsinə mane olmaq istəyirdi, əvəzində Prussiyada və Cənubi Almaniyada milli hisslərin yüksəlişinə, almanların birləşməsinə şərait yaratdı. III Napoleonun şöhrətpərəstliyi isə onun alçalması ilə nəticələndi.

Azərbaycan da 2020-ci il müharibəsində ermənilərin müdafiə planlarını alt-üst edən taktiki yeniliklər həyata keçirirdi. Ermənistan ordusu hücumu mərkəzdən, Ağdam istiqamətində gözləyirdi, burada onun daha güclü istehkamları mövcud idi. Azərbaycan ordusu isə flanqlardan, Füzuli və Ağdərə istiqamətlərində hücuma

keçib, ilk gündən döyüş üstünlüyü qazandı. Həm də ermənilərdən fərqli olaraq ordunun təchizatı da sürətli gedirdi, logistika sahəsində də Azərbaycanın düşünülmüş planı öz faydasını verirdi. Pilotsuz uçuş vasitələri isə düşmənin hərbi texnikasını sıradan çıxartmaqda və onun dislokasiyasını dəqiq müəyyən etməkdə mühüm rol oynadı. Bütün bunlar göstərir ki, Azərbaycan rəhbərliyi müharibəyə yeni tələblər səviyyəsində yanaşmağı bacarmışdı, yeni silah növləri və taktiki priyomlar onun böyük üstünlüyünə olan şübhəni isə bütünlüklə yoxa çıxardı.

Silahlardan əlavə, digər mühüm fərq hər iki xalq tərəfindən müharibəyə bəslənən münasibətdən ibarət idi. Ermənistandakı ailələr övladlarının cəbhədə həlak olduğu xəbərini aldıqca, bu ölkədə həyəcan, təşviş hissi və rəhbərlikdən narazılıq böyüyürdü. Azərbaycanlı valideynlər isə ağır itki xəbərini aldıqda, onları haqlamış böyük dərdi yaşamaqla yanaşı, övladlarının şəhidlik zirvəsinə yüksəlməsi ilə fəxr etdiklərini gizlətmirdilər. Matəmlərdə vətənpərvərlik çağırışları daha güclü səslənirdi, həlak olmuş Azərbaycan əsgəri qəhrəmanlıq rəmzinə çevrilirdi. Onlar mərdliklə vuruşmuş, cəsədləri isə evlərinə qədim spartalılar kimi «qalxan üstündə» qayıtmışdı. Xalqın orduya belə dayaq olması, Napoleonun «Ordu elə millət deməkdir» kəlamının müdrikliyini təsdiq etdi.

Qələbəyə gedən yolun enişli-yoxuşluğu dövlət başçısının çiyinlərinə ağır məsuliyyət yükü qoyduğu kimi, müharibədən sonrakı dirçəliş prosesinə başçılıq etməyin özü də heç də asan olmayan bir vəzifədir. Qalib, həm də məğlub xalqa mərhəmətlə yanaşmaq nümunəsi göstərir, mənəvi cəbbəxanasında olan güclü alicənablıq hissini də işə salmağı bacarır. Hərbi paradda ölkə Prezidenti qonşu xalqla da iqtisadi əlaqələrin bərpası imkanını qeyd etdi və göstərdi ki, biz çalışmalıyıq ki, region əvvəlki düşmənçiliyi unudub, sülhsevərliyi ilə seçilən bir məkana çevrilsin. Üçtərəfli bəyanata qoşulmağın özü də qan axıdılmasına son qoymaq qayğısının əyani təzahürü idi. Çünki döyüşlər davam etsə, Xankəndi asanlıqla alınar, Ermənistan ordusu mühasirəyə düşüb, birbaşa məhv olma səhnəsi ilə üzləşməli olardı. Bu isə qonşu ölkə və xalq üçün dözülməz bir fəlakət siqnalı ola bilərdi. Azərbaycan ordusu da həmçinin növbəti döyüşlərdə itkilər verməkdən heç də xali ola bilməzdi.

Üçtərəfli bəyanat,əslində,Ermənistanın qeyd-şərtsiz təslim olması əlaməti idi və Azərbaycan rəhbərliyinin irəli sürdüyü bütün şərtlər qəbul edildi və bəyanatda Dağlıq Qarabağın statusu məsələsinə,ümumiyyətlə, toxunulmadı. Məğlub Ermənistan artıq bilavasitə öz ölkəsinin taleyinin dərdinə qalmışdı, status məsələsi onu artıq o qədər də maraqlandırmırdı. Müharibənin başa çatmasının gecikməsinə Azərbaycan da maraqlı deyildi, çünki əlavə qan axıdılması davam edərdi. Reallığı gec də olsa qiymətləndirməyi bacaran Ermənistanın siyasi və hərbi rəhbərliyi məcbur qalıb, üç iri rayonun ərazisini döyüşsüz təhvil verməklə də razılaşdı. Müharibə davam etsə, Ermənistan ordusu ağır vəziyyətə düşə bilərdi. Ordusu yoxa çıxan dövlətin ərazisi də müdafiəsiz qalır, yad isə bu müdafiəni öz üzərinə ya götürmək istəməz, ya da müxtəlif bəhanələrlə buna tələsməzdi.

Məğlub olanlar bir qayda olaraq, tam iflasdan qaçmaq üçün adətən ordusunu qoruyub saxlamaq barədə fikirləşir. Ağır itkilərlə müşayiət olunan Borodino

döyüşündən sonra, ordunu qoruyub saxlamaq üçün ruslar köhnə paytaxt Moskvanı da fransızlara vermək qərarına gəldilər.

I Dünya müharibəsində 1918-ci ilin iyulundakı Marna döyüşündə ağır məğlubiyyətə uğrayan alman ordusunun komandanları Paul fon Gindenburq və Erik Lyudendorf hiss etdilər ki, müharibə davam etsə, onlar heç bir müqavimət göstərə bilməyəcək və alman ordusu məhv olacaqdır. Ordunu xilas etmək naminə onlar kayzer II Vilhelmdən tələb etdilər ki, müharibədə təslim olmağa razılıq versin, əks təqdirdə Almaniya ordusuz qalacaqdır. Almaniya imperatoru əlacsız qalıb, məğlub olduqları barədəki etirafla çıxış edib, özü də taxt-tacdan əl çəkdi. 11 noyabr 1918-ci ildə Birinci Dünya müharibəsi başa çatdı. Kayzer böyük ümidlərlə müharibəyə girmişdi, lakin nəinki heç nə qazanmadı, əksinə öz imperiyasının və həm də müttəfiqi olan Avstriya-Macarıstan imperiyasının məhvinə səbəb oldu. Bundan əvvəl Rusiya imperiyası sıradan çıxmışdı, bir qədər sonra isə Osmanlı imperiyası da bu acı taleyi yaşamalı oldu. Almaniya Afrikadakı müstəmləkələrini, Asiyadakı malik olduğu əraziləri itirdi, bircə təskinliyi o oldu ki, öz ərazisinə xələl gəlmədi, bir qarış da olsa torpağını itirmədi. Çünki Almaniya ərazisinə Antanta əsgərlərinin ayağı dəyməmişdi, tez təslim olma onu bu daha böyük bəladan da qorumuşdu.

Ermənistan da ağır fəlakətin matəmini saxlamaqla yanaşı, dərdini bir qədər yumşaldan amil kimi öz ərazisinə Azərbaycan əsgərinin girməməsindən istifadə edə bilər. Burada Azərbaycan rəhbərliyinin özgə torpaqlarına göz dikməməsi barədəki prinsipə riayət etməsi mühüm rol oynadı. Ermənistan, bəlkə də, ağalarının onlara görə vuruşacağına bel bağlayırdı, hətta onlar gəlib çıxana qədər, çox gümanlarına görə bəzi məsələlər öz həllini tapa bilərdi. Ermənilər onu da nəzərə almalıdırlar ki, Azərbaycan özlərindən fərqli olaraq zəiflərə xas olan qisas hissindən çox uzaqdır. 1992-1993-cü illərdə Ermənistan ordusu ona göstərilən böyük hərbi yardım hesabına Azərbaycanın 20 faizə yaxın ərazisini işğal etmişdi, müasir ordumuz üçün bu nisbəti Ermənistan ərazisində meydana gətirmək o qədər də çətin bir iş deyildi, özü də bu korrelyasiya heç də Hamburq hesabı olmayacaqdı.

Ermənilər, ayıq başla hadisələrə qiymət versələr unutmamalıdırlar ki, onların keçən əsrin 90-cı illərini geri qaytarmaq ümidləri ximeradan başqa bir şey deyildir, əgər onlar revanş hissləri ilə yaşamağa meyl etsələr, 2020-ci ildə onun silahlı qüvvələrini acınacaqlı vəziyyətə salan Azərbaycan ordusu istənilən ərazidə vuruşmağa hazır olmaqla, ölkəsindən yenə nəyisə qoparmaq meylinə düşənlərə elə tutarlı cavab verərdi ki, onların üzləşdikləri yalnız Yer üzündə cəhənnəm əzablarını yaşmaq məcburiyyətində qalmaları ilə müqayisə oluna bilərdi və bunu Qiyamət gününə qədər onlar unutmayacaqdılar. Xəyala dalmaq insana xas olan xüsusiyyətdir, əgər siyasi və hərbi xadimlər kor olub, reallığı görə bilmirsə, uyduqları xəyallar onlara yalnız bəla töhfəsi verəcəkdir.

Erməni qatı millətçiləri susmaq bilmir

Ermənistanın müharibədə canlı qüvvə və hərbi texnika barədə ağır itkilər verməsinə, alçaldıcı məğlubiyyətinə baxmayaraq erməni qatı millətçiləri hissləri qızışdırmaqda davam edirlər. Ölkənin tam şəkildə militarizasiyası və ruhi səfərbərliyə alınmasına (başqa sözlə, qonşu xalqdan qisas almağa) dair çağırışlar eşidilir. Bu, taun vaxtı ziyafət qurmaq istəyinə bənzəyir. Çünki ölkə iqtisadiyyatı ağır vəziyyətdədir. Onu dirçəltmək əvəzinə diqqət yenə də hərbiləşməyə verilir, maliyyə imkanlarının yoxluğu da bu vaxt nəzərə alınmır, tamamilə yaddan çıxarılır.

Real vəziyyəti sağaltmaq qayğısına qalmaq əvəzinə xalqa yenə də onun müstəsna olduğu, ultraqədimliiliyi təlqin edilir, bu barsız ağaca, yenə də hərtərəfli qulluq göstərilməsi davam etdirilir. Özünün başqa xalqlardan guya fərqli olması, onlara heç bir rüsum verməsə də, bu fiks ideyadan əl çəkilmir. Bunu onların psixiki sağlamlığında olan problemlərdə axtarmaq lazımdır.

Ölkə iqtisadiyyatı uçmuş ev təsiri bağışlayır, onun sahibi isə evi bərpa etmək əvəzinə, xəyali dizayn barədə düşünür və qonşu xalqın möhkəm evini uçurtmaq məqsədilə yaşamaqda davam etməklə, sərsəm düşüncə tərzini tərk etmək istəmir.

Belə ağılsız təxəyyülə son qoymaq vaxtı çoxdan gəlib çatmışdır, İkinci Qarabağ müharibəsi ermənilərə matəm zəngini çaldı. Xalqı dilənçi vəziyyətinə salanlar yenə də müharibə cığırını uzaqlaşmaq istəmirlər. Ondan əlavə qurbanlar verməyi tələb etmək hansı ədalətə sığır? Xalqın ədalətsız müharibədə axıtdığı qan gölü timsalındakı ikinci Sevana malik olmaqmı istəyirlər?

İndi də məğlubiyyətin virtual qisasını almaq üçün bəzi qızmış başlar ağır vəziyyətdən çıxmaq yolunu terrorçuluqda görürlər, bədnam “Asala”nı dirçəltmək istəyirlər. Onlara demək isəyirsən ki, ağlınızı başınıza yığın, xam xəyallara düşməyiniz yetər. Nə qədər məhvə aparan ilğım arxasınca qaçmaq olar?

Erməni xalqının bir ovuc qatı millətçilərin əsirinə çevrilməsi, qonşu xalqlar hesabına öz ərazisini genişləndirmək xəyalları ilə yaşaması bu psevdoqəhrəmanların birdəfəlik ifşa edilməsini tələb edir. Onlar zəhərli illüziyaları ilə bütöv xalqı qidalandırmağa can atırlar. Erməni marginalları elə bil ki, Edip kompleksinə yiyələnmişlər, öz vətənlərinə təcavüz etmək istəyirlər. Nə qədər öz ölkəsini utopik dövlətə bənzətmək olar? Əli qonşu xalqların qanına batmış caniləri əbədiləşdirmək, onlara qəhrəman qiyafəsini geyindirmək, heykəllər qoymaq nə dərəcədə düzgündür? Antiutopiya nə vaxtdan ilham mənbəyi oımuşdur?

Başqa xalqlar kimi ermənilər də firavan həyata qovuşmaq arzusu ilə yaşamalı olduğu halda, onların nəzərləri qonşu xalqın torpaqlarını işğal etmək vektoruna yönəldilir. Bu ideologiya erməni xalqını yeni bəlalara cəlb edir. Ayrı-ayrı adamların xəyala dalması, illüziya ilə yaşaması heç də qorxulu deyildir, çünki onlar dünyanı başqa şəkildə görür, paralel koordinatlar sistemində yaşamaq yolunu seçirlər. Onları başa düşməyənlərə elə bir ziyan vurmurlar, sadəcə olaraq onlara gülürlər. Bütöv xalq gerçəklikdən uzaq olan bir arzu ilə yaşamağa məcbur edildikdə, güman edir ki, başqaları, birinci növbədə qonşu xalqlar ona mane olur, istəklərinin həyata keçməsinə yol vermirlər. Ona görə də həmin xalqlara qarşı nifrət, ikrah hissi yaranır və bu, nəhayət, xəyanət və başqasının ərazisinə müdaxilə

ilə nəticələnir. Sonra isə təcavüzə məruz qalmış xalqdan aldığı ağır zərbə cavabı ilə mükafatlanmalı olur. Buna baxmayaraq, qatı millətçilər öz ağılsız mövqelərini tərk etmək istəmirlər. Aristotel cəmiyyəti harmoniyaya, musiqiyə bənzədirdi, musiqi isə müxtəlif notlardan ibarətdir. Ermənistanda isə musiqinin özü də yaddan çıxmışdır, orada yalnız qatı millətçilərin ifa etdikləri eybəcər kakofoniya eşidilir.

Qatı millətçilik, şovinizm vampir kimi qanla qidalanmağa üstünlük verir. Marginallar da qonşu xalqın ərazisini işğal edib, işğalın permanent olmasına can atırlar. Hər cür məkrli tədbirlərinə baxmayaraq, sonda onları haqlayan ağır cəzadan qaça bilmirlər. Başa düşmürlər ki, iyrənc instinktləri reallışdırmağa çalışmaq heç vaxt fayda verməyəcəkdir.

Erməni ziyalıları, xüsusən qatı millətçilər adi bir hadisədən yapışıb, onu millətinin böyük zəfəri kimi qələmə verməyə çalışırlar. Tarixçi akademik böyük həvəslə Ori adlı bir ermənininonları əsarətdən xilas etmək barədə Rusiya imperatoru Böyük Pyotra müraciətindən söhbət açır, lakin onun heç bir dəyişikliyə səbəb olmaması kimi nəticə barədə isə susmağa üstünlük verir. İsrail Ori 1701-ci ildə Moskvada olarkən Böyük Pyotra Syunik ermənilərinin xahişini yazılı şəkildə çatdırmış, çar ona 7 il sonra cavab versə də, heç nə etməmişdi, çünki onu ancaq Rusiyanın öz problemləri maraqlandırırdı.

Çox hallarda uydurulmuş qədimliyə maniakal aludəçilik, müasir dünyaya da onun birbaşa davamı kimi baxmaq heç də böyük ağıldan xəbər vermir, erməni tarixçiləri isə öz xalqının çox hissəsini virtual təamlar süfrəsindən həzz almağa dəvət edir. Ona görə də başlanan yarışda hər kəs digərindən daha böyük zikkurat tikməsi ilə fərqlənməyə çalışır, onun isə möhkəm bünövrəsi olmadığından az sonra uçub dağılır. Misir piramidaları zamanın hökmünə də tabe olmamışlar, çünki onlar möhkəm konstruksiyadır, sarsılmaz binövrəyə əsalanır. Ermənilərin planları isə yalandan, uydurmadan baş qaldırır, qum üstündə tikilən binanı xatırladır, onun az sonra dağılacağına isə heç bir şübhə qalmır.

Sovet dövründə Dağlıq Qarabağ ermənileri muxtar vilayətin statusundan, tərkibində olduğu Azərbaycan SSR-in donorluğundan yaxşıca faqdalanırdılar.Dəmir yoluna, hava limanına, abad şəhərlərə, kəndlərə malik idilər. Ermənistan ordusunun işğal əməliyyatlarından sonra özünü respublika elan etsə də, lakin onu heç bir dövlət tanımadı. Vassalı olduğu Ermənistanın özü kimi xaricdə yaşayan ermənilərin maliyyə yardımı, əslində, ianəsi ilə yaşamaq, dilənçi rolunu oynamaq yolunu tutdu. Ərazidə həyat səviyyəsi yüksəlmirdi, ona görə də sakinlər oranı tərk edib, Rusiyada və başqa ölkələrdə özünə az-çox müvafiq yaşayış şəraiti axtarırdılar. Erməni millətindən olan əhalinin sayı Azərbaycanın tərkibində olduğundan 20 faiz azaldı, bu məsələdə də Ermənistan ermənileri onlara nümunə göstərirdilər.

Bunun səbəblərini araşdırmaq əvəzinə, yenə də Dağlıq Qarabağı əlavə ermənilərlə məskunlaşdırmaq çağırışları eşidilir. Süni şəkildə nəyəsə nail olmaq olar, oraya köçürülənlər bir az sonra ağır sosial şəraitə görə yenə də başqa ölkələrdə yaşamağa üz tutacaqlar.

Məğlubiyyətdən sonra təkcə Dağlıq Qarabağ deyil, Ermənistan özü də müdhiş vəziyyətə düşmüşdür. Onun maliyyə imkanları daha da zəifləmişdir. Belə şəraitdə övladları döyüşdə həlak olmuş valideynlərə maddi yardım göstərmək, yaralılar ordusuna pensiya vermək müşkül məsələyə çevrilmişdir.

Ölkəsini, xalqını sevmək insana xas olan xüsusiyyətdir. Lakin millətçilik müəyyən hədlərdə olmalıdır, onun fanatizmə çevrilən növü – qatı millətçiliyi sirayətləndirən marginallar nəticə etibarilə öz milləti üçün bəla mənbəyinə çevrilir. Başqa xalqlara qarşı bəslənilən nifrət düşmənçiliyə və nəhayət, müharibələrə yol açır. Ona görə də qatı millətçilik zəhərli alaq otu kimi kökündən çıxarılmalıdır.

Azərbaycanlıların vətənpərvərliyi İkinci Qarabağ müharibəsində gözəl bəhrələr verdi. Yaxşı haldır ki, ölkəmizdə qatı millətçilik meyllərinin yayılmasına imkan verilmir. Tək-tük nümunələr isə ya tezliklə solur, ya da onları təbiətin hökmü yoxa çıxarır.

Qələbənin tarixdə prototiplərini axtarmaq, araşdırmaq ilk növbədə onun qazanılması yolunda qəhrəmanlıq göstərənlərə, şəhid olanlara hörmət əlaməti kimi meydana gəlmişdir. Qələbənin özü böyük sevinc mənbəyi olduğundan, ona hansısa bəzək vurulmasına ehtiyac duymur. Lakin mühüm tarixi hadisələrə bənzərliyi adamda daha xoş hisslər yaradır. Xalqımız öz torpaqlarını azad etməklə, düşmən üzərində zəfərə nail olmaqla bir daha özünü təsdiq etdi və dünyaya da göstərdi ki, onun hüquqlarına hörmətsizlik edənlər cəzasız qalmır və qalmayacaqlar.

Ermənisayağı xəyali perspektiv və reallıq

Qələbənin bənzər olduğu tarixi nümunələri, prototipləri tapmaq cəhdi həm də ondan sonrakı dövrə nəzər salmaq, əks tərəfdə nələr baş verəcəyini təxəyyüllə müəyyən etmək istəyi yaradır. Ona görə də ermənilər kimi xəyalı işə salmaq, illüziyzor dəyişiklikləri göz önünə gətirmək cəhdinə ehtiyac duyulur. Bu vaxt həqiqətən də olduqca müsbət dəyişikliklər səhnəsini seyr etməyin özü əhval-ruhiyyəni daha da yaxşılaşdırır. Belə bir təsadüf də baş verdi. Televiziyada Ermənistan hökumətinin başçısı, görünür, xalqın ona göstərdiyi etimadın məsuliyyətini başa düşən bir adam kimi öz xalqına müraciətlə çıxış edirdi. Nitqində həm də qonşu xalqlara münasibətə toxunulurdu. Ermənistan tribunasından son 30 ildə ilk dəfə gerçəkliyin acı da olsa tələbini nəzərə alan və gələcəyə ünvanlanmış sözlər səsləndiyindən, onları bütünlüklə yazılı şəkildə vermək istəyi meydana gəldi:

“Ermənistan rəhbərliyi öz xalqının tarixinə nəzər salıb, ilk dəfə olaraq vəziyyəti düzgün qiymətləndirmək, ondan müvafiq nəticə çıxarmaq qərarına gəlmişdir və onları sizin nəzərinizə çatdırmaq şərəfini mənə həvalə etmişdir. Biz, bütünlüklə erməni xalqı özümüzün müstəsnalığımız kimi daim mənafelərimizə zərər vuran ideyadan birdəfəlik uzaqlaşır, özümüzün heç də başqalarından yüksək deyil, bütün xalqlarla bərabər olduğunu bəyan etməyi vacib sayırıq. Biz bu

gündən etibarən qonşularımızla düşmənçiliyə son qoyuruq, onlardan da müvafiq cavab alacağımıza şübhə etmirik. Biz əvvəllər yol verdiyimiz xəyanət və təcavüz hərəkətlərinə görə üzr istəyir və həmin siyasəti pisləməklə, ondan bütünlüklə uzaqlaşdığımızı bildririk. Biz əlimizi düşmənçilik virusundan (bu ifadə latınca «zəhər» deməkdir) təmizləyib, azərbaycanlılara, türklərə və digər qonşularımıza uzadırıq, çox ümid edirik ki, artıq sülhsevər siyasətimizə inandıqlarından, ilk dəfə olaraq onu sıxmaqdan imtina etməyəcəklər. Biz qonşularımıza zeytun budağı təklif edirik və bu, bizim bundan sonrakı sülhsevər münasibətimizin rəmzi olacaqdır. Axı gəmisi ilə Nuhun gəlib çıxdığı Ararat silsiləsi dağından, onun göndərdiyi göyərçin də dimdiyində həyat rəmzi olan zeytun yarpağı gətirmişdi. Beləliklə Nuh bildi ki, su çəkiləcəkdir. Həqiqətən də su çəkildi və Nuh torpağın quruduğunu gördü. İndi biz də öz səhv mövqeyimizdən bütünlüklə imtina edirik, qonşularımız da qoy bizim səmimi eturafımızı qəbul etsinlər və regionda möhkəm sülh yaranmasına hər cür kömək göstərəcəyimizə söz veririk.

Müharibə aparmaq və onun ağrılarını çəkmək kimi ağır yükdən azad olmaqla, militarizm yolu ilə biz birdəfəlik vidalaşırıq, bütün səylərimizi ölkəmizin inkişafına, doğma şəhərlərimizin və kəndlərimizin çiçəklənməsinə, xalqımızın maddi rifahının yüksəlməsinə sərf edəcəyik. İndiyə qədər isə müharibəyə hazırlaşmaq və onu aparmaq ağır xərclərə səbəb olduğundan, ölkədə iqtisadi və sosial vəziyyət olduqca pisləşmişdi. Ona görə də əhalinin bir hissəsi vətəni atıb, didərgin kimi başqa ölkələrdə yaşamağa üz tutmuşdu.

Qonşu xalqın ərazilərinə təcavüzümüz onlar üçün ağır nəticələrə səbəb olmuşdu. Azərbaycanda bir neçə şəhər və yüzlərlə kənd bizim ordu tərəfindən dağıdılmışdı. Lakin onlar öz torpaqlarını azad edəndə, qəzəbləri nə qədər güclü olsa da Ermənistan ərazisinə girmədilər. Biz həmin şəhərlərin və kəndlərin qaçqına çevrilmiş bütün sakinlərindən, Azərbaycan xalqından üzr istəyirik, buna görə xristianlara xas olan qaydada tövbə etdiyimizi bildiririk. Həm də şübhə etmirik ki, hərtərəfli gücə malik olan Azərbaycan həmin yaşayış məntəqələrini əvvəlkindən daha abad şəkildə bərpa edəcəkdir. Bu, bizim vandalizmimizə qarşı onun təhqiramiz sillə cavabı olacaqdır.

Biz dövlətimiz üçün sülhü seçməklə həm də regionda dinc həyatın, firavanlığın bərqərar olacağına, qarşılıqlı iqtisadi əlaqələrin meydana gəlməsinə və böyüməsinə çox ümid bəsləyirik. Çünki anlayırıq ki, bundan daha çox qazanan məhz Ermənistan olacaqdır. Arzu edirik ki, Cənubi Qafqaz ərazisi bir daha heç vaxt müharibə səhnəsinə çevrilməsin, düşmənçilik toxumunu səpib, onun zəmisindən bol bəhrə götürmək istəyənlərin iyrənc əməllərinə əsla yol verilməsin. Bu ittiham birinci növbədə bizim özümüzə aiddir. Biz bununla əlaqədar olaraq öz qatı millətçilərimizi xəbərdar edirik, qoy onlar xalqı bədbəxtliklər girdabına salmaqdan əl çəksinlər, əks təqdirdə onların əməllərinin müvafiq qaydada cəzalandırılmasına nail olacağıq. Qanunlarımız da nifrət yayanlar barədə sərt tədbirlərin görülməsini nəzərdə tutur, baxmayaraq ki, biz bu prinsipdən istifadə edilməsinə indiyədək məhəl qoymamışdıq.”

Sonra hökumət başçısı çıxışına yekun vuraraq dedi:

– “Bu sözlərim qoy and xarakteri daşısın, onu pozsam, xalq şəxsən mənə ən ağır cəzasını versin.”

Baş nazirin çıxışından sonrakı rəylər də fərəhləndirici idi. Xalqın əksəriyyəti onun fikirlərinə tərəfdar olduğunu bildirirdi. Bircə şeyə təəssüflənirdilər ki, bu bəyanat təəssüf ki, 2020-ci müharibəsi başlanandan əvvəl səslənməmişdi. İşğal olunmuş torpaqlar danışıqlar yolu ilə azad edilib, qanuni sahibinə qaytarılsaydı, Ermənistan 44 günlük müharibədəki məğlubiyyəti kimi ağır faciəni yaşamazdı.

Ermənistandan gələn sədaların xoş təsiri bizdə də razılıq hissi yaratdı, lakin bu gerçəklik olmayıb, bədxah qonşumuzun qələbimizdən nəticə çıxaracağı kimi xoş bir ümiddən yaranmışdı. Xəyaldan ayılıb, mövcud reallığa qayıdanda, tam başqa məzmunlu çıxışlar əvvəlki fikrimizi bütünlüklə dağıtdı. Çünki yenə erməni marginallarının sərsəm bəyanatları, qisas almaq barədəki çağırışları eşidilirdi. Axı canavar da sürüsünə ünvanlanmış hücuma keçmək barədə olan çağırış şəklində uzun-uzadı ulamaqla məşğul olur.

07.01.2021
525-ci qəzet

Cənubi Qafqazda sülhün dan şəfəqi

Qələbədən regionun qazancı

Azərbaycan ordusunun Ermənistan silahlı qüvvələri üzərində böyük qələbəsi həyatın çox saydakı sahələrinə təsir göstərdiyi kimi, həm də regionda son onilliklər ərzində mövcud olan gərginliyin xeyli azalmasına, düşmənçiliyin zəifləməsinə və gələcəkdə tamamilə yoxa çıxmasına ümid yaratması ilə daha böyük qiymətə malik oldu. Qələbə təkcə iki dövlət arasında qanlı müharibəyə son qoymadı, həm də regionda sülhün bərqərar olmasına, münasibətlərin normal müstəviyə keçməsinə şərait yaratdı.

Hər bir müharibə nəticə etibarilə sülhlə yekunlaşır, qalib tərəf ona vurulmuş yaraları xeyli dərəcədə sağaltmaqla – işğal edilmiş ərazilərini azad etməklə arzu olunan yekuna və nəticə etibarilə sülhə nail olur. Xalqa qalib ruhu hakim kəsilir, əvvəlki məğlubiyyətlərin ağrıları unudulmağa başlayır.

Ermənistandan fərqli olaraq Azərbaycan İkinci Qarabağ müharibəsində qonşu dövlətin bir qarış da ola olsa torpağını zəbt etməmiş, ordumuz döyüşlərdə düşməni darmadağın etsə də, ermənilərin hansısa şəhərini və ya kəndini viran qoymamışdır. Onun belə iyrənc əməldən ilham alması da mümkün deyildir, axı heç bir yaşayış məntəqəsini dağıtmamış və yandırmamışdır. Erməni əsilli mülki əhaliyə qarşı da heç bir zorakılıq tətbiq edilməmişdir. Ermənistan ordusuna xas olan müharibə cinayətləri ölkəmizin silahlı qüvvələrinə tam yaddır.

Bakıda 10 dekabr 2020-ci ildə keçirilən Zəfər paradında yalnız müzəffər ordumuzun düşməni əzməklə, işğal olunmuş ərazilərimizi azad etməsindən söhbət getmişdir və ordumuzun xilaskar rolu qeyd edilmişdir. Paradda təbrik çıxışı edən respublika Prezidenti İlham Əliyev öz şücaətləri ilə qələbəyə nail olmuş əsgər və zabitlərimizin döyüş xidmətlərini yüksək qiymətləndirmişdir.Prezidentin nitqində məğlub olan tərəfə mərhəmət göstərilməsi hissləri də ifadə olunmuşdur. Ermənistanla dinc qonşu yaşamağın fundamental əlaməti kimi iqtisadi əməkdaşlığın bərpasının mümkünlüyü fikri də ifadə olunmuşdur. Əgər əks tərəfdən məkrli siyasətə son qoyulsa, revanşizm ideyalarından uzaqlaşılsa, ağılsız variantlara bir daha əl atılmasa iqtisadı əməkdaşlığa, mehriban münasibətləri bərpa etməyə başlamaq olar. Həmin iyrənc ideyaların və əməllərin təkrarına yol verilsə, əlbəttə, hansısa normal əlaqələrdən və onlara başlamaqdan söhbət gedə bilməz.

Son dövrlərdə əvvəlki ağılsız lovğalanmasına cavab kimi, Ermənistan ədalətin zəfəri kimi alçalma bataqlığına qərq olmuşdur. Ona görə də onun düşmənçiliyi davam etdirməsi düşüncəsi klinik hal sayılmalıdır, qisas almaq fikrinə düşməsi isə əslində daim illüziyalardan vəcdə gələnlərin ximerasından başqa bir şey olmayacaqdır. Girdaba düşən oradan çıxmağa çalışmalıdır, bu quyunu dərinləşdirməkdən qaçmalıdır. Ermənistan rəhbərliyi və erməni qatı millətçiləri öz xalqında ağılsız hissləri qızışdırmaqda davam etsə, Azərbaycan buna laqeyd seyrçi kimi tamaşa etməyəcəkdir və lazım gələn bütün tədbirləri görəcəkdir. Bu yolla Ermənistan həm də regionda bərqərar olan kövrək sülhə yeni bir zərbə vuracaqdır. Çünki son onilliklərin təcrübəsi göstərir ki, Ermənistan iqtisadi-sosial inkişafa qayğı göstərmək əvəzinə, ona bəla bəxş edən militarizm yolunu seçmişdir və məğlubiyyətdən sonra da bu təhlükəli yolu tərk etməsə, ağılsız qaydada daha böyük fəlakətlərə sahib olmaq istəyində olacaqdır. Azərbaycan rəhbərliyi isə əks tərəfin bu mövqeyini cavabsız və cəzasız qoymayacaqdır. Bütün vasitələrlə onu yeni cinayətlərdən çəkindirməyə çalışacaqdır, bu səmərə verməsə, onu daha ağır qaydada cəzalandıracaqdır.

Müharibədən sonra heç olmasa Ermənistan rəhbərliyi öz ölkəsinin acınacaqlı vəziyyətinə nəzər yetirib, sülhün, dinc qonşuluğun reallaşmasına, möhkəmlənməsinə çalışmalıdır. Yenidən militarizm eşqinə düşmək fayda verməyəcəkdir, təkcə itirilmiş hərbi texnikanı bərpa etmək üçün milyard dollarla vəsait lazımdır, axı heç bir dövlət ona artıq pulsuz silah, sursat, hərbi texnika verməyəcəkdir. Çünki müharibədə həmin resurslar ağılsız taktiki gedişlər hesabına bədxərcliklə sərf edilmiş, məhv edilmişdir. Yeni «əliaçıq» hami tapmaq da müşkül məsələdir, həmin ünid bəslənən dövlət indi yalnız pandemiyadan öz iqtisadiyyatına vurulmuş ziyanı ləğv etmək barədə düşünür. Sadə məntiq belə göstərir ki, Ermənistanın öz yaxın qonşuları olan Azərbaycan və Türkiyə ilə düşmənçiliyə birdəfəlik son qoyması, həmin ölkələrdən daha çox onun özünə lazımdır. Çünki hər iki dövlət heç Ermənistanın mövcudluğu da nəzərə alınmadan öz iqtisadiyyatını uğurla inkişaf etdirir. Bu, həm də onların hərbi qüdrətini möhkəmləndirməyə hərtərəfli şərait yaradır.

Ermənistan rəhbərliyi son əsrlər ərzində gur çiçəklənmiş qatı millətçiliyin iyrənc mirası olan ədavəti həmişəlik yaddan çıxartmalı, dövlət siyasətini onun əsarətindən xilas etməlidir. Bunun üçün tarixə nəzər salmaq kifayətdir. Avropada ingilislərlə fransızlar və almanlarla fransızlar dəfələrlə bir-birləri ilə vuruşmuş, İkinci Dünya müharibəsinin ağır dərsindən sonra hər üç dövlət düşmənçiliyi kənara ataraq, iqtisadi və elmi-texniki əməkdaşlığa və siyasi-hərbi ittifaqın üzvlüyünə keçmişdir. Axı Ermənistanın yenidən vuruşmaq iddiası ilə lovğalanması, ona ağır cəzadan başqa nəsə vəd etməyəcəkdir, çünki Ermənistan Türkiyə və Azərbaycanla, idman dili ilə desək, eyni çəkidə deyildir, sərsəm istəyi ilə bu cılız varlıq yenidən müharibə rinqinə qədəm qoysa, hökmən ağır nokauta məruz qalacaqdır.

Bu amilləri sadəcə olaraq dərk etmək lazımdır, axı bunlar heç də Nyuton binomu deyildir ki, həlli çətin ola, sadəcə olaraq hər şeyə açıq gözlə baxmaq lazımdır, siyasi daltonizm bu gözlərin sahibinə yalnız ziyan vura bilər.

Ermənistan 1990-cı illərin əvvəllərində Azərbaycana hərbi müdaxilə edərək, ədalətsiz müharibə aparmış, mülki əhalinin qırğını və əsir götürülməsi ilə müharibə cinayətlərinə yol vermiş, əraziləri işğal etdikdən sonra səkkiz şəhəri və yüzlərlə kəndi xaraba qoymuşdur. Şəhərlər elə dağıdılmışdır ki, onlarda bir yaşayış evi və ya mülki bina salamat qalmamışdır. Ən vəhşi ordalar belə yaşayış məntəqələrinə qarşı bu qaydada amansızlıq göstərməmişdi. Məğlub olan ordunun arxasınca qaçan, işğal vaxtı tək-tək meydana gəlmiş yeni erməni sakinlər həmin ərazidə yaşadıqları evləri də yandırmışlar ki, azərbaycanlılara yalnız «yandırılımış torpaq» qalsın.

Xocalıda 1992-ci ilin fevralında erməni separatçıların yaratdıqları vəhşi hərbi dəstələrin öz hamilərinin köməyi ilə törətdikləri qırğın isə onların və onlara rəhbərlik edənlərin dəhşətli cinayətlərindən xəbər verir. Lakin ədalətli qisas anı nəhayət ki, gəlib çıxdı. Azərbaycan ordusu erməni vəhşiliyindən fərqli olaraq, qocaların, qadınların, uşaqların məhv edilməsinə yol vermədi, intiqam zərbəsi dəfələrlə artıq qaydada Ermənistan ordusuna dəydi, indiyədək döyüş zonalarında erməni əsgər və zabitlərinin cəsədləri tapılır. Əgər döyüşlərdə həlak olmuş son erməni əsgəri dəfn edilməmişdirsə, Ermənistana üz vermiş müharibə bəlalarının hələ başa çatmadığı özünü göstərir.

Azərbaycan rəhbərliyi, şəxsən Prezident İlham Əliyev həm də Ali Baş Komandan kimi son müharibədə öz mürəkkəb vəzifəsini ləyaqətlə yerinə yetirmişdir. Strategiya ustalıqla düşünülmüş, taktiki gedişlərdə səhvlərə yol verilməmişdir. Ermənilər isə güman edirdilər ki, birinci müharibədə olduğu kimi ölkəmizin silahlı qüvvələrini asanlıqla məğlub edəcəklər. Süni məğrurluqdan irəli gələn gülüş doğuran şüarların söylənməsi fasilə tanımırdı. Ermənistanın siyasi və hərbi xadimləri yeni müharibə başlasa, Azərbaycanı, onun daha böyük ərazilərini işğal edəcəkləri ilə hədələyirdilər. Azərbaycan rəhbərliyi isə bir dəfə də olsun onların azğın çıxışlarına simmetrik cavab verməyi məqbul hesab etməmişdi.

90-cı illərdə Ermənistan müharibəyə böyük hazırlıq gördüyü halda, ölkəmizdə işğalçılara qarşı yalnız yerli könüllü batalyonlar vuruşurdu. Mərkəzi komandanlıq zəif olduğundan, onlar da xaotik fəaliyyət göstərirdi, döyüşlər düşünülmüş hərbi plan əsasında aparılmırdı. Hakimiyyətə yiyələnmək hərisliyi vətənin müdafiəsini unutmaq həddinə gəlib çıxmışdı. Hərbi dəstələrə maliyyə imkanlarına görə hamilik edənlərin şıltaqlığı da döyüşçülərə baha başa gəlirdi, bəzən hətta uğurlu əməliyyatların da davam etdirilməsi kiminsə «küsməsi» ucbatından dayandırılırdı. Bütün bunlar isə Ermənistan ordusunun döyüşdə üstünlük əldə etməsinə şərait yaradır, ölkəmizin ərazisinin işğalı isə genişlənirdi.

Azərbaycanın öz torpaqlarını azad etməsini otuz ilə yaxın müddətdə gözləmək lazım gəldi. Bu, əhalidə ümidsizlik hissləri yaratsa da, ölkənin siyasi rəhbərliyi, bəhrəsiz danışıqların davam etməsinə dözməklə yanaşı, yeni və son kimi düşünülmüş müharibəyə ciddi hazırlıq görür və bunu sirr kimi saxlayırdı. Azərbaycan ordusunun mənəvi və döyüş hazırlığı yüksəldilirdi. Həm də ordunun silahlandırmasını tamamilə yeniləşdirmək, modernləşdirmək üçün hökumətin sərəncamında olan böyük iqtisadi və maliyyə imkanları bu istiqamətə yönəldilirdi. Rəhbərliyə entropiya meyli, nəticədə ciddi ümidə malik olmadan müharibəyə başlamaq fikri, istəyi də yad idi. Müharibə qarşıya qoyulan böyük vəzifələrin hamısını birdəfəlik həll etməli idi və buna da tamamilə nail olundu. 44 gün davam edən döyüşlər Ermənistan ordusunun ağır cəzaya çatdırılması isə nəticələndi, ölkəmizin siyasi və fiziki xəritəsindəki bütün ləkələr silinib təmizləndi.

İndi Azərbaycan viran qoyulmuş şəhərlərinin və kəndlərinin yenidən tikilməsi, abadlaşdırılması işi ilə məşğuldur. Lakin bu vacib işin həyata keçirilməsi vaxtı həm də təhlükəsizlik məsələlərinə diqqət zəifllədilməməli , dövlətimiz öz təhlükəsizlik arxitekturasının bir daha və ən xırda miqyasda belə eroziyaya uğramasına yol verməməlidir. Tövbə edənlərə də bütünlüklə inanmaq düzgün deyildir, axı Dağlıq Qarabağda separatizm hərəkatı başlanana qədər Ermənistan daim dostluqdan, sədaqətli qonşuluqdan dəm vururdu. Əvəzində isə öz mərhəmətli qonşusundan çox sayda iqtisadi fayda götürmüşdü. İndi də taqətdən düşdüyünə, zəiflədiyinə görə məkrini yaxşı pərdə altında gizlədə bilər. Ona görə də biz sayıqlığımızı itirməməliyik, çünki xəyanət yoluna qədəm qoyanlar asanlıqla da saxta dostdan düşmənə çevrilə bilirlər.

Bizə bir dəfə arxadan xəncər zərbəsi vurulmuşdur, ölkəmizin ürəyini onun bədənindən qoparmaq istəyirdilər və bunu biz heç vaxt unutmamalıyıq. Ermənistanla hətta sıx əlaqələr quranda da, ona inanmaq da bir qədər çətindir, biz yeni münasibətlərə də idealistcəsinə yanaşmamalıyıq, acı təcrübəmizi unutmamalıyıq.. Keçdiyimiz ağır mərhələlər bizə yol göstərən ulduz rolunu oynamalıdır. Çünki onların vurduğu yaralar hələ sağalmamışdır, o yaralardan qan damla-damla axmaqda davam edir. Dağıdılmış, yandırılmış şəhərlərimizin, kəndlərimizin mənzərəsi gələcəkdə dəyişəcəkdir, lakin vurulmuş viranəliklər bizim yaddaşımızı tərk etməməlidir. Bu heç də düşmənçiliyə çağırış olmayıb, yalnız sayıqlıq zərurətini yada salmaq vəzifəsindən irəli gəlir.

Biz qonşularla münasibətlərimizi xalqımıza xas olan dəyərlər sistemi üzərində qurur, istənilən xeyirxah münasibətə daha artıq qaydada cavab verməyə çalışırıq. Bunlar sözdə ifadə olunsa da, kimisə aldatmaq məqsədini güdmür, biz öz nümunəmizin üğuruna bel bağlayır, siyasətimizin məzmunu və bütün çalarları ilə xoş qayəmizi sübut edirik. Azərbaycan ərazicə böyük ölkə olmasa da, beş ölkə ilə quru sərhədə, əlavə iki ölkə ilə su sərhədinə malikdir. ABŞ kimi iri bir ölkə isə şimalda bir, cənubda da başqa bir ölkə ilə – müvafiq olaraq Kanada və Meksika ilə həmsərhəddir. ABŞ öz qonşularına təzyiq göstərmək cəhdlərinə də girişir, prezident Tramp Meksikadan qanunsuz miqrasiyanın qarşısını almaq üçün, onunla sərhəddə hündür sədd də çəkdirirdi. Yeni prezident Bayden divarın tikilməsini dayandırdı.

Azərbaycan üç iri dövlətlə – Rusiya, Türkiyə və İranla həmsərhəddir. Türkiyə ilə ölkəmizi milli köklər və dil yaxınlığı birləşdirir. Ermənistanın xəyanətinə və təcavüzünə qarşı türk qardaşlarımız bizə dəfələrlə yüksək həmrəylik göstərmişdir. 1918-ci ildə ermənilər Qarabağda və Bakıda azərbaycanlı əhalinin qırğınını törətdikdə, Ənvər paşanın rəhbərliyi altında türk ordusu köməyə gəldi və qanlı vakxanaliyanın qarşısını aldı. Lakin bizə kömək çox hallarda siyasi rəhbərliyin mövqeyindən asılı olaraq həyata keçirilirdi. Keçən əsrin 90-cı illərində mərhum baş nazir Süleyman Dəmirəl guya ehtiyatlılıq ucbatından Azərbaycana Kəlbəcərdəki məcburi köçkünə çevrilmiş əhalini evakuasiya etmək, içəri ərazilərə daşımaq üçün helikopter verməkdən imtina etmişdi. Rəcəb Tayib Ərdoğanın 2003-cü ildə hakimiyyətə gəldikdən sonra ölkəmizə, xalqımıza münasibət əsl doğmalıq haləsi qəbul etmişdi. İkinci Qarabağ müharibəsində prezident Ərdoğanın siyasi cəsarəti və bütün sahələrdə dövlətlərarası əməkdaşlığı görünməmiş səviyyəyə qaldırması qələbəmizdə heç də az rol oynamadı. Vəzifəsinə başladığı gündən o, bəyan etdi ki, yalnız Ermənistan ordusu Azərbaycanda işğal etdiyi əraziləri könüllü azad etdikdən sonra, Türkiyə onunla sərhədləri aça bilər. Ermənistan rəhbərliyi şərti qəbul etmədiyindən Türkiyə də müəyyən təzyiqlərə məhəl qoymayıb, sərhədləri açmadı.

Yeni müharibə başlayanda Türkiyə ölkəmizə çox effektli müasir silah sayılan pilotsuz uçuş aparatlarını – dronları satdı. Döyüşlərdə XXI əsr silahından istifadə etməsi Azərbaycan ordusunun havada inhisar üstünlüyü qazanmasına şərait yaratdı.

Dronlar havadan düşmənin mövqelərini aşkara çıxarmaqla, onları zərbə üçün asan hədəfə çevirirdi. Dronların zərbəsindən erməni əsgərləri milçək kimi qırılırdı, düşmənin çox sayda hərbi texnikası sıradan çıxarılırdı. Pilotsuz uçuş aparatları (PUA-lar) həm də artilleriyanın, tankların, piyadaların hərəkətlərini əlaqələndirməkdə istifadə edilirdi. Onlar cərrahiyyə zərbələri vurmaları ilə fərqlənirdilər.

Dronun səsi gələn kimi erməni tankçıları idarə etdikləri texnikanı atıb, canlarını xilas etmək üçün qaçırdılar. Onlar bilirdilər ki, dəqiq atəşlə tank məhv

ediləcəkdir. Döyüşlərdə Azərbaycana nisbətən yeddi dəfə artıq hərbi texnikanı itirməsi Ermənistana baha başa gəldi, çünki tank, top, raket qurğuları diş fırçası deyil ki, onları istənilən vaxt dəyişə biləsən.

Ordumuzun modern silahla təmin edilməsində İsraillə yanaşı, Türkiyənin iştirakı qələbəmizin əldə edilməsində xeyli rol oynadı. Ona görə də qələbə sevincini yaşayan Bakı gəncləri küçələrə axışanda, kütlənin başının ütündə milli dövlət bayrağımızla yanaşı, Türkiyənin al-qırmızı bayrağı da dalğalanırdı. Paradda isə prezident Ərdoğan çox təsirli çıxış etdi və Türkiyə silahlı qüvvələri nümayəndələrindən ibarət dəstə tribunanın önündən keçdi. Azərbaycanlıların türk qardaşlarına qarşı minnətdarlıq hissləri, mübaliğəsiz olaraq, həddi tanımır.

Digər qonşularımızla da münasibətlər son dövrlərdə xeyli yaxşılaşmışdır. Rusiya, İran və Gürcüstan ordumuzun zəfərini, doğma torpaqların azad etməsini razılıqla qarşıladı. Ən vacib cəhət odur ki, qanlı toqquşma dayandırılmış, uzun illər müharibə şəraitində olan regiona sülh müjdəsi qədəm qoymuşdur. Azərbaycan dinc yanaşı yaşamağa, sülhü daim qorumağa və möhkəmləndirməyə hazır olduğunu bildirmişdir. Bizimlə vuruşan qonşu ölkə yaxşı bilir ki, özü xətalara yol verməsə, boş xəyallara düşməsə Azərbaycan heç vaxt müharibəyə başlamayacaq, sülhsevər mövqeyini tərk etməyəcəkdir.

Dostluq və ona qənim kəsilən qatı millətçilər

Xalqlar, dövlətlər arasında dostluq şüar kimi mövcud olduqda yalnız göz oxşayan formadan başqa heç bir əsaslı məzmuna malik olmur. Bu dostluğu nümayiş etdirmək üçün şit, bayağı tədbirlərə əl atılır. Vəziyyət azacıq dəyişən kimi xalqlar arasındakı zahiri xarakter daşıyan dostluq yoxa çıxır, düşmənçilik təzahürləri görünməyə başlayır. SSRİ-nin dağılması ərəfəsində ermənilərdə məhz belə bədnam metamorfoza meydana gəldi. Postsovet məkanında isə Gürcüstanla Rusiya arasında müharibə getdi, Rusiyanın tərkibinə daxil olan Krımı Ukrayna itirdi. Donbasda isə rus dilinə qoyulan qadağa nəticəsində iki vilayətin dinc əhalisi ilə Ukrayna silahlı qüvvələrinin hərbi toqquşması illər ərzində davam edir. İki slavyan xalq – ruslar və ukraynalılar az qala düşmənlərə çevrilmişlər.

Türklərlə azərbaycanlıların dostluğu möhkəm bünövrə üzərində qurulmuşdur, geniş və monolit xarakterli əsaslarına görə Misir piramidalarını xatırladır. Yetmiş il davam edən yadlaşma prosesi də bu dostluğa əsaslı təsir göstərə bilməmiş, onun köklərini məhv etməyə müvəffəq olmamışdı. Təəssüf ki, qardaş xalqların ədəbiyyatında bu yaxın münasibətlər öz əksini tapmamışdır. Nə Azərbaycan nəsrində türk obrazına, nə də türk ədəbi nümunələrində azərbaycanlı obrazına rast gəlmək mümkün deyildir. Bir-iki xırda misal da iki xalq arasındakı dostluğu təsvir etmək əvəzinə, çox hallarda maraq cəlb etmək üçün karikatura mənzərəsi yaradır. Bizim nəsrimizdə isə çox xalqların nümayəndəsi olan

personajlara, çox sayda erməni obrazlarına da rast gəlmək mümkündür, adi bir kürd oğlan isə iri həcmli romanın qəhrəmanı kimi verilmişdir. Yazıçıları qınamaq da çətindir, uzun dövr ərzində ideologiyaların təsiri altında türklərlə biz bir-birimizə şübhə doğuran nəzərlərlə baxmışıq. Ədəbi obraz da həqiqəti əks etdirməlidir, süniliyə, bayağılığa yol vermək səmimi münasibətlərə yalnız xələl gətirə bilər.

Azərbaycan müstəqillik qazandıqdan sonra Türkiyə ilə əlaqələr yeni vüsət aldı. Naxçıvanda Türkiyə ilə nəqliyyat əlaqəsi üçün «Ümid» körpüsü tikilib, istifadəyə verildi. Neftin ixrac nəqli üçün Bakı–Tbilisi–Ceyhan kəməri çəkildi, əlaqələri intensivləşdirmək üçün Bakı–Qars dəmir yolu işə salındı. Bunlar yalnız əməkdaşlığın daha çox nəzərə çarpan tərəfləridir,əsas məsələ isə şüurlardakı buzun əriməsi, münasibətlərin xeyli mehribanlaşması və əsl qardaşlıq fazasına keçməsi kimi əlamətdar hadisələr idi. Onu da qeyd etmək lazımdır ki, Orta Asiyadakı və digər ərazilərdəki heç bir türkdilli xalq Türkiyə ilə bu səviyyədə yaxınlaşa bilməmişdir. Bəzən hətta bir-birlərini başa düşməmək kimi xoşagəlməz hallar da olmuşdu.

Belə deyirlər ki, almazın yaranması üçün çox yüksək hərarət və təzyiq lazımdır. Təbiət yalnız bu faktorların mövcudluğu vaxtı həmin qiymətli və çox möhkəm mineralı yaradır. İkinci Qarabağ müharibəsi Türkiyə-Azərbaycan dostluğunu ən yüksək hərarətli anlardan keçirdi, onlara göstərilən dözülməz təzyiqlərə baxmayaraq, iki xalqlın qardaşlığının əsl sınağı rolunu oynadı. Bu qardaşlığın çətin anlardakı təzahürünü yalnız almaz möhkəmliyi ilə müqayisə etmək olar. Bu işdə hər iki ölkənin prezidentləri - İlham Əliyevin və Rəcəb Tayib Ərdoğanın sarsılmaz mövqeyi xüsusilə qeyd edilməli, zəfərlə yekunlaşdığına görə tam səmimiyyətlə alqışlanmalıdır.

Biz Ermənistanla da yaxın qonşuyuq. Təəssüf ki, həmsərhəd olmaq bir tərəfin günahının nəticəsi kimi heç də sağlam münasibətlərə malik olmaq demək deyildir. Axı niyə belə olmalıdır, ermənilər azərbaycanlıların birmənalı yaxınlığından başqa onların hansı pisliyini görmüşlər? Münaqişələrin də hamısını tarix boyu ermənilər yaratmış və obyektivlikdən uzaqlaşaraq azərbaycanlıların da təqsiri olduğunu uydurmağa əl atmışlar. Dağlıq Qarabağ separatçılarının da narazılıq yaratmaq üçün heç bir əsası yox idi, bir qatı millətçi isə gülünc şəkildə motivasiya kimi «ana südü ilə qidalanmaq» istəyini mantra kimi səsləndirirdi. Ana südü ilə uşaq qidalanır və nəsli növbəti dəfə artırmaq üçün ananın südü təbii olaraq kəsilməli olur. Orta yaşlı qatı millətçinin süd əmmək istəyi hansı bioloji tələbatdan yaranmışdır, yoxsa bu yalnız ağılın çaşmasındanmı xəbər verir. Dünya qloballaşmağa qədəm qoyduğu bir dövrdə özü ailə başçısı, valideyn olan bir kişinin əmməyə ana döşü axtarması bir qədər gülünc görünür. Guya Azərbaycan bu «saqqallı uşaqlara» əmzik vasitəsilə turş ayran içirdirmiş.

Səfehlik daim özünə xas olan səbəb, motiv də tapa bilir. Ədavətə istiqamətlənmiş sayıqlamaların ardıcıl olaraq təlqin edildiyi xalqda isə, heç vaxt

ona pis münasibət göstərməyənlərə qarşı pis, daha doğrusu, düşmənçilik hissləri yaranmağa başlayır.

Qatı millətçilər erməni xalqına böyük ziyan vurmuş, onların rahat yaşamaq hüququnu da pozmağa girişmişdilər. Mehriban qonşular qısa müddətdə düşmənlərə çevrilmişdilər. Ermənistanda yaşayan azərbaycanlılar, əsasən, sadə əməklə məşğul olur, ermənilər həyai üçün vacib olan ərzaqla təmin edirdilər. Millətçiliyin təsiri ilə bu gur bar verən ağac kəsilməyə məruz qalmalı idi. Onlar doğma yurd-yuvalarından qovulub, didərgin həyatını yaşamağa məcbur edildilər. Təsir əks-təsirə bərabərdir; ermənilərə qarşı da Azərbaycanda münasibət dəyişilməyə bilməzdi.

Qatı millətçilik dünyanın hər yerində yalnız ikrah hissləri doğurur, bu ideologiya asanlıqla irqçilik, şovinizm, faşizm çalarlarını qəbul edir. Erməni marginalları başqa vasitələr tapmayanda terrorçuluğa əl atmaları ilə hədələməyə keçirlər. Latın dilində terror "qorxu", «dəhşət» mənasını verir. Terrorçuluqdan heç bir din və ya millət fayda götürə bilməz, onların «qazancı» yalnız özlərinə qarşı başqaları tərəfindən bəslənən nifrətə yiyələnməkdən başqa bir şey deyildir. Terrorçu fərd yaxalandıqda, təkcə onun özü cəzalandırılmır, onu istiqamətləndirənlər də aşkar edilməklə ifşa olunurlar.

Ermənilər qoy öz qatı millətçilərinin liderlərinə yaxşı nəzər yetirsinlər, onda onların hansı yuvanın quşu olduqlarını asanlıqla müəyyən edə bilərlər. Dağlıq Qarabağ separatçılarına daş karxanasının müdiri Arkadi Manuçarov rəhbərlik edirdi, Robert Koçaryan İpək Kombinatında partkom katibi olmaqla, ilk dövrlərdə hələ aşağı rolda idi. Ermənistanda isə millətçiliyi qızışdırmaq ideoloqları olan Silva Kaputikyan və Sero Xanzadyan sıradan çıxdıqlarına görə, liderliyi jurnalist və uğursuz yazıçı olan Zori Balayan ələ keçirmişdi. İstər Manuçarov, istər Balayan xarakter etibarilə iyrənc adamlar olmaqla yanaşı, millətçiliyi yaymaqla varlanmaq eşqinə düşmüşdülər və bu zəmidən heç də az məhsul götürmürdülər. Sonrakı qatı millətçilərin nəsli onların bədnam akademiyalarının məzunları idilər. Onlara məşhur ingilis yazıçısı doktor Samyuel Conson hələ 1775-ci ildə yaxşı qiymət vermişdi. O, parlamenin seçki kampaniyasında Viq partiyasına qarşı mübarizə apardıqda, populizmə geniş yer yerən viqləri nəzərdə tutaraq demişdi: «Patriotizm is the last refuge of a scoundrel» – «Patriotizm əclafların axırıncı sığınacağıdır». O vaxtlar hələ «millət», «millətçilik» terminləri yox idi, onlar Böyük Fransa inqilabından sonra, XVIII əsrin sonunda meydana gəlmişdi, ona görə də doktor Conson patriotizmi belə rüsvay etmişdi. O, qeyd edirdi ki, bu mövqedə olanlar öz vətəninə real və bol məhəbbətlərinə görə deyil, şəxsi maraqlarını ört-basdır etmək üçün patriotizmdən yapışırlar. O, qeyd edirdi: «Onlar cəsarətlə söylədikləri yalanlarla adamların cəhalətinə müraciət edir, vicdanlılığa böhtan atır və ləyaqəti təhqir edirlər». İki əsr yarıma qədər vaxtdan əvvəl Conson elə bil ki, erməni qatı millətçilərinin Rafaelin, Karavaconun, Qoyyanın fırçasına xas olan portretini yaratmışdır. Erməni marginalları da xalqın cahil hisslərini qızışdırmağı və öz məqsədlərinə yönəltməyi bacarırdılar. Onlar xalqı aldatmaq üçün ucuz

vətənpərvərlik maskasını gəzdirirdilər. Yaxşı haldır ki, az qala dilənçi vəziyyətinə salınmış adamlar onların iç üzünü görə bildilər, son müharibə isə onların arxasında gizləndikləri qalın pərdəni bütünlüklə cırıb dağıtdı.

Bəzi fikir adamları isə doktor Consona da düzəliş verib deyirdilər ki, patriotizmi əclaflar üçün axırıncı deyil, birinci sığınacaq adlandırmaq lazımdır. Onlar bu məkandan şəxsi mənafeləri üçün fayda götürdüklərindən, heç vaxt onu tərk etmirlər.Ancaq nəticə etibarilə bu səylər əbəs olduğunu cöstərir, Fedrin təmsilindəki kimi "dağ siçan doğur." Yalandan və keçmiş barədə miflərdən caynaqları ilə yapışan heç bir rejim özünə xoş gələcək qura bilməmişdir. Ermənistandakı son otuz ildəki millətçi rejim də öz xaıqını bədbəxtliklərə düçar etməkdən savayı heç nə əldə edə bilməmişdir.

Manuçarovlar, Koçaryanlar, Balayanlar heç vaxt köhnəlməyəcəyinə, cırılmayacağına bel bağladıqları pərdə altında törətdikləri cinayətləri ört-basdır etmək istəyirlər, həm də bu bədnam fəaliyyəətləri ilə adlarını əbədiləşdirməyə can atırdılar. Onlar az müddətdə böyük var-dövlət sahiblərinə çevrildilər. Bu yerdə görkəmli rus yazıçısı M.Y.Saltıkov-Şedrinin sözləri yerinə düşür: «Hər addımda eşidirsən ki, …. düzdür, "hansısa bir N xəzinəni qarət etmişdir", ancaq axı o, gör necə bir vətənpərvərdir». Erməni qatı millətçiləri də həm Ermənistanın, həm də Dağlıq Qarabağin onsuz da kasad xəzinələrini çapmaq, qarət etmək məqsədilə bu axırıncı iyrənc sığınacaqda özlərinə yuva tapmışdılar. Onlar təkcə xəzinələri dağıtmamışdılar, həm də öz həmvətənləri olan insanların şüuruna ağır və sağalmaz yara vurmuşdular. Bütöv xalqın onlara əsir düşməsi isə yalnız təəssüf hissləri doğura bilər. Onlar öz iyrənc əməlləri zəminində ultra təmənnalarını ödəməyə, var-dövlət qazanmağa çalışırdılar və buna da nail olmağı bacardılar. Son onilliklərdə Ermənistan dövlətinə Dağlıq Qarabağdan olan separatçıların başçılıq etməsi dövründə ölkədəki digər bədbəxtliklərə əhalinin kütləvi yoxsulluğu da əlavə olundu, özləri isə böyük var-dövlət sahiblərinə çevrildilər. Onlar indi də millət barədə deyil, öz sərvətlərini hansısa həmlələrdən qorumaq barədə düşünürlər. Məhz bu məqsəd naminə milləti yenidən uçuruma da sürükləmək olar.

Dörd min ilə qədər əvvəl Köhnə Babilistan imperatoru Hammurabinin həyata gətirdiyi qanun kodeksində deyilirdi: «Başqaları ilə elə davran ki, necə ki, sən özünlə onların elə davranmalarını istəyirsən». Erməni millətçiləri bu prinsipin əksinə gedərək, daim mehribanlıq gördüyü xalqa qarşı açıq nankorluğa, təcavüzə yol verdilər və onu da etiraf etmək lazımdır ki, bu xalqı xaincəsinə çox sayda əzablarla üzləşdirdilər. Lakin onların gələcəyə bəslədikləri ümid puç oldu, Azərbaycan öz iqtisadi və hərbi qüdrətinə arxalanaraq Ermənistana tutarlı cavab verdi.

Onların sirayətləndikləri ağır xəstəlik ədalətli cavab timsalında həyatlarına zəhər qatmalı idi və onun simptomu olan bu iri bəd şişi müəyyən müddətə də olsa Azərbaycan ordusu kəsib, ən azı öz ərazilərindən uzaqlaşdırmağı bacardı. Onlar bu cərrahi əməliyyatı uğurla icra edəcək istedadlı cərrahın meydana çıxacağına

inanmırdılar, lakin öz liderliyini ustalıqla sübut edən bir şəxsiyyətin möcüzə xarakterli iti ağlı və ona itaəti ilə seçilən əlləri əvvəldən axıradək əməliyyata uğurla başçılıq etdi. Əgər baş cərrahın və başçılıq etdiyi qrupun həyata keçirdiyi bu əməliyyat olmasaydı, bəd xassəli şişin metastazı daha ağır nəticələrə gətirib çıxara bilərdi.

Qonşuluq mehriban münasibətlərə əsaslanmalıdır

Azərbaycan, Ermənistan istisna olmaqla bütün qonşuları ilə, ümumilikdə altı qonşusu olan ölkə ilə normal münasibət saxlayır, əməkdaşlıq edir, ticarət və kommersiya əlaqələri saxlayır. Türkiyə və Rusiya ilə daha sıx əməkdaşlıq mövcuddur. Azərbaycan həmin ölkələrin iqtisad inkişafında da əhəmiyyətli rol oynayır. Türkiyədə ARDNŞ-in milyardlarla dollar vəsaiti hesabına iri müasir neftayırma zavodu tikilir, ona xammal rolunu da ölkəmizdən ixrac edilən neft oynayacaqdır. Dövlətimizin maddi yardımı ilə Rusiyanın Astarxan vilayətində bir sıra istehsal və mədəni obyektlər tikilmişdir. Gürcüstan və İranla da ticarət əlaqələri inkişaf etdirilir. Azərbaycanlı mütəxəssislər İranda mini neftayırma zavodları inşa edirlər. Gürcüstan ərazisindən keçən neft kəməri və dəmir yolu tranzit ölkə kimi ona xeyli mənfəət gətirir. Türkmənistanla Xəzər dənizindəki neft yataqları barədə on illər ərzində davam edən mübahisələrə son qoyulmuş, dənizdə hər iki ölkədən eyni məsafədə yerləşən «Dostluq» yatağının birgə qazılması və istismarı barədə razılığa gəlinmişdir. Türkmənistan dənizin altından keçən kəmərlə öz qazını Azərbaycandan Türkiyəyə gedən Cənub Qaz dəhlizinə çıxaracaq, həmin kəmərə yükləyəcəkdir. Bu, həmin ölkəyə Rusiya vasitəsilə qazın ixracına nisbətən daha çox mənfəət gətirəcəkdir. Bu yolla türkmən qazının Avropaya satılması məsafəsi xeyli azalacaq, nəqlə aid olan tədavül xərcləri əhəmiyyətli dərəcədə ixtisar ediləcəkdir. Beləliklə, Azərbaycan Avropaya qaz satışında haba çevriləcəkdir.

Naxçıvanla respublikanın böyük ərazisinin birləşdirən avtomobil yolu çəkilməsi və dəmir yolunun bərpası ilə Türkiyə ilə iqtisadi əlaqələr müqayisəyə sığmayan səviyyəyə yüksələcəkdir. Bu həm də qardaş ölkə ilə qarşılıqlı yük daşımaları xərclərinin xeyli azalmasına səbəb olacaqdır.

Azərbaycanlılar pandemiyadan əvvəl Gürcüstan kurorotlarında istirahət etməyi sevirdilər, Bakıda gürcü mətbəxi restoranları böyük populyarlıq qazanmışdır. Rusiya xeyli həmvətənlərimizə iş yeri verdiyi kimi, onun Avropa qitəsindəki şəhərləri ölkəmizdə istehsal edilən meyvə-tərəvəz məhsulları üçün səmərəli bazar rolunu oynayır. Bu əlaqələrdə hansısa anlaşılmazlıq hesabına fasilə yarandıqda yerli məhsul istehsalçılarımız təşviş hissləri keçirir, xoşbəxtlikdən, bu xırda insidentlər də ləngimədən öz həllini tapır. Türkiyə istehlak malları istehsalında çox irəli getmiş, regionda Çinə rəqabət göstərən ölkəyə çevrilmişdir.

Qardaş ölkədə istehsal edilən paltar, ayaqqabı və məişət malları həm keyfiyyəti, həm də ucuzluğu ilə böyük alıcı tələbatının yaranmasına səbəb olur.

Bəs Ermənistanda vəziyyət necədir? Bu ölkə Rusiya ilə geniş kommersiya əlaqələrinə malikdir, daha dəqiq deyilsə, onun çox sayda istehsal müəssisələri və mühüm infrastrukturaları Rusiya iş adamlarının mülkiyyətinə keçmişdir. Ermənistan qonşularından daha çox İranla ticarət aparır. Lakin otuz ilə yaxındır ki, müharibə şəraitinə görə Azərbaycanla iqtisadi və digər əlaqələri bütünlüklə kəsilmişdir. Türkiyə ilə Ermənistanın iqtisadi əlaqələri daha uzun müddət ərzində donmuş şəkildə qalır və iki ölkə arasındakı sərhədlər tam bağlanmışdır.

Müharibənin nəticəsi ayıldıcı təsir göstərməlidir

44 günlük müharibə, Azərbaycanın işğalçı Ermənistan üzərindəki qələbəsi regiona uzunmüddətli sülh gətirə bilər. Olduqca xoş haldır ki, iki dövlət və xalq arasında açıq düşmənçiliyə, silahlı münaqişəyə son qoyulmuşdur. Lakin bu sülhün dayanıqlığı, möhkəmliliyi, uzunmüddətli olması heç də təkcə Azərbaycandan asılı deyildir, əks tərəf də öz üzərinə düşən vəzifəyə ayıq gözlə baxmalıdır, əvvəlki ədavətə son qoymağı bacarmalıdır.

Təəssüf ki, ermənilərin davranışı sülhə bağlanan ümidləri yenə də müəyyən şübhə altında qoyur. Bu xalq Türkiyə və Azərbaycana qarşı ərazi iddiasından hələ də əl çəkmək istəmir, Gürcüstanda da ermənilər yaşadıqları regionda iğtişaşlar törətməkdən çəkinmirlər. Yenə də Ermənistandan və Rusiyada yaşayan erməni ziyalılarından sərsəm revanşizm çağırışları eşidilir. Onlar anlamırlar ki, işğalın uzun müddət davam etməsi dövründə onların xalqa müraciəti hansısa bir təsir gücünə malik idisə, son müharibədəki ağır məğlubiyyətdən sonra , hətta hərbi cəhətdən canlanmaq barədəki xülyaları da adi zibilə çevrilmişdir. Məgər digər bir xalq öz tarixi torpaqlarını azad etmişdirsə, buna görə ondan qisas almaq istəyi və çağırışı ağılın hansısa çaşmasından xəbər vermirmi? Nə vaxta qədər Ermənistan regionu gərginliyə cəlb edən bir bədnam amil kimi qalmaqda davam edəcəkdir? Region pandemiyaya, yoxsa erməni qatı millətçiliyinin timsalındakı tauna qarşı mübarizə aparmalıdırmı? Məgər digər xalqlar antilopa sürüsünə çevrilmişdir ki, yırtıcı kaftar sürüsü daim hücum təhlükəsi ilə onu qorxutsun? Revanşizm çağırışları azacıq da olsa ayılan xalqda heç bir əls-səda doğurmayacaqdır. Bu sərsəm çağırışları edənlər ən azı Azərbaycanla Ermənistanın qüvvələr nisbətində meydana gələn tektonik dəyişikliklərə göz yummamalıdırlar, hətta siyasi cəhətdən kor olanlar da bunu hiss etməmiş deyillər. Qınından çıxa bilməyən ilbiz öz gücünü göstərən şirə meydan oxuya bilməz.

Lakin erməni millətçliyinin fəsad yaratmaq xüsusiyyətinə də göz yummaq düzgün deyildir. Məşhur flamand rəssamı Paul Rubens kübar ailəsindən olan qızla evlənmək barədə dostlarının məsləhətinə qulaq asmayaraq, açıqca deyirdi ki, mən

“kübar taunundan qorxuram.” Qatı erməni millətçiliyi taunundan qorxu da hamıya ehtiyatlılıq xidməti göstərməlidir.

Yeganə yol erməni marginallarının tutduqları öz səhv mövqelərindən uzaqlaşması, Ermənistanın isə özü üçün faydalı olan mövcud imkandan möhkəm yapışmasıdır. Hər hansı başqa bir istiqamət, ağılsız başbilənlərinin göstərdikləri yollar onu hökmən dalana aparıb çıxaracaqdır.

Azərbaycan başqa xalqların hətta kiçik dostluq jestinə daim öz ağuşunu açmaqla cavab vermişdir. Onun bu güclülük mənbəyindən, bəziləri bunu, bəlkə də, zəiflik hesab edir, düzgün olaraq istifadə etmək lazımdır. Ermənistan gizləndiyi dəmir pərdə arxasında məkrli hərəkətlərini davam etdirsə, millətlər yarışında daim uduzmaqla üzləşib, arxada sürünməli olacaqdır. Baş vermiş hərbi məğlubiyyətinə istisna kimi deyil,qanunauyğunluğun təzahürü kimi baxmalıdır və yalnız yeni vəziyyəti ilə barışsa, nəyəsə nail olmaq ümidini tamamilə itirməyəcəkdir.

Azərbaycanın siyasi rəhbərliyi onilliklər ərzində, ən çətin dövrlərdə belə beynəlxalq aləmdəki ziddiyyətlərdən kənarda qalmağı bacarmış, digər dövlətlərlə balanslaşdırılmış siyasət aparılmasına üstünlük vermişdir. Bu uzaqgörən siyasət dövlətimizi hərbi bloklara qoşulmamaq hərəkatı sıralarına daxil olmağa gətirib çıxarmışdır. Qoşulmamaq hərəkatı dünyanın 120 dövlətini hərbi bloklarda iştirak etməmək əsasında birləşdirən bir beynəlxalq təşkilatdır.

Hərəkat 1961-ci ilin sentyabrında Belqradda keçirilən konfransda rəsmi olaraq yaradılmışdır. Hərəkatın yaranmasından əvvəl beynəlxalq münasibətlərdə bu yeni cərəyanın əsasını qoyan Bandunq konfransı 1955-ci ildə keçirilmişdi. Bandunq konfransının yekun sənədi olan «pança şila» on prinsipdən ibarət idi.Onlardan biri başqa dövlətin ərazi bütövlüyünə hörmət edilməsi, digəri isə müdaxilədən və daxili işlərə qarışmaqdan imtina etmək idi. Hərəkatda müşahidəçi dövlət kimi fəaliyyət göstərən Ermənistan bu prinsipləri kobud surətdə pozmuş, həm də Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı adlanan hərbi bloka üzv olmuşdur.

2011-ci ildə Azərbaycan Hərəkatın üzvlüyünə qəbul olunmuş, respublika Prezidenti İlham Əliyev Hərəkatın sədri seçilərək, bu vəzifəni üç il müddətində- 2019–2022-ci illərdə həyata keçirməlidir. Onun bilavasitə təşəbbüsü ilə 2020-ci ilin mayında «Covid–19»-a qarşı mübarizəyə həsr olunmuş Kontakt qrupu formatında videokonfrans keçirilmişdir.

Bloklara qoşulmamaq hərəkatı üzvlərinin dövlətimizlə həmrəyliyi Azərbaycanın BMT-dəki uğurlarına da şərait yaratmışdır. Onu qeyd etmək lazımdır ki, ölkəmizin bloka cəlb etmək cəhdləri bəzən təkid şəklini alsa da, dövlətimiz həmin müraciətlərə qəti «yox» cavabını vermişdi.

Siyasət olduqca mürəkkəb məsələdir və onda səbatsızlıq, büdrəmə xoşa gəlməyən nəticələrə gətirib çıxarır. Azərbaycanın siyasi rəhbərliyinin səyləri nəticəsində müharibə dövründə də rəqibimizə əvvəlki dövrlərdəki himayə

göstərilməsi imkanları xeyli zəiflədi və əslində, Fransa və Kanadadan savayı, ona hətta hansısa mənəvi dəstək səsləri də eşidilmədi. Dövlətlərin böyük əksəriyyəti Azərbaycanın haqq işini bəyəndiklərini bildirdi, beləliklə Ermənistanın diplomatik blokadaya salınmasına nail olundu. Bu, Azərbaycanın diplomatik fəallığının səmərəli və uğurlu olduğunu bir daha təsdiq etdi.

Ölkəmizin dostlarının sayı artır

Azərbaycanın beynəlxalq aləmdəki düzgün hesablanmış mövqeyi və ardıcıllığı ona hörmət qazandırır, vaxtilə ona laqeyd olanlar da öz mövqelərini dəyişib həmrəylik nümayiş etdirirlər. Ermənistan isə öz havadarlarına çox arxalandığı halda, beynəlxalq münasibətlərdə də əsl fiasko ilə üzləşməli oldu. Əgər əvvəllər dövlətlərin hamısı sözdə Azərbaycanın ərazi bütövlüyünü dəstəklədiyini mantra kimi təkrar edirdisə, reallıqda isə işğalçını pisləmək, onu ağılsız siyasətdən çəkindirmək üçün heç bir praktiki addım atılmırdı. Lakin Azərbaycan hərb yolu ilə öz ərazilərini işğaldan azad etdikdə, dünya dövlətlərinin əksəriyyəti təkcə de-yure deyil, həm də de-fakto qaydasında onun suveren haqqını müdafiə etmək fikri ilə razılaşmalı oldu. Artıq Azərbaycan Ermənistan üzərində təkcə hərbi qələbə deyil, həm də diplomatik qələbə çaldı. Müstəqillik dövründə Azərbaycan, beləliklə, iki böyük zəfərə imza atmaq şərəfinə yiyələndi. Bu cəhət də Azərbaycan rəhbərliyinin müsbət saldosuna yazılmalıdır.

Rusiya Federasiyası ilə münasibətlərimiz strateji əməkdaşlıq xarakteri daşıyır. Ermənistanın üzv olduğu Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı Rusiyanın liderliyi altında fəaliyyət göstərir. Təşkilatdan Azərbaycan əleyhinə istifadə etmək sahəsindəki Ermənistanın cəhdləri Rusiyanın, Qazaxıstanın və Belarusun sərt mövqe qayasına çırpılıb, bəhrə vermədi. Ermənistan həmişə hərbi blokun kömək göstərəcəyinə çox bel bağladığı halda, Rusiya Ermənistan baş nazirinin ilk dövrlərdəki tələbinə, sonrakı vaxtlardakı yalvarışlarına məhəl qoymayıb, sərt qaydada bildirdi ki, müharibə Azərbaycan ərazisində, həmin dövlətin öz torpaqlarını azad etməsi uğrunda gedir, Dağlıq Qarabağ da onun dünya tərəfindən tanınmış ərazisidir, ona görə də ona qarşı hansısa hərbi müdaxilə yolverilməzdir. Əgər müharibə Ermənistan ərazisində getsəydi, onda KTMT ona kömək göstərməyə tələsərdi. Bu məsələdə Rusiya Prezidenti Vladimir Putinin yenilməz mövqeyi Ermənistan rəhbərliyinə ayıldıcı təsir göstərdi.

İran da Azərbaycanın haqq işinə tərəfdar olduğunu bəyan etdi, Ermənistanla ticarət əlaqələrinin dayandırmasa da, bu, hərbi əməkdaşlıq sferasına keçmədi.

Gürcüstan Azərbaycanla dostluq əlaqələrinə sadiq qalaraq, öz ərazisindən Ermənistana silah, sursat və hərbi texnika daşınmasına imkan vermədi və əslində, öz qonşusunu minimal blokada vəziyyətinə saldı.

Pakistan İslam Respublikası müharibənin ilk günlərindən Azərbaycanın yanında olduğunu bildirdi, hər cür hərbi kömək göstərməyə hazır olduğunu çəkinmədən bəyan etdi.

İsrail müstəqillik illərində Azərbaycanla iqtisadı əməkdaşlığı yüksək qiymətləndirərək, ordumuzun ehtiyaclarını ödəmək üçün ölkəmizə ən müasir silahlar, texniki qurğular, dəqiq zərbə vurması ilə seçilən dronlar satdı.

Müharibə Azərbaycanda yaşayan xalqların möhkəm birliyinin iftixar yaradan real nümayişinə çevrildi. Vaxtilə Türkiyədə dəbdə olan «Türkün türkdən başqa dostu yoxdur» şüarı xalqımızın mentalitetinə uyğun gəlmədiyindən qəbul edilmədi, ölkəmizdəki azsaylı xalqların gənc nümayəndələri müharibədə öz azərbaycanlı silahdaşları kimi həqiqi qəhrəmanlıq nümunəsi göstərdilər. Həlak olan döyüşçülər – şəhidlər, həmçinin yaralanmış əsgərlər – qazilər arasında çox sayda talışlara, ləzgilərə, avarlara, ruslara,dağ yəhudilərinə rast gəlinir. Onlar doğma vətən saydıqları Azərbaycan uğrunda vuruşur, canlarını və sağlamlıqlarını onun naminə qurban verməyə hazır idilər. Çünki bu gənclər özününki saydığı torpaqları bütün ruhları ilə hifz edirdilər. Ordumuz canlı qüvvə barədə heç bir çətinlik çəkmirdi. Ona görə də, Ermənistan rəhbərliyinin guya Azərbaycan tərəfdə Suriya muzdlularının vuruşması iddiası heç bir əsasa malik deyildi.

Azərbaycan kiçik ölkə olsa da, çoxmillətliliyi ilə seçilir və milli tərkibdəki rəngarənglik ölkədəki vətənpərvərlik hisslərini nəinki zəiflətmir, əksinə, daha da gücləndirir. Ermənistan isə monomilli ölkəyə çevrilsə də, əslində, daha da zəifləmişdir, orduda fərarilik halları da kütləvi xarakter daşıyırdı. Son müharibədə qəribə bir dəyişikliyin də şahidi olduq. Azərbaycanlı valideynlərin igidliyə çağırış xeyir-duaları, cəbhəyə yollananların Horatsi oğlanlarınınkına bənzər andları göylərə çatdığı halda, Ermənistandakı valideynlər övladlarını səfərbərlikdən yayındırmağa çalışır, gənclər də hərbi xidmətə getməkdənsə, gizlənmək yolunu seçirdilər. Artıq millətçiliyə əlacsız müraciət cəhdləri də köməyə gəlmirdi. Azərbaycanda isə elə bil ki, Homerin öz "Odisseya"sındakı bəlkə də bütün bəşəriyyətə ünvanladığı "ləyaqət, qüsurla müqayisədə daha yaxşı siyasətdir" mesajı birbaşa qəbul edilmiçdi, ölkə rəhbərliyi daim hiyləgərliyə əl atan düşməndən fərqli olaraq, ləyaqət prinsipini əsas götürərək, siyasətində və əməllərində məhz ona riayət etməyi vacib saymışdı.

Qazanılmış qələbə Azərbaycan ordusu əsgərlərinin xeyli dərəcədə igidliyi və fədakarlığı sayəsində mümkün olmuşdur. Son iki onillikdə siyasi rəhbərlik, əslində, yeni ordu formalaşdırmışdır. Ordu cəbhədə daim irəliyə doğru hərəkət edir, bütün maneələri ustalıqla dəf edirdi.

Qatilləri öz xalqı cəzalandırmalıdır

Həm Birinci Qarabağ müharibəsində, həm də 2020-ci ildəki müharibədə minlərlə gəncin qanı axmışdır. Həlak olanlar hər iki millətə – azərbaycanlılara və ermənilərə məxsus idi. Onların gənc həyatı erməni qəsbkarlarının acgöz iştahının qurbanı olmuşdu. Məhz onlar Azərbaycan ərazisində qan gölü yaratmağa can atırdılar.

Hər iki müharibəyə erməni qatı millətçiləri start vermiş, qonşu xalqı əzablara məhkum etmək məqsədini güdmüşdülər, bilavasitə onlar bu qanlı dramın başlanmasına və davam etməsinə qərar vermişdilər. Qərəzsiz, tam obyektiv təhlil göstərir ki, uydurduqları çox sayda bəhanələrə baxmayaraq müharibə təşəbbüskarının Ermənistan olduğuna heç bir şübhə yeri qalmır. Bu dövlət Dağlıq Qarabağda bədnam separatizm hərəkatı başlayandan müxtəlif təhrikçilik hərəkətlərinə əl ataraq (Sumqayıt hadisələri də onların sırasına daxildir), etirazların dinc müstəvidən çıxıb, silahlı toqquşmalara keçməsinə cəhd göstərdi, Xocalı qətliyamını təşkil edildikdən sonra vuruşların iri hərbi texnikanın iştirak etdiyi qanlı müharibəyə çevrilməsinə nail oldu. Ermənistan ordusu Azərbaycan ərazisinə daxil olub, əsl işğalçılığa, dinc əhalini qırmağa, şəhər və kəndləri viran qoymağa başladı. 1992-1993-cü illərin bir il yarım müddəti ərzində Şuşa da daxil olmaqla, səkkiz rayonun ərazisi işğal edildi və onların əhalisi zorakılıq qarşısında ev-eşiklərini tərk edərək, məcburi köçkünlərə çevrildilər. Dağlıq Qarabağ ərazisində və Ermənistanda, demək olar ki, bir azərbaycanlı ailəsi də qalmadı, ermənilər onları doğma yurd-yuvalarından qovdu.

Ermənistan ordusunun azərbaycanlılara qarşı amansızlığı ilə müqayisədə tarixdəki ən dəhşətli hadisələr də sönük görünür. Romalılar bizim eradan əvvəl 146-cı ildə Karfageni dağıdıb, məhv etmişdilər. Alman natsistləri 1937-ci ildə İspaniyada general Frankoya kömək məqsədilə təyyarə bombardmanı ilə Basklar ölkəsindəki Gernika şəhərini, II Dünya müharibəsi ərzində isə İngitərənin Koventri və Fransanın Oradur şəhərlərini yerlə yeksan etmişdulər. Bu hadisələr müxtəlif dövrlərdə dörd ölkənin şəhərlərinin məhv edilməsi ilə əlaqədardır. 1992-1993-cü illərdə Ermənistan Azərbaycanın səkkiz şəhərini və yüzlərlə kəndini dağıtmaqla,yandırmaqla Yer üzündən silmiş, tarixdə heç bir bənzəri olmayan vəhşilik törətmişdilər.

Günahkarlar Dağlıq Qarabağ separatizmini qızışdıran erməni qatı millətçiləri ilə yanaşı, bu separatizmə rəvac verib, ondan sui-istifadə edərək Azərbaycan ərazisinə soxulan Ermənistan ordusu idi. Lokal silahlı toqquşmalar Ermənistanın istəyi və bilavasitə iştirakı ilə qızğın döyüşlərə, qanlı müharibəyə çevirildi. Daha yaxşı silahlanmış güclü Ermənistan qoşunları azərbaycanlıların könüllü batalyonlarının müqavimətini qırıb, əsl işğal əməliyyatları apardı. Müharibəni ilk olaraq Ermənistan başladı və bizim böyük ərazidə torpaqlarımızı zəbt etdi, məhz Ermənistan ordusu bizim əraziyə girmiş, təkcə müharibəyə start verməklə kifayətlənməyib, onu qızışdırmışdı.

2020-ci il sentyabrın 27-də Azərbaycan ordusu Ermənistan silahlı qüvvələrinin cəbhə xəttində ardıcıl olaraq atəşkəsi pozmasına cavab olaraq, hücuma keçdi və onlara ağır zərbələr vurdu. Ermənistan döyüşlərdə çox sayda canlı qüvvə və hərbi texnika itkisinə məruz qaldı, onların ordu sıralarında fərarilik da geniş yayılmışdı.

Minlərlə erməni gənci Ermənistan rəhbərliyinin cinayətkar siyasəti nəticəsində cəbhədə həlak oldu, əsir düşənlər də az deyildi. Belə bir səfeh misal irəli sürülə bilər ki, onlar Azərbaycan əsgərlərinin güllə atəşlərindən həyatlarını itirmişlər. Əlbəttə, müharibə gözəllik müsabiqəsi deyildir, burada canlı qüvvəni və hərbi texnikanı məhv etmək üçün müxtəlif növ silahlar işə salınır. Səbəb araşdırılsa, Ermənistan ordusu Azərbaycan ərazisinə soxulmuşdu, nə 90-cı illərdə, nə də 44 günlük son müharibədə Azərbaycan əsgərlərinin ayağı Ermənistan ərazisinə dəyməmişdi. Ona görə də həm azərbaycanlı, həm də erməni əsgərlərinin qatilləri, məhz Ermənistanın siyasi və hərbi rəhbərliyidir. Separatçılara kömək adı altında Ermənistan ordusu qonşu dövlətin suveren ərazisinə yeridilmişdi. Bu ordu təkcə döyüşmürdü, həm də mülki insanların qanını axıdır, şəhər və kəndləri viran qoyur, xarabazara çevirirdi.

Ermənistan rəhbərliyi geniş miqyaslı vandalizmin yeni, daha dəhşətli növü olan hayizmə görə tarix qarşısında cavab verməlidir. Evləri dağıdılmış, yandırılmış on minlərlə Azərbaycan ailələri Ermənistandan vurduğu ağır maddi ziyanın ödənilməsini tələb edəcəkdir. Ancaq heç bir təzminat azərbaycanlılara vurulan ağır maddi və mənəvi ziyanın əvəzini verə bilməz.

Erməni valideynlər isə öz övladlarını işğal və onu əbədiləşdirmək məqsədilə ölümə göndərən öz siyasi rəhbərliklərindən cavab tələb etməlidirlər. Həlak olan cavanlar azərbaycanlı əsgərin gülləsi ilə cəzalandırıldıqları halda, onların əsl qatilləri məhz Ermənistan rəhbərliyi, ölüm zəmisindən bol bəhrə götürmək məqsədini güdən erməni qatı millətçiləridir.

Erməni marginalları minlərlə gəncin öz həyatlarını itirməsinə görə tam məsuliyyət daşıyırlar. Onların çirkab suyu timsalındakı ideyaları və təbliğatı iki xalq arasında düşmənçilik toxumu səpməklə, müharibənin getməsinə yol açmışdı.

Təbliğat olduqca qorxulu işdir, o, millətin şüurunda ciddi dəyişiklik etməyə müvəffəq olur. Gobbelsin başçılıq etdiyi nasist təbliğat maşını yüksək intellektual səviyyəyə malik olan alman xalqını qısa müddət ərzində qatillər millətinə, ölüm düşərgələri yaradanlara və onları idarə edənlərə, yəhudilərin bütünlüklə məhvinə çalışan vəhşilərə çevirmişdi. Mənfur irqçilik təbliğatının təsiri altında bir neçə il ərzində qatillər yetişdirən istixana mühitində xalqın böyük əksəriyyəti öz mənəviyyatını tamamilə itirməyə sövq edilmişdi.

Ermənilər arxitekturalarında geniş işlətdikləri tuf daşı və öz lokal tarixlərinə düşmüş qatı millətçiləri ilə öyünürlər. Tuf vulkan püskürəndə meydana gəlmişdirsə, əksinə xalqın mübarizə qüvvəsi sönəndə qatı millətçilər səhnəyə çıxmışdılar. Tufdan Yerevanın binaları inşa edilmiş, milli qəhrəmanlar da yerli

simvollara çevrilmişdilər. Parfenon, Panteon, Borobudur, Bağlı şəhər, Vasili Blajennı kilsəsi tuf daşından tikilmədikləri halda, dünya şöhrətinə malikdilər. Erməni milli simvol nümunələri də Spartak, Uilyam Uelles, Janna Dark və Skandarbeqlə müqayisə edilə biləcək bir səviyyəyə yaxınlaşa da bilməmişdilər.

Ermənistanda millətçilik yüksək ideologiya hesab olunur. Erməni xalqı özünə təlqin etdiyi müstəsna olması fikrini uşaqların da şüuruna yeridir. Bunun isə ən xırda bir əsası belə yoxdur. Nə qədər ki, ermənilər öz uydurduqları miflərin girovu olaraq qalacaqlar, onlar başqa xalqlarla qarşılıqlı münasibət qura bilməyəcəklər. Bu köhnəlmiş toksik yük, nəhayət, müasir ideya gəmisindən kənara atılmalıdır.

Millətçiliyin yoluxucu xəstəliyinə məruz qalan xalq daim faciələrlə üzləşir. Totalitar rejimlər əgər düşüncə azadlığını əzirsə, qatı millətçilik normal insani münasibətlərə qənim kəsilir. Qızmış beyinlər öz sərsəm ideyalarının zəfəri naminə bütün insan hisslərini məhdudlaşdırmağa çalışır.

2020-ci ildə onların burnu Azərbaycanın qələbəsi ilə möhkəm əzildi, artıq onlar taqətdən düşmüş, xeyli zəifləmişlər. Təskinlik tapdıqları xülyalarla da onların gücü elə böyük deyildir ki, Azərbaycana və ya başqa bir ölkəyə hansısa bir təhlükə törədə bilsin. Lakin güman etmək olar ki, bu güc öz xalqını yenidən daha ağır vəziyyətə salmaq iqtidarındadır. Erməni xalqı onların yalanlarından, sayıqlamalarından, bu dözülməz əsarətdən xilas olsa, öz mənəvi qamətini düzəldə biləcəkdir. Xalq öz daxilində mövcud olan xəyanətkar qüvvəni ən mənfur ehtiras kimi boğmağı bacarmalıdır.

Vaxtilə Azərbaycana qarşı dövlət terrorçuluğu ilə məşğul olan Ermənistan daha ağır qaydada cəzalandırılmağa layiq idi. Həmin dövrdə ABŞ prezidenti işləyən Bill Klinton terrorizmi “bizim nəslin düşməni” adlandırmışdı. Təəssüf ki, onun özü də daxil olmaqla, bütün dövlət və hökumət başçıları Ermənistanın Azərbaycana qarşı terrorçuluğna göz yummuşdular.

Ermənistan siyasi rəhbərliyinin və erməni qatı millətçilərinin son otuz il ərzindəki fəaliyyəti cinayətkarlıq törətməyə istiqamət götürmüşdü və axırda onlar buna görə cavab verməli oldular. Lakin onların qana batmış əllərini, Şekspirin obrazlı ifadəsi ilə desək, heç okean suları da təmizləyə bilməz. Əllərindəki qurumayan, yoxa çıxmayan qan izi onlar üçün ən ağır cəzaya çevriləcək və onları hamıya daha yaxşı tanıtdıracaqdır.

Emənistan uçurumun kənarına yuvarlanmışdır

Məğlubiyyətdən sonra Ermənistanda vəziyyət xeyli gərginləşmişdir. Müxalifət hərbi uğursuzluğun bütün günahını Nikol Paşinyanda görür, onu “xain” adlandırırlar. Hətta ordunun 40 nəfər yüksək rütbəli zabiti onun istefaya getməsini

tələb edir. Belə çıxır ki, müharibəni ordu, generallar deyil, yalnız baş nazir uduzmuşdur və az qala məhvə məhkum olmuş ordunun rəhbərliyinin bu mövqeyi təəccüb doğurmaya bilməz. Görünür onlar bu yolla hakimiyyəti ələ keçirməklə, 20 il ərzində Ermənistana hökmranlıq edərək, ölkəni talamaqla məşğul olan əvvəlki Koçaryan- Sarqsyan xuntasını bərpa etmək istəyirlər. Həmin dövrdə orduya ayrılan vəsait də mənimsənilirdi, onu qidalandırmaq üçün olan ərzaq da oğurlanırdı, işğalı davam etdirmək üçün arxalandıqları əsgərləri də yarıac saxlayırdılar. Hazırda ölkədə böhran zəifləmək bilmir, baş nazirlə prezident arasında da narazılıq mövcuddur. Rusiya və Türkiyənin prezidentləri Ermənistandakı vəziyyətdən narahatlıqlarını ifadə edib, tərəfləri ölkədə sakitliyi bərpa etməyə çağırmışlar.

Tarixdə məğlub ordunun baş qərargah rəisinin oxçar tələbi I Dünya müharibəsinin sonunda Almaniyada baş vermişdi. General Erix Lyudendorf ordunu məhv olmaqdan xilas etmək üçün imperator II Vilhelmdən Antantaya sülh təklif etməyi tələb etmişdi. Bağlanan sülh həm də kayzerin taxt-tacdan əl çəkməsinə səbəb olmuşdu. Ermənistanda isə generallar fürsətdən istifadə edib öz hərbçi formalarını siyasətçi qiyafələri ilə əvəz etmək eşqinə düşmüşlər. Yerevanda hələlik mitinqlər dinc xarakter daşıyır, bu məhvərdən çıxsa ölkəni vətəndaş itaətsizliyi bürüyəcəkdir, həmin variant isə vətəndaş müharibəsinə gətirib çıxara bilər. Erməni qatı millətçilərinin aludə olduqları oyun bir gün hökmən öz başlarında çatlamalı idi.

Yaxşı haldır ki, ölkədə reallığı düzgün qiymətləndirənlərin də səsi eşidilir, onlar hər cür kompromislərə getməyi, güzəştlər hesabına Azərbaycanla razılığa gəlməyi təklif edirlər. Çünki dövlət ağır günlərini yaşayır və zaman, 44 günlük müharibəyə qədər istehza obyekti saydıqları Azərbaycanın xeyrinə işləyir. İş o yerə çatmışdır ki, artıq Azərbaycanla birbaşa sərhəddə olan Syunik (keçmiş Zəngəzur) mahalının sakinləri özlərini heç də rahat hiss etmirlər.

Paşinyan öz sadəlövhlüyünün cəzasını çəkir, o, generalların hər cür yalanlarına inanırdı. Onlar naşı baş naziri inandırmışdılar ki, yeni müharibə başlasa Azərbaycan daha çox ərazi itirəcəkdir. Ona görə də o, illiyuzor qələbə qanadlarında uçacağı ümidi ilə yaşayırdı. Qələbə ona yeni, xüsusi status gətirəcəkdi, mənfur nümunəyə uyğun olaraq bütün dünya erməniləri bir-birini salamlayanda “Barev Paşinyan!” nidasını qışqıracaqdı. Döyüş vaxtı da hərbçilər onu aldatmaqda davam edirdilər. Qubadlıdakı növbəti uğursuzluüdan sonra onu inandırdılar ki, Azərbaycan ordusu tələyə salınıb məhv ediləcəkdir və bu yalanın əsasında o, lovğa bəyanatla çıxış etdi. “Tələ” isə rəqib ordunun Laçın dəhlizinə çıxması ilə nəticəlndi. Şuşaya hücum olmayacağına da onu inandırmışdılar, 8 noyabrda ordumuz öz doğma şəhərini işğaldan azad etdi.

Paşinyan faciəli siyasi fiqurdur, müharibədən gözlədiyi dividend əvəzinə fiasko ilə üzləşdi. Yaponiya imperatoru da ölkəni militarizmə sürükləyənlərə inanıb, Asiyaya hökmran olmaq istəyirdi. Hər şey tərsinə oldu, min ildən yuxarı tarixi olan Yaponiya ilk dəfə yadelli düşmənə məğlub oldu.1945-ci ilin avqustunun

birinci ongünlüyndə ABŞ Hirosma və Naqasakiyə atom bombası atdıqdan sonra, 14 avqustda yaponlar ilk dəfə radio ilə səslənən imperator Hirohitonun səsini eşitdilər. Mikado xalqa müraciət edərək dörd il davam edən müharibənin sonunda düşmənin yeni, əzabverici dəhşətli bombadan istifadə etdiyindən, dörd dövlətin (ABŞ, Böyük Britaniya, Çin və Sovet İttifaqı) birgə bəyanatına qoşulmaq lüzumunu qeyd etdi. Bildirdi ki,müharibəni davam etdisək, nəticə yapon millətinin süqutundan, məhv edilməsindən ibarət olacaqdır. Zaman diqtə edir ki, bütün nəsillər üçün sülh yoluna daş döşəyək.

Hirohitodan fərqli olaraq Paşinyan məğlubiyyəti xalqdan gizlədirdi, sonrakı etirafları da artıq fayda vermədi. Yapon ordusu ilahi qüvvə kimi tanıdığı imperatorun göstərişinə əməl etməyə məcbur olub, təslim oldu. Bir sıra generallar və zabitlər qeyd-şərtsiz təslim kimi millt təhqirə dözməyib, ənənəyə uyğun olaraq seppuku (xarakiri) yolu ilə özlərini intihar etdilər. Erməni hərbçilərində isə biabırçılığa, alçalmağa "təmkinlə" dözmək xüsusiyyəti vardır. Gətirilən paralel, əlbəttə, axsaya bilər, çünki bu ölkələrin miqyası və təcrübəsi də, xalqların psixologiyası da da tam fərqlidir.

Müəllifə irad tuta bilərlər ki, Ermənistan barədə çox söhbət getdi, ancaq səbəb kimi bir cəhət də nəzərə alınmalıdır ki, bu dövlət ən ağır anlarını yaşayır və xəstəlik ağırlaşanda hətta konsiliuma ehtiyac yaranir. Qalib Azərbaycanın isə, ingilislərin ibarəsincə desək, obrazına düzülmək üçün heç bir əlavə lələyə ehtiyacı yoxdur. Lakin qalib xalq, yəqin ki, layiq olduğu tərənnümü də gözləyir. Çünki buna da tarixi nümunələr vardır. Böyük dramaturq Uiljam Şekspir Elizabet epoxasının İngiltərəsindən vəcdə gələrək, özünün "II Riçard" pyesində doğma vətənini böyüklük adası, Marsın (müharibə allahı-müəllif) məkanı, başqa bir Edem (Yerüstü cənnət, Gülüstani-İrəm –müəllif), yarım cənnət, xoşbəxt tərbiyə olunmuş adamların kiçik dünyası, divar rolunu oynayan gümüş dənizin haşiyəyə aldığı qiymətli daş (daş-qaş nəzərdə tutulur-müəllif) adlandırmışdı. Şair üçün İngiltərə xoşbəxt bir torpaq, bir səltənət idi, onu məğlub etmək istəyənlər özləri biabırçı qaydada məğlub olurdular.

Şekspir istedadının məhsulu olan və qələmindən süzülən bu sözlər bir qədər fərqli şəkildə olsa da, mahiyyətcə Azərbaycana da şamil edilə bilər. Doğma ölkəmizin və xalqımızın başını indi Qələbə çələngi bəzəyir. Qoy bu uca sözlər və qazandığı çələng həmişə onu tanıtdıran, nişan verən bir əlamətə çevrilsin, sonrakı tarixini də məhz həsrəti ilə yaşadığımız bu şöhrət altında davam etdirsin, ölkəmizin ləyaqəti bir də heç vaxt ləkə görməsin.

07.01.2021-ci il

525-ci qəzet

Ermənistanın yeni yaraları

Qənşu ölkənin bədbəxtliklər seriyasının araşdırılmasına həsr olunmuş bu yazı ona birbaşa aid olan başlıq altında olmalı idi, lakin erməni ədəbiyyatının klassiki Xaçatur Abovyanın "Ermənistan yaraları" adlı romanının təsiri ilə, ondakı süni pafosdan yayınmaqla, bu adı daşımalı oldu. Çünki son üç onillikdəki öz düşmənçiliyi hesabına Ermənistana dəymiş yaralar daha ağır və daha təsirlidir. Onun əsəri isə 1826-28-ci illərdəki Rusiya ilə İran arasındakı müharibədə erməni xalqının mübarizəsinə həsr olunsa da, kitabda vətəni Ermənistan və doğma xalqı olduqca şişirdilmiş qaydada, tünd yağlı boyalarla təsvir edilmişdir. Hətta göydən enən minbaşlı əjdahanın Ermənistanın düşmənlərini məhv etməklə, ölkənin göz yaşlarını qurutduğunu xəyal edir, vaxtilə guya onun qızıl əsrlərinin, pəhləvanlarının, nəhənglər kütləsinin mövcud olduğunu kədərlə yada salır. Ermənilərin təxəyyülündə kök salan ləyaqətlərin şöhrətləndirilməli olduğunu vurğulamaqla yanaşı, təhqiramiz qaydada kürdlərin geridə qaldıqlarını da xüsusi qeyd etməyi unutmur.

Erməni dilinin itməsi təhlükəsindən qorxmaqla, öz xalqına türk dilinin xüsusən xoş gəldiyini, hətta erməni mahnılarının, nağıllarının, zərb-məsəllərinin həmin dildə olduğunu qeyd edir. Bu yol davam etsə, türk dilinin erməni dilini sıradan çıxaracağı ehtimalı xeyli böyüyəcəkdir. Yazıçı buna heyifsilənsə də, özü də ümumi təsirdən qaça bilmir, Aqasi adlı qəhrəmanının türk dilindən gələn "aslan balası" adlanmasını da göstərir. Hətta Persiya hökmdarı Ağa Məhəmməd şah Qacarı da yenə həmin dildə məlum qüsuruna görə "Axta şah" adlandırıldığını qeyd edir. Erməni dili uğrunda mübarizə etməyi başlıca məqsədi sayan bu millətçi ziyalı kütləvi xarakter daşıyan meyldən

uzaqlaşa bilmir, türk dilindəki ifadələri işlətməyi məqbul sayır. Bununla yanaşı doğma dilinin itməsinin real təhlükəsini duyub, həyəcanını gizlətməyərək, ermənilər öz dilində təmiz danışmağa səsləyir. Digər sadaladıqları ilə yanaşı bu dərdi də Ermənistanın yarası kimi qiymətləndirir.

- Kitab yazıçının bədbəxt hesab etdiyi erməni xalqının bütövlükdə ağrısını hiss etdiyi yaraları barədədir. Lakin azərbaycanlılara sataşmamış da keşinə bilmir. Böyük islam mücahidi imam Hüseynin qətlinə həsr olunmuş mərasimdə "şaxsey", "vaxsey" nidalarını, iştirakçıların döşlərinə, başlarına döydüyünü, saqqallarını yolduğunu, başlarını daşa vurduqlarını, gerilik əlaməti kimi istehza ilə yada salır.
- Ermənistanda bədii ədəbiyyatın artıq çoxdan millətçiliyin ruporuna çevrilməsi heç də təəccüb doğurmamalıdır. Yazıçılar, sadəcə olaraq, tarixçilərdən geridə qalmaq istəmirdilər. Nəsrdə, poeziyada milli xüsusiyyətər göylərə qaldırılır, başqa xalqlara isə adətən nifrət hissləri aşılanır. Yazıçı Raffi qonşu xalqlara qarşı kini, nifrəti yaymaqda öz müəllimi Abovyanı da geridə qoyur. Belə əsərlərin bolluğu erməni bədii ədəbiyyatında millətçilik mövzusunun ayrıca müstəqil janra çevrildiyini göstərir.
- Sovet yazıçısı, Ermənistan Yazıçılar İttifaqının sədri işləmiş Vardges Petrosyan özünün «Erməni eskizləri» adlı əsərində millətini təbliğ etməklə yanaşı, onun qüsurlarını da qeyd etməkdən çəkinməmişdir. Bu məsələdə o, bir qədər Abovyanın başladığı yeni ədəbiyyatın məqsədlərinə bütünlüklə əməl etməklə, hadisələri daha geniş panoramada, bütün rakursları ilə verməyə cəhd edir. Çətin anda ermənilərin tərəddüdə yol vermələrini, geri çəkilmələrini, mübarizə dəstəsinə qoşulmamalarını və ya onu tərk etmələrini o, təəssüf hissi ilə təsvir edir. Müəllif böyük ağrı keçirməklə qeyd edir ki, hər bir erməni qəhrəmanının uyuduğu yerin yanında erməni xaininin qəbri yerləşir. Təəssüf hissi ilə etiraf edir ki, millətin tarixində xəyanət faktları da az olmamışdır. Aydın məsələdir ki, öz xalqına da xəyanət edən heç vaxt başqa xalqa həqiqi dost ola bilməz və ya belə «dostluqda» sədaqətdən söhbət də gedə bilməz və imkan düşən kimi elələrinin başqa

xalqa qarşı xəyanətə, satqınlığa yol verməsi də təəccüb doğurmamalıdır. Onlar dünənə qədər qardaş adlandırdığına arxadan zərbə vurmaqdan da çəkinmirlər. I Dünya müharibəsinin ilk illərində ermənilərin Rusiyanın xeyrinə vətəndaşları olduğu Türkiyəyə qarşı satqınlıq etmələri buna əyani misaldır.

Erməni ziyalılarının və vəzifəli şəxslərinin bir hissəsi həmin müharibə dövründə və SSRİ-nin dağılması ərəfəsində türklərlə və azərbaycanlılarla həmrəyliyi özünə təhqir hesab edərək, hər iki xalqa qarşı birbaşa xəyanət əməllərinə əl atmağa tələsmişdilər. Onlar üçün millətçilik ən yüksək mənəvi dəyər hesab olunur, ona xidmət naminə ən ülvi bəşəri dəyərlərdən və insani ləyaqətlərdən də imtina etmək, onları ayaqlar altına atmaq olar. Millətçilik ümumbəşəri dəyərlərə məhəl qoymamağı təlqin edir, onlar üçün üfüq milli sərhədlərdə başa çatır. Axı ümumi səma, üfüq də onlara lazım deyildir, onlar "sürünənlər uça bilməzlər" prinsipini özlərinin həyat kodeksinə çevrirlər. Öz millətlini saxta qaydada, əyri yollarla yüksəltmək naminə hər cür cinayətlərə, xəyanət hərəkətlərinə də əl atmaq olar.

Kataklizmlər Ermənistanı təqib edir

Ermənistan son otuz üç ildə çox sayda kataklizmlərlə üzləşməli olmuşdur, onlardan yalnız biri təbii xarakter daşıdığı halda, digərləri öz liderləri, qatı millətçiləri tərəfindən törədilmişdir. Bu ölkənin sakinlərinin şüuru, insan ağlı və əməli yaratmağa, qurmağa istiqamətlənməli olduğu halda, qonşu xalqın dinc həyatını məhv etməyə istiqamətlənmişdi. Allah İovu əzablara, xəstəliklərə düçar etməklə sınaqdan çıxardığı kimi, şeytan timsalında olan bir qrup adam isə ona dost kimi yanaşan xalqa xaincəsinə bəxş etdiyi iztirablarla kifayətləməyib, öz xalqını da dözülməz çətinliklərlə üzləşdirmək məqsədini güdmüşdü. Onlar bu fəlakətlərdən və faciələrdən sonra da öz təqsirlərini etiraf etməkdən uzaqdırlar, bunun əvəzində müxtəlif bəhanələrə əl atmaqla məsuliyyətdən qaçmağı da bacarırlar. Lazım gəlsə, onlar hətta milli qəhrəman qiyafəsinə bürünəcəklər.

Onların ilk sınaq meydanı Dağlıq Qarabağ, daha dəqiq deyilsə, muxtar vilayətin paytaxtı Stepanakert oldu. Ermənistanın və özünün qatı millətçilərinin təhriki ilə burada separatizm hərəkatı başlandı. Yəqin ki, bu xəstəlik latent dövrünü keçirdikdən sonra simptomlarını açıq büruzə verməyə başladı. Kül altında közərən od imkan düşən kimi gur yanmağı vacib saydı. Lap benqal odu şəklindəki kiçik bir qığılcım lazım idi ki, separatizm hərəkatına start versin. Belə qığılcım rolunu sovet iqtisadçı akademiki Abel Aqanbekyanın provokasiya xarakterli çıxışı oynadı. O, 1987-ci ildə Parisdəki bir təbirdə oradakı erməni diasporasını da sevindirmək üçün, Dağlıq Qarabağın Azərbaycandan ayrılıb, Ermənistana birləşməsinin mümkünlüyü sözlərini dilə gətirdi. Bu siqnal 1988-ci ilin fevralında Stepanakertdə «birləşmə» sözünün ermənicə tələffüzü kimi «miatsum» şüarı altında gedən mitinqlərin başlanmasına səbəb oldu. Əslində, akademik sovet qanunlarına hörmətsizlik edərək, bu ideyanı ortaya atmışdı. M.S.Qorbaçovun ölkəyə rəhbərlik etdiyi dövrdə qanunlara məhəl qoyulmaması heç də qəbahət sayılmırdı və separatizm sonralar Pribaltika respublikalarında və digər nisbətən sabit regionlarda da qanad açmağa başladı.

Bədnam siqnal öz işini gördü. Millətçilər barometrin havaların pisləşməsini göstərdiyini tutub, kütləvi hərəkata başlamağın vaxtının gəldiyini hiss etdilər, əsən küləyi sadəcə tufana çevirmək lazım idi. Vilayət paytaxtında keçirilən mitinqlər şəhərin normal həyatını iflic etmişdi, Moskva isə reaksiya vermək əvəzinə, Azərbaycan rəhbərliyini də tədbir görməkdən çəkindirirdi.

Liderlər zərərsizləşdirilsəydi, ictimai asayişi pozanlar cəzalandırılsaydı, mitinq hərəkatı az sonra sönə bilərdi. Qorbaçovun üstüörtülü dəstəyini hiss edən mitinqçilər başlarının üstündə onun portretini gəzdirirdilər, bu onların qanunsuz hərəkətlərinə də özlüyündə bir immunitet xidməti göstərirdi. Şəhəri əslində, hökumət orqanları deyil, qatı millətçilər idarə edirdi, onların nüfuzu rəhbərliyin səbatsızlığı nəticəsində xeyli yüksəlmişdi.

Vilayətin vəzifəli şəxsləri guya fiziki hücumlara məruz qalmaq qorxusundan, millətçilərin mövqeyinə keçir, bunu özlərini müdafiə xatirinə etdiklərini deyirdilər. Moskvanın amorf siyasəti isə separatçıları ilhamlandırır, onlara əlavə güc verirdi. Rəhbər işçilərdə bir süstlük, millətçilərdən qorxu əmələ gəlmişdi, vaxtilə qatı millətçilərə qarşı mübarizə aparan vilayət rəhbərliyi güc qarşısında ilbiz kimi qına çəkilmişdi.

Millətçilərin isə daha uzağa gedən planlarının konturları da özünü büruzə verirdi. Getdikcə aydın olurdu ki, mitinqlər yalnız daha təsirli əməliyyatlara keçmək üçün sadə bir prelyüdiya rolunu oynayır. Millətçilər ərazini Azərbaycandan ayırmaq üçün silahlı toqquşmalara keçməkdən də çəkinmirdilər, çünki məhz belə yol göstərilmişdi və onlar hər cür vasitədən istidadə etməklə, qarşılarına öz məqsədlərinə çatmaq vəzifəsini qoymuşdular.

1890-cı ildə Tiflisdə erməni millətçi partiyası olan «Daşnaksütyun» yaradıldı. Onun sənədlərində bir sıra demokratik prinsiplərlə yanaşı, silahlı dəstələrin təşkili, onların ideoloji və praktiki cəhətdən hazırlanması, xalqı silahlandırmaq, terror tətbiq etmək, adamların və silahların göndərilməsi üçün yollar və vasitələr tapmaq vəzifəsi qoyulmuşdu. Əslində, separatçıların da silahlı mübarizəyə keçmələri üçün proqram mövcud idi və ondan istifadə etməklə qonşu xalqa qarşı qanlı müharibəyə də başlamaq olardı.

Erməni millətçiləri heç də bu bədnam ideyaların ilk yaradıcıları deyildilər, onlar militarizm yoluna bələdçilik edənlərdən yaxşı dərs almışdılar. Otuz il əvvəl, 1862-ci ildə XIX əsr Prussiya və sonralar alman militarizminin banisi kansler Otto fon Bismark öz çıxışında qeyd etmişdi ki, «Almaniya heç də Prussiya liberalizminə deyil, onun gücünə baxır (əslində, «baxır» sözü «vurulmuşdur» mənasını verir – müəllif), görür ki, çıxışlar və səs çoxluğu günün böyük məsələlərini həll etməyəcəkdir; keçən illərdə bu, buraxılmış bir səhv idi, onları yalnız qan və dəmir həll edəcəkdir». Erməni millətçiləri də bu nəhəng siyasətçinin nəsihəti ilə qana və dəmirə keçmək məsləhətinə sadiqlik göstərirdilər.

Ona görə də mitinq bir start növü kimi yaxşı vasitə olsa da, məqsədə yaxınlaşmağa əsaslı kömək edə bilməzdi. Bu vasitə yalnız millətçilərin xalqın dəstəkləməsindən ötəri fon rolunu oynamaqdan uzağa getməməli idi. Sonrakı mərhələdə silaha əl atmaq, qan tökmək lazım idi ki, Azərbaycandan ərazi qoparmaq mümkün olsun. Mitinq yalnız hay-küy, sonrakı ciddi vəzifələrə pərdə çəkmək üçün lazım idi, məsələni kardinal qaydada həll edən isə silahdır, onu işə salmadan çoxdan nəzərdə tutulan şər amala çatmaq mümkün olmayacaqdı.

Artıq 1990-cı illərin əvvəllərindən erməni millətçiləri geniş miqyasda qan tökmək vəzifəsinin həllinə girişdilər. M.S.Qorbaçovun demokratiya maskası altında onlara rəvac verməsinə arxalanır, onu özlərinin hamisi hesab edirdilər.

SSRİ dağıldıqdan sonra isə Ermənistan ordusu ağır hərbi texnikanın müşayiəti ilə Azərbaycan ərazisinə müdaxilə etdi. Onlar bunun həyata keçirilməsinə ciddi hazırlaşmışdılar. Onlara qarşı vuruşan könüllü batalyonların müqaviməti zəif idi və düşmən silahlı qüvvələri çətinlik çəkmədən işğal vəzifəsini həll edə bildi. Ermənistan rəhbərliyi ərazilərimizi işğal etməklə, əslində, Azərbaycana qarşı heç bir əsası olmayan xəyanətə yol vermiş, cinayət işlətmişdi. Sonralar Ermənistanda hakimiyyətə gələn, Dağlıq Qarabağ klanının üzvləri işğalın möhkəmlənməsi ilə yanaşı, şəhər və kəndlərimizin xaraba qoyulması göstərişini vermişdilər.

Onların əlləri hələ Dağlıq Qarabağda olarkən azərbaycanlıların qanına batmış, onlar Xocalıdakı qətliamın təşkilatçıları olmuşdular. Azğınlaşaraq, vəhşiliklərini öz kitablarında hətta utanmadan «igidlik» kimi qələmə vermişdilər.

Onlar təkcə azərbaycanlılara qarşı deyil, öz doğma xalqlarına qarşı da düşmənçiliyə yol vermiş, ölkəni talamaqla məşğul olmuşdular. Ordunun gücünə arxalanaraq hakimiyyətə gəldikləri halda, silahlı qüvvələrə qarşı da xəyanətə yol vermiş, orduya ayrılan vəsaiti mənimsəmiş, işğalın davamını təmin edən əsgərlərin qidalanmasına sərf edilən ərzaq alınması üçün ayrılan pulu da oğurlamaqla, bu bədbəxt insanları yarıac yaşamağa məhkum etmişdilər. Orduda xidmət edənlərin alt paltarlarının çatışmaması kimi biabırçı bir hal da mövcud idi.

Dağlıq Qarabağda bu hadisələrə qədər həyat öz axarı ilə gedir, regionda sabitlik hökm sürürdü, nisbətən firavan yaşayan əhalinin öz güzəranından heç bir şikayəti yox idi. Erməni əhalisinin hüquqlarının hansısa bir şəkildə məhdudlaşdırılmasına yol verilməmiş, milli zəmində xırda bir ixtilaf da baş verməmişdi. Bütün respublikada olduğu kimi, vilayətdə də əmək qabiliyyətli əhali torpaqda və sənaye müəssisələrində işləyir, ailəsinin güzəranını təmin edirdi. Uşaqlar orta və ali məktəblərdə ana dillərində təhsil alırdı. Ermənilərə doğma dilindən istifadədə, mədəniyyətlərinə bağlılıqda heç bir məhdudiyyət qoyulmurdu. Lakin belə vəziyyət erməni qatı millətçilərini qane edə bilməzdi, Dağlıq Qarabağı Azərbaycan ərazisindən qoparmaq üçün xəyanətkar hərəkətlərə başladılar. Onlar başqa xalqlara, xüsusən qonşuluqda yaşayanlara izahı çətin olan şübhə ilə yanaşır, onların səmimi dostluğunda, mehriban qonşuluğunda hansısa bir düşmənçilik çaları tapmağa can atırdılar. Məşhur təmsildəki quzunu yemək qərarına gələn canavar kimi müxtəlif bəhanələr uydurur, mehribanlığa da düşmənçilik prizmasından baxırdılar.

Qədim yunan mifologiyasında göstərilirdi ki, kim Meduza Qorqonanın (yunanca gorgo «heybətli» demək idi) dəhşətli baxışına rast gəlsə, daşa çevrilməli idi. Onun saçlarında da əjdahalar gizlənirdi. Meduza insanlar üçün ağır cəza və qorxu rəmzinə çevrilmişdi, ondan xilas olmaq qeyri-mümkün hesab edilirdi. Lakin hər bir dəhşət mənbəyinə qarşı müvafiq bir güc də tapılır. Persey onu öldürmək üçün mis qalxana baxırdı ki, onun baxışına tuş gəlməsin. Bu qəhrəman onun başını kəsdi.

Erməni qatı millətçiləri də qonşu ölkəni öz xalqının gözündə düşmənə çevirməyə cəhd edirdi, gücləri çatsaydı elə Meduza kimi öz qonşularını bir andaca daşa da çevirərdilər. Uzun müddət onlar cəzasız qalıb, öz bəd əməllərindən əl çəkmirdilər, yaxın qonşusunu əzablara düçar etməkdən həzz alırdılar. Lakin müqəddəs yer boş qalmır, Perseyə bərabər qəhrəman da tapıldı. Azərbaycan ordusu müasir Meduza Qorqonaya tutarlı dərs verməyi bacardı. Əlbəttə, Ermənistan ordusu məğlub edilmişdir, lakin bu şər mənbəyinin başı kəsilməmişdir, ancaq skalpı soyulmuşdur. Dərisi soyulmuş baş öz funksiyasını yerinə yetirə biləcəkmi? Əgər onlar yenə də düşmənçilik minbərindən çıxış etsələr, müasir Persey bu dəfə mərhəmət göstərməyib, onun ətrafa nifrət yayan başını kəsəcəkdir.

Ermənistan ordusu və onun farvaterində gedən Dağlıq Qarabağın erməni millətçiləri Azərbaycanla müharibə aparıb, onun ərazilərini işğal etməklə özlərinin gələcəkdəki bədbəxtliklərinin ilk fazasının bünövrəsini qoydular, ona qədəm basdılar. Beləliklə, onlar ilk bədbəxtliklərinin baş tutmasına imza atdılar. Əvvəllərdə baş vermiş məğlubiyyət isə Azərbaycanın sonrakı rəhbərliyinin hərbi işə ciddi diqqət verməsini tələb edirdi və zamanın bu çağırışı eşidildi və ölkədə yeni, müasir tipli ordu yaradıldı.

Erməni millətçiləri Azərbaycan ərazisinə silahlı qaydada soxulmaqla qapıları birinci növbədə öz bədbəxtliklərinə açmışdılar və özlərinin uzağı görə bilməmələrini nümayiş etdirmişdilər. Onlar qarşılarındakı xalqa gücsüz kütlə kimi baxırdılar, bu xalqın mənəvi zənginliyini, sınaq anı gələndə fədakarlığını, Vətən yolunda özünü qurban verməyə hazır

olduğunu nəzərə almır, anlamırdılar. Öz qüvvələrilə qürrələnmələri, məğrurluqları onları kor etmişdi, şirin bir gün oyanacağını ağıllarına gətirmir, təsəvvür etmirdilər, bu isə onlara olduqca baha başa gəldi. Ermənistan Azərbaycan ərazisinə soxulmaqla, özünün yaratdığı bir kataklizmə düçar oldu. Bu onların sırasında ilkin sayıla bilərdi.

Dağlıq Qarabağda separatizmin tüğyan etdiyi ilin sonunda, 1988-ci ilin dekabrında Ermənistan həm də görünməmiş təbii kataklizmə məruz qaldı. Yüksək maqnitudada olan zəlzələ Spitak şəhərini qədim Romanın Pompeisi kimi yer üzündən sildi, Leninakan şəhəri də geniş miqyaslı dağıntıya məruz qaldı. On minlərlə insan həlak oldu. Azərbaycanın qonşu ölkəyə göndərdiyi inşaat materiallarından ibarət kömək qəbul edilmədi, geri qaytarıldı. Köməyə göndərilən ehtiyatda olan əsgərlərdən ibarət inşaatçılar dəstəsi Leninakan yaxınlığında təyyarə qəzasında həlak oldu. Ermənistana kömək göstərilməsi naminə günahsız azərbaycanlılar öz canlarını qurban verdilər. Zəlzələnin aradan qaldırılması üçün bütün respublikaların səylərini səfərbərliyə alan hökumət komissiyası yaradıldı və ona SSRİ Nazirlər Sovetinin sədri başçılıq etdi.

Ermənistan Dağlıq Qarabağda separatizmi qızışdırmaqla, azərbaycanlılardan həmin ərazini qoparmaq istəyirdi, lakin nəticə etibarilə onların özlərinə təbii fəlakət kimi bədbəxtlik də qismət oldu. Çünki insan əli ilə yaradılan ilk kataklizmi erməni millətçiləri özləri təşkil etmişdilər, on ay sonra təbiət də Ermənistanı bu qəbildən olan öz «hədiyyəsi» ilə mükafatlandırdı. Hələ daha iri kataklizmlər seriyası geridə idi, qatı millətçilər isə yaxınlaşan bu bədbəxtlikləri görə bilmədilər, gələcəyi qiymətləndirməkdə ağıl korluğuna tutulduqlarını göstərdilər.

Xaraba qoymaq «bahadırları»

Ermənistan ordusu təkcə Azərbaycan ərazilərini işğal etmədi, həm də bir az əvvəl çiçəklənən, bol məhsul verən bu torpaqları cansız səhraya çevirdilər.Şəhərlərdəki və kəndlərdəki evlər amansızcasına dağıdıldı və ya yandırıldı. Onların inşaat materiallarının yad ölkəyə satılmasından həm də xeyli pul qazandılar. Şəhərlərin və kəndlərin vandallardan miras qalmış xarabalıqları azad olunduqdan sonra, göz önündə hər şeyi görmüş tarixi də dəhşətə gətirə bilən bir mənzərə yarandı. Elə bil ki, buraya XX əsrin sonunun insanları deyil, qədim yəhudi mifologiyasındakı qoqlar və maqoqlar adlanan vəhşi xalqlar basqın etmişdi. Hər şey elə qaydada məhv edilmişdi ki, elə bil Yer üzündə həyatın sonu başlayırmış, dünya, bəşəriyyət «qiyamət günü» ərəfəsində imiş. Abovyan isə elə bil ki, ermənilər gələcəkdə təmizə çıxarmaq üçün ancaq asiyalıların xaraba qoymağı bacardıqlarını vurğulayırdı.

Ermənistan ordusu, qatı millətçiləri öz əmelləri ilə müqayisədə amerikanların dəhşətli filmlərindəki qorxulu mənzərələri də ötüb, keçmişdilər. Axı nə qədim dünyadakı vandallar, nə XX əsrdəki natsistlər bunlara azacıq da bənzər olanları törətməmişdilər. Heç Kambocadakı Pol Pot da əhalinin üçdə birini qırmasına, digər vəhşiliklərinə baxmayaraq, insan məskənlərinə belə divan tutmamışdı.

İşğalda iştirak edən, sonra da viran qoymaq vəzifəsini icra edən erməni əsgərlərindən və zabitlərindən həmin cinayətlər barədə soruşduqda, yəqin ki, deyəcəklər: “Heç nə bilmirik. Bizim xəbərimiz yoxdur”. Bəlkə də, bütün ermənilər bu təkrar edəcəklər. Elə təsəvvür yaranacaq ki, bunu erməni ordusu deyil, hansısa şeytanlar dəstəsi törətmişdir.

Onlar təkcə insan zəhmətinin və əlinin yaratdıqlarını məhv etməklə kifayətlənməyib, təbiətə də ağır zərbə vurmaqdan çəkinməmişdilər. İşğal etdikləri ərazilərdə təkcə meşələri qırmayıb, şəhərlərin parklarını, yaşıl zolağını, kəndləri isə bütünlüklə bəzəyən bağları, meyvə ağaclarını qırıb məhv etmişdilər. Qızmar isti vaxtı özlərinin də daldalanmaları üçün kölgə mənbəyi olan bir dendroloji bitki növünü də saxlamamışdılar. Şarl Monteskyenin yazdığına görə, Luizianadakı hindular meyvəni dərmək üçün ağacı kökündən kəsib yerə yıxırdılar. Erməni talançıları isə meyvə yığmaq üçün deyil, özlərindən miras qalacaq nişan kimi ərazini qum səhrasına çevirmək, düşmənçiliklərini daim xatırladan bir vəhşilik nümunəsinin mövcudluğu üçün bunu edirdilər.

Azərbaycanlıların əkin sahələrinə də imkanlarında olan ziyanı vurmaq üçün öz ərazilərindən keçən su mənbələrindən onların təchiz olunmasını dayandırır, minlərlə əkinçinin zəhmətinin zay olmasına nail olurdular. Separatizm dalğası başlayandan müxtəlif qurğuların köməyi ilə Arazdan ölkəmizə gələn suyu xeyli azaltmaqla, süni surətdə suvarma suyunun böyük qıtlığını yaratmışdılar. İşğaldan sonra isə Azərbaycan hidrotexniki inşaatlarının ağır zəhmətinin bəhrəsi olan Sərsəng su hövzəsindən suvarma mövsümü dövründə suyun buraxılmasını kəsir, yaz vaxtı isə Tərtər çayında məhvedici sel yaratmağa çalışırdılar. Ölkəmizin əkinçiliklə məşğul olan fermerlərinin il boyu çəkdikləri zəhmət suvama suyunun çatışmaması ucbatından zay olur, onlar məhsul götürə bilmirdilər. Heyvandarlığın da yem bazasının yaradılmasında ciddi çətinliklər yaranırdı.

Azərbaycanlılara ziyan vurmaq üçün hər cür vasitələrə əl atır, özlərinə məxsus ziyankar «innovasiyalar» tətbiq edirdilər. Azərbaycanlıların yaşayış məntəqələrinin yaxınlığındakı işğal edilmiş ərazilərdə biçənəkləri yandırırdılar ki, bu yanğın həmin əhalinin təsərrüfatlarına keçib, onları da məhv etsin.

Bu yolla onlar həm də torpaqlardakı mikroorqanizmləri, həşəratları da məhv edirdilər ki, özlərinin istifadə etmədikləri torpaqlar münbitliyini itirsin, yarasız hala düşsün. Bəzilərinə bu qeyd təəccüblü görünə bilər, lakin unutmaq olmaz ki, əkinə yararlı torpaq heç də süxur deyil, canlı orqanizmdir, bitkilərin meydana gəlməsi, yaşaması və bar verməsi üçün mühüm şərtdir. Torpaq yeganə vasitədir ki, bitki vasitəsilə qeyri-üzvi maddəni üzvi maddəyə çevirir, bitki isə həm də mal-qara üçün yem rolunu oynayır. Deməli, üzvi aləmin yaranmasında və dövranında torpağın rolu əvəz edilməzdir.

Əkinçi ilə yanaşı, torpağın münbitliyini təbiət özü də qoruyub saxlamağa çalışır. Ona görə də torpaq yeganə anadır ki, digər canlılardan fərqli olaraq nəsil artırmasını, yəni məhsul verməsini min illər boy davam etdirir. Torpağın münbitliyinə zərər vuranlar insan varlığına, bəşəriyyətin qida ilə təchizatına və xammal istehsalına ağır zərbə vurmuş olurlar. Münbitliyin qorunub saxlanmasında, itirilməsinə yol verilməməsində həşəratların da böyük rolu vardır. Təkcə qurdlar (soxulcanlar) torpağın münbitliyinin qorunub saxlanması üçün, davamlı şəkildə xidmət göstərməklə, mühüm rol oynayırlar. Böyük ingilis alimi Çarlz Darvin və digər bioloqlar qurdların torpağı yumşaltmaqda, onda bol qumus qatı əmələ gətirməsində, bitki təbəqəsi yaratmaqda fəal iştirakını nəzərə alaraq, onları «təbiətin əkinçisi» adlandırmış, yerdəki mühüm orqanizm hesab etmişdilər. Ermənilərin törətdikləri yanğınlar mikroorqanizmlərlə yanaşı, ömrü boyu yorulmaq bilmədən çalışan bu təbiət əkinçilərinə də aman vermir, onları məhv etməyi də öz qatillikləri hesabına yazırdı.

Meşələrin qırılması isə gələcəkdə daha böyük problemlərin yaranmasına səbəb olacaqdır. Meşədəki hətta kiçik bir talanın da yaranması, meşənin yağış və əriyən qar suyunun sisternası, rezervuarı kimi roluna böyük zərbə vurmaqla, çayların suyunun azalmasına gətirib çıxarır. Suvarma suyunun qıtlığı isə bitkiçilikdə məhsuldarlığın azalmasına, xeyli məhsul itkisinə səbəb

olmaqla, əkinçinin il boyu çəkdiyi zəhməti zaya çevirir. Vaxtilə Bencamin Franklin demişdi ki, «sərvətin mənbəyi torpaq və əməkdir». Ermənistan ordusu Azərbaycanın torpaqlarını və əkinçililərin əməyini belə bir günə qoymaqla, ona ağır zərbə vurduğunu güman edirdi, lakin anlamırdı ki, bu uzun müddət davam etsə də, onların məkrli əməllərinə nəhayət hökmən son qoyulacaq, bədbəxtliklərin daha böyük hissəsi məhz onun öz ölkəsinin və xalqının üzərinə düşəcəkdir.

Otuz ildən sonra qisas günü gəlib çatdı və Azərbaycan xalqı öz ölkəsinə və xalqına vurulmuş yaraların bütünlüklə sağalacağına da əmindir. Ermənistan isə daha ağır vəziyyətə düşmüşdür və bu dərin girdaba onu müzəffər ordumuz salmışdır.

Azərbaycan ordusu Ermənistanınkından fərqli olaraq düşmənin bir hektar da olsun torpağını işğal etməmişdir, lakin öz qələbəsi ilə onu elə çaşqınlığa, qarışıqlığa, iqtisadi geriliyə, siyasi narazılıq şəraitinə salmışdır ki, bu vəziyyətdən çıxmaq üçün ona, bəlkə, otuz ildən də artıq müddət lazım gələcəkdir. Ermənistanda yaşayan əhalinin bir hissəsi öz ölkəsini tərk edib, kənar dövlətlərdə dolanışıq axtarır. Getdikcə böyüyən depopulyasiya bu ölkəni hətta işğalla da müqayisə oluna bilməyən daha ağır duruma sala bilər. Erməni qatı millətçiləri əkdikləri, becərdikləri ağacların qoy bol zəhərli meyvəsini, sevdikləri ərik məhsulu kimi yığsınlar, yəqin ki, ağılları başlarına gələndə öz əməllərindən xəcalət çəkməli olacaqlar. Ona görə də Azərbaycan ordusunun qələbəsinin Ermənistana bol problemlər yaratması, müqayisə olunduqda daha böyük, daha ciddi fayda verən kimi görünür.

Azərbaycan xalqının qələbəsi bir də sübut etdi ki, qonşu xalqdan fərqli olaraq o, keçmişə matəm saxlamaqdan uzaqdır, özlüyündə feniks quşunu xatırladır, onu məhv etmək, külə döndərmək istəyənlərin iyrənc arzularının əleyhinə öz varlığını bütünlüklə və tam yeni keyfiyyətdə bərpa edə bilir, iqtisadi və hərbi qüdrəti də əvvəllər görünməmiş bir səviyyəyə yüksəlir.

Azərbaycan iqtisadiyyatı, onu zəiflətməyə yönələn cəhdlərə baxmayaraq, sürətli inkişafını davam etdirdi. İşğaldan eyforiya vəziyyəti yaşayan dövlət isə reqress uçurumuna yuvarlandı. Dilənçi kimdənsə ianə ala bilər, lakin o, heç vaxt öz libasını, daha dəqiq deyilsə, mənəviyyatını, ələbaxımlığını, ömür sürməyinin mahiyyətini dəyişə bilmir. Ermənistan ordusu köhnə, döyüş qabiliyyətini itirmiş silahları ənam kimi qəbul edə bilər, bu heç də onun hərbi qüdrətinin güclənməsinə kömək etməyəcəkdir. Cıdıra köhlən ərəb atının belində çıxan Azərbaycan ordusunun qarşısında Don Kixotdan miras qalmış Rosinant adlı axsaq yabı ilə çıxmaq isə qalibin və məğlubun kim olacağını əvvəlcədən xəbər verir. XXI əsrin silah növləri və texniki qurğuları ilə silahlanmış ordunun qarşısına, kimdənsə miras kimi götürülmüş köhnə silahlarla çıxan ordu yalnız miskinlik təsiri bağışlayır və onun məğlub olacağına da heç bir şübhə yeri qalmır. Əgər bir orduda xidmətə cavanlar böyük həvəslə gedirsə, digərində səfərbərlik zor tətbiq etməklə həyata keçirilirsə, burada qüvvələr nisbəti əvvəlcədən məlum olur. 27 sentyabrda başlanan müharibənin ilk anlarından ermənilərin ağır məğlubiyyətə uğrayacağı perspektivi aydın görünürdü. Hətta bəzi erməni siyasətçiləri deyirlər ki, döyüşlərin dördüncü günü bu onlara da məlum imiş və həmin vaxt Ermənistan rəhbərliyi bütün şərtlərlə razılaşıb, müharibənin qurtarmasına nail olmalı imiş. Lakin cəhənnəmə gedən yoldan heç kəs dönə bilmir və Ermənistan ordusu darmadağın olmaq ərəfəsində ölkə rəhbərliyi diz çöküb, sülh bağlanmasını yalvardı. Ordu generalları bu vaxta qədər siyasi rəhbərliyi aldatmaqda davam edirdi, vəziyyətin Ərafa gəlib çatdığını görüb, təslim olmağa razılıq verdilər, çünki irəlidə onları Cəhənnəm əzabları gözləyirdi. Onlar vahiməyə düşdüklərini də artıq gizlədə bilmirdilər. Qorxunun hakim kəsildiyi general isə diareyaya tutulmuş əsgərə bənzəyir, o, döyüşmək barədə deyil, özünü bulamamaq barədə düşünür və tez-tez gizli yer axtarır.

Ermənistan yeni bir bədbəxtliklə üzləşdi və gördü ki, məğlubiyyət təkcə döyüş səhnəsini deyil, həyatın bütün sahələrini əhatə edir. İqtisadi, sosial və ideoloji sahədə Azərbaycana bütünlüklə uduzur. Onun iqtisadiyyatı ağır durğunluq keçirir, əhalinin maddi vəziyyəti günü gündən pisləşir, on minlərlə əhali ölkəni və Dağlıq Qarabağı tərk edir. Daim arxalandığı millətçilik də artıq gur işıq saça bilmirdi, üfürülüb sönən nöyüt lampasının piltəsi təsirini bağışlayırdı. Belə ağır dövrdə millətçilərin daim mantra kimi səsləndirdikləri milli qeyrət, millətin adını yüksəltmək şüarları köməyə gəlmir, dınqıltılı nağara səsini andırırdı. Tarixə, qədimliyə müraciət də fayda vermirdi, ermənilərin çox sevdikləri və səhər yeməyinə çevirdikləri bu yarma sıyığı artıq həzm olunmadığından, onda biganəlik meydana çıxmışdı. Yenə də onlar növbəti uğursuzluqla üzləşmişdilər, elə bil ki, azərbaycanlıların qələbəsi onların özlərinə dayaq bildiyi millətçiliyə sitayiş məbədini də uçurmuş, ona ibadətin də gərəksiz olduğunu üzə çıxarmışdı. Təzə şərabı köhnə dəriyə tökmək də fayda vermirdi, axı çoxları bu şərabın da, bu dərinin də keyfiyyətinə bələd idi.

Ermənistan ordusu həm ona dəymiş ağır zərbənin təsirindən, həm də daxildə gedən qıcqırma prosesindən sağalmaz kimi görünən xəstəliyə düçar olmuşdur. Böyük miqdarda hərbi texnikasını itirmiş, yalnız «top əti» sayılan canlı qüvvənin ümidinə qalan hərbi dəstələr özünü necə ordu adlandıra bilər? Axı onun digər adı «silahlı qüvvələr»dir, əgər silah, mobil texnika yoxdursa, hansı hərbi qüvvədən söhbət gedə bilər. Ermənistan işğal siyasətindən yaranan və gücü çatmadığı ağırlığın haqıə qurbanına çevrildi.

Azərbaycan qazanılmış qələbəyə görə heç də arxayınçılıq mərəzinə tutulmur, əksinə, öz hərbi qüdrətini daha da artırmaq qayğısına qalır. Ölkədə müdafiə sənayesinin işinə də diqqət artırılmışdır, Türkiyə ilə bu sahədəki sıx əməkdaşlıq həmin sənayenin diversifikasiyasını, texnoloji inkişafını və buraxdığı məhsulların keyfiyyətinin yüksəldilməsini təmin edəcəkdir. Ordunun ən müasir silahlarla təmin edilməsi işi daha yüksək səviyyəyə qaldırılacaqdır.

Əgər Ermənistan revanşizm istəyinə boyun əysə, onun vəziyyəti daha da ağırlaşacaqdır. Hərbi sahədə Azərbaycan – Türkiyə əməkdaşlığı ordumuzun döyüş hazırlığının yüksəldilməsində yeni üfüqlər açacaqdır. Ermənistanın keçmiş hamilərinə olan ümidi isə məğlubiyyətin təsiri nəticəsində puç olmağa məhkumdur.

Ermənistanın dövlət təcrübəsi iri güclərdən biri tərəfə yıxılmaqla, digərində qısqanclıq, öz himayəsinə çəkmək hissi yaratmağa yönəlmişdir. İri güclərin qarşıdurmasından o öz rüsumunu götürməyə can atır. Bufer dövlət rolunu oynamaq, vəziyyətdən asılı olaraq bu və ya digər tərəfə yıxılmaq onun mövcudluq kredosudur, özünə daim arxa tapmağa çalışır, öz iyrənc mənafeyi naminə hətta şeytanla da ittifaqa girməyə hazırdır. Bu da bəzən fayda vermək əvəzinə ona ziyan vurur. Yuxarıya tüpürmək istəyi isə öz üzünün hədəfə çevrilməsinə səbəb olur.

Erməni millətçilərinin xəyali arzusu Ermənistanı iri dövlətə çevirməkdir, lakin bunun gerçəklik kimi üzə çıxması bütünlüklə qeyri-mümkündür. Sən nə fikirləşirsənsə, yuxuda nə görürsənsə, reallıq özünün amansız qanunauyğunluqları ilə bunu alt-üst edir. Bu sərsəm düşüncələr qədim insanların məruz qaldıqları Babil həngaməsini yada salır. Bibliyada göstərildiyi kimi, ilk dövrlərdə dünyanın bütün xalqları yalnız bir dilə malik idi və eyni sözlərdən istifadə edirdilər. Onlar Şərqlə maraqlanmağa başladılar, Babil düzünə gəlib çıxdılar və orada məskunlaşdılar. Bina tikmək üçün kərpic kəsməyi, onu gün altında qurutmağı qərara aldılar. İnşaat üçün kərpiclərə və onu birləşdirmək üçün lazım olan qətrana malik oldular. Öz qüvvələrinə çox arxalanaraq, göylərə çatan qülləsi olan bir şəhər tikmək istədilər ki, bu yolla özlərini tanıtsınlar və əmin olsunlar ki, bir daha yer üzünə dağılmayacaqlar. Zikkuratın tikintisinə başladılar.

Göyə çatan qüllə tikmək istəyi az qala Allahın yanına çatmağa girişmək təsiri bağışlayırdı. Ona görə də Sahib həmin şəhəri və qülləni görmək üçün aşağı endi və dedi: «İndi buradakıların hamısı bir xalqdır və onlar bir didə danışırlar. Bu, onların nə etmək istədiklərinin ancaq başlanğıcıdır. Tezliklə onlar istədikləri hər şeyi etməyə qadir olacaqlar. Gəlin biz aşağı düşək və onların dilini elə qarışdıraq ki, onlar bir-birlərini başa düşməsinlər».

Beləliklə, Babil adlanan şəhərin tikintisi dayandırıldı. Sahib bütün adamların dilini qarışdırdı və onları oradan bütün yer üzünə dağıtdı. Bu hadisə Bibliyadan irəli gələrək, Babil həngaməsi kimi tanınır.

Ermənilərə gəldikdə, onlar çoxdan dünyaya yayılmışlar. Lakin gücləri həddində olmayan çox iri planlar cızmaqla, nəticədə heç nə əldə edə bilmədikləri halda, onun əzabını çəkməli oldular. 44 günlük müharibədəki məğlubiyyət Azərbaycan barədə onların bədnam planlarını alt-üst etdi və diz çöküb yalvarmağa başladılar. Qələbə məğlub olan tərəfə ayıldıcı təsir göstərdi, Ermənistan özünə fəlakət gətirən planlardan əl çəkmək məcburiyyətində qaldı. Lakin kədər içində olsa da, sevinməlidir ki, sonrakı daha ağır faciələrə aparan istəklərindən geri çəkildi və düşmənçiliyinə son qoymaq yolunu seçməli oldu.

Babil sakinlərinin az qala Göyü qəsb etmək illüziyasına Allah özü son qoydusa, Ermənistanın xəyalpərvər istəklərinə daim Allaha sitayişi ilə seçilən azərbaycanlılar sədd çəkdi. Ermənistanın müharibə odu ilə oynayan xadimləri gerçəkliyin təsiri ilə letargik yuxudan oyanmalı oldu.Dərindən fikirşləşdikdə, onlar məhvedici xülyalardan uzaqlaşmalarına görə Azərbaycan ordusuna ən azı ürəklərində minnətdar olmalıdırlar. Məğlubiyyət istedadlı, zəhmətkeş alman xalqını Hitlerdən və onun sərsəm ideyalarından uzaqlaşdırdığı kimi, İkinci Qarabağ müharibəsi də erməni xalqına öz daxilindəki iyrənc düşmənlərinin kim olduğunu görüb, onları yaxşı tanımağa şərait yaratdı.

Ermənilərin qədimliyə vurğunluq xəstəliyi

Erməni millətçiləri öz xalqının guya unikallığını göstərmək, sübuta yetirmək üçün dəridən-qabıqdan çıxır, hər vasitəyə, xüsusən qeyri-elmi üsullara əl atmaqdan da çəkinmirlər. Ən əlverişli vasitə isə yalanlar, uydurmalardır. Erməni tarixçiləri, arxeoloqları mənsub olduqları milləti qədimiləşdirmək üçün bir-biriylə idman yarışına girirlər, istənilən olimpiyaçıya onlar bu sahədə dərs verə bilərlər. Orta əsrlərdə yaranan öz keçmişini şişirtmək meyli ənənəsi estafetini XX əsrin tarixçiləri də qəbul etmişlər. Bu xəstəlik elə bil ki, endemik xarakter daşıyır. Tarixçilər öz xalqını Hett və Assuriya imperiyalarının yaşıdlığına aparıb çıxarırlar. Mənşəcə erməni olan akademik İ.A.Orbeli Ermənistan ərazisində qədim Urartu dövlətinin mövcud olduğunu arxeoloji qazıntılar aparmaqla tapmışdı. Sonradan qədim urartulların protoerməni olmasını iddia etmək üçün elan olunmamış müsabiqə başlanmışdı. Bu yerdə L.N. Tolstoyun qiymətli bir ifadəsi yada düşür. Onu bir qədər dəyişərək demək istəyirsən ki, əgər ermənilər urartulların onlarln əcdadı olmasına çox can atırlarsa, qoy ilk əcdadları oln meymunlarla da öyünməyi yaddan çıxarmasınlar.

Öz xalqını sevmək, onun tarixini öyrənməyə həvəs heç də qəbahət deyildir. Lakin ciddi bir əsasa malik olmadan xalqın yaranmasını az qala tarixin başlanğıcına yaxınlaşdırmaq istəyi, təxəyyülün məhsulunu elm adına verməyə bənzəyir. Qədim xalqların heç biri bunu özlərinə üstünlük əlaməti kimi qələmə vermirlər. Misirlilər də, hindlilər, çinlilər, yunanlar da qədim tarixə malik olmalarını heç də özlərinin unikallığı, öyünmək mənbəyi kimi gözə soxmurlar, başa

düşürlər ki, bunu elmi faktlar təsdiq etmişdir. Elmi təsdiqdən məhrum olan tarix kimin qələmindən çıxmasından asılı olmayaraq uydurmadır, yalandır. Buna aludəçiliyin özü də təəssüf hissləri doğurmaya bilməz.

Bəzi tarixçilər, xüsusən bir neçə sözdən yapışıb qədim xalqlarla öz yaxınlığını, bu mümkün olmayanda, əlaqələrini uydurmaqla məşğul olurlar. Bu məsələdə oxşar adlardan istifadə xüsusi gəlir mənbəyinə çevrilir. Müasir hind-Avropa dillərində danışan millətlərdəki adlar əsasən qədim yunanlardan və ya Bibliyadan götürülmüşdür. Qədim Romada iyirmidən az ad var idi və kişi adlarının son hərfi dəyişilməklə qadın adlarına çevrilirdi. İslam dininə sitayiş edən xalqlarda adlar ərəb dilindən, əsasən, ərəb xilafətində işlədilənlərdən götürülmüşdür. Adın oxşarlığı və ya lap təkrarlığı ilə özünə qədim xalq adı vermək, toyuq oğrularının süfrəsini bəzəyən xörəklərə bənzəyir, axı onlar oğurluq quş ətindən hazırlanmışdır. Keçmiş tarixi şəxsiyyətin adı mənimsənildikdən sonra, onların fəaliyyətinin nəticələrini də öz millətinin adına qəsb etmək o qədər də çətin olmur.

Bəzi erməni yaradıcı ziyalıları ümumi ehtirasa qapılıb, ölçü hissinə məhəl qoymurlar, onlar üçün ən vacib məsələ xalqın tarixini qədimləşdirməkdə başqalarını geridə qoymaqla fərqlənməkdir. Şairə Silva Kaputikyan öz şeirində məşhur Assuriya çariçası Semiramidanın (Şammuramatın) gənc erməni oğlana vurulduğunu, ona yaxınlıq üçün hər vasitəyə əl atdığını təsvir edir. Əsas məqsəd odur ki, ermənilər qədim tarixin subyektinə çevrilməklə, bizim eradan əvvəl IX əsrə gedib çıxır. Yaxud, b.e.ə. 53-cü ildə məşhur Roma siyasətçisi, ilk triumviratın üzvü olan Mark Litsini Krass sərkərdə kimi ordusu ilə birlikdə Şərqi Suriyadakı Karrda Parfiya sərkərdəsi Surena tərəfindən məğlub edildi və Krassın özü həmin döyüşdə həlak oldu. Onun kəsilmiş başı qələbəni daha da şərəfləndirmək üçün teatr səhnəsində dığırlandırıldı. Erməni tarixçiləri mənşəcə pers olan Parfiya sərkərdəsinin erməni olduğunu yazır, həlak olmuş Roma sərkərdəsinin xatiəsinin təhqir səhnəsini də ermənilərin adına çıxırlar.

Ad yaxınlığına görə b.e.ə. 9-cu ildə Varın komandanlığı altındakı üç Roma legionunu Tevtoburq meşəsində məhv edən və german tayfası olan heruskların rəhbəri Arminini də, əslən İspaniyadan olan Roma imperatoru Trayanı da ənənəyə müvafiq olaraq çəkinmədən erməni adlandırmaq olar. Əsas məsələ təxəyyül qazanının iri olmasıdır, orada ən böyük uydurmanı da əritmək olar.

İngilis xalqı böyük tarixə malik olmaqla, dörd qitədə öz imperiyasını yaratmışdı. Lakin ingilis tarixçiləri etiraf edirlər ki, bizim eranın V–VI əsrində yaşamış, iftixar mənbəyi saydıqları kral Arturun dəqiq tarixi şəxsiyyət olduğunu təsdiq edə bilməmişlər, deməli, o, həmin əsrlərin qovuşmasında sakson müdaxiləçilərinə qarşı Britaniyanın mübarizəsinə başçılıq edən əfsanəvi qəhrəman olaraq qalır. Onlar onu da qeyd edirlər ki, kral Artura qədər romalıların minillik tarixi, onu bəzəyən hadisələri və dəqiq şəxsiyyətləri mövcud idi. Məgər bu etiraf ingilislərin bəşəriyyətin inkişafındakı rolunu azaldırmı? Əksinə, onların elmi müddəalarına böyük hörmət yaranır. Şimali Amerikada yaşayan çox saydakı hindu tayfaları istisna olmaqla, Kolumbun kəşfindən sonra bura avropalılar ayaq açdılar, ingilislərin ilk koloniyası 1607-ci ildə Virciniyada, digər mühüm koloniyası olan «Yeni Plimut» isə Massaçusetsdə yarandı, on milyonlarla amerikalı öz mənşəyini həmin sonuncu kolonistlərdən götürür. Mərkəzi və Cənubi Amerikadan fərqli olaraq Şimali Amerikada şəhərlər yox idi, hindu tayfaları köçəri həyat sürür, bizon sürüsünün arxasınca gedirdilər. Məgər indi fövqəldövlət olan ABŞ öz tarixini saxtalaşdıramalıdır ki, ona azacıq da olsa qədimilik versin. Milli portret retuşa məruz qalanda, həmin millətin tarixinə bütünlüklə şübhələr yaranır və faktiki olanlara da inam azalır.

Yaxud XIII əsrə qədər ərəb xilafətlərində elm, təhsil, mədəniyyət Avropa xalqlarından yüksək idi. Abbasilər xilafəti dövründə antik fəlsəfə əvvəlcə ərəb dilinə tərcümə edilmiş, sonra

isə X–XII əsrdə mövcud olan Kordoba xilafəti, sonra isə əmirliyi vasitəsilə başqa dillərə tərcümə edilməklə Avropa xalqlarına ötürülmüşdü. 1258-ci ildə monqollar Bağdadı işğal etdikdən sonra, burada elm tənəzzülə uğramış, Avropada isə universitetlərin yaranması ilə elm, təhsil gur inkişaf etməyə başlamışdı. XVII əsrdəki Elmi inqilab, XVIII əsrdəki Sənaye inqilabı Avropanı xeyli irəli çıxarmışdı. Bu tarixi həqiqətləri Avropa alimləri nəinki təkzib etmirlər, əksinə, yeri gəldikcə qeyd edir, vurğulayırlar.

Ermənistan terrorçuluğa başlamaqla hədələyir

Ermənistandan terrorçuluq hədələri eşidilməyə başlanır, buna təəccüblənmək lazım deyildir, XX əsrdə guya 1915-ci il genosidinin qisasını almaq üçün ermənilər türk diplomatlarına qarşı terrora başlamışdılar. Axırıncı hadisə 1982-ci ildə ABŞ-da baş vermiş, iki erməni Los-Ancelesdəki Türkiyənin baş konsulunu qətlə yetirmişdi. XX əsrin son onilliyindən isə Ermənistan Azərbaycana qarşı dövlət terrorçuluğunu həyata keçirmişdi. Dağlıq Qarabağda rus alayının köməyi ilə erməni millətçiləri 1992-ci ilin fevralında Xocalıda dinc əhalinin qətliamını icra etmiş, yüzlərlə insanı öldürmüş, qocalara, uşaqlara, qadınlara da aman verməmişdilər. Yəqin ki, qatillər bu cinayətlərinə görə cavab verməli olacaqlar, çünki qətl cinayətinin mürür–zaman müddəti yoxdur. Azərbaycana qarşı zooloji nifrəti olan bir erməni də, öz millətinin hansısa bir nümayəndəsinin azərbaycanlı tərəfindən öldürülməsi faktını göstərə bilməz, çünki uzun illər ərzində belə bir hadisə baş verməmişdir.

Erməni millətçiləri məğlubiyyət acısını yox etmək üçün hər şeyə, terrorçuluğa da əl ata bilərlər və onlar yaddan çıxarmamalıdırlar ki, buna görə ağır cavab almaqdan yayına bilməyəcəklər, Azərbaycanda yaşayan erməniləri girov vəziyyətinə sala bilərlər. Onlar daim qələbələri ilə qürrələnir, hər yerdə məğrur görkəm alır, düşməni öz torpaqlarından qovmaları ilə öyünürdülər. Lakin son müharibədəki məğlubiyyətdən sonra həmin təkəbbürdən, məğrurluqdan əsər-əlamət qalmadı. Ermənistan vətəndaşları itkin düşmüş övladlarına görə öz hökumətlərindən kömək gözləmədiklərindən, Azərbaycan Prezidenti İlham Əliyevə müraciət edir, yardım göstərməsi barədə ona yalvarırlar.

Erməni millətçilərinin bugünkü vəziyyəti qədim yunan mifologiyasındakı Niobanı yada salır. Kiçik Asiya çarı Tantalın qızı olan Nioba əri Fiva çarından yeddi oğul və yeddi qız doğmuşdu. Öz övladlarının çoxluğu ilə o, qürrələnir və cəmi iki uşağı olan ilahə Letoya gülürdü. Axırıncının övladları Apollon və Artemida analarını yolverilməz qaydada utandırdığına görə ondan qisas almaq istədilər, bu məqsədlə Niobanın bütün uşaqların oxla vurub öldürdülər. Dərdə dözə bilməyən ana daşa döndü və Zevs Niobanı qayaya çevirdi. Bu qayanın zirvəsindən göz yaşları axırdı. Beləliklə, Nioba obrazı təkəbbürün, həm də dözülməz əzablara düçar olmanın simvoluna çevrildi.

Parisin Bulon meşəsi parkında gözlərindən yaş axan mərmər qadın heykəli diqqəti cəlb edir, bu, Niobann heykəlidir. O, birdən-birə itirdiyi bütün övladlarına yas saxlayır, daim kəsilmək bilməyən göz yaşları axıdır.

Erməni millətçiləri də öz təkəbbürlüklərinə, alçaq məqsədlərinə görə, xalqının cavanlarını ədalətsiz müharibəyə, əslində, ölümə göndərdiklərinə görə xəcalət çəkməlidirlər. Onlar heç vaxt qurban gedənlərə görə göz yaşı axıtmayacaqlar, lakin həlak olanların analarının dözülməz hüznünün nişanəsi olan göz yaşları qurumayacaqdır və bu, həmin qatillər üçün ömürlük cəzaya

çevriləcəkdir. Onsuz da məğlubiyyət onların təkcə əməlləri üçün deyil, bədnam ideyaları üçün də layiqli cəza oldu.

Oxucu sual verə bilər ki, söhbət daim erməni qatı millətçilərindən gedir, bəs xalq hara baxırdı? Erməni xalqını bir məsələdə xüsusən ittiham etmək olar ki, o öz marginallarının təsiri altına asanlıqla düşür. Bütövlükdə isə ermənilərə münasibəti əclaflara qarşı olan hisslərlə qarışıq salmaq düzgün deyildir. Ermənistan ölkəsi ilə dövlətini də eyniləşdirmək ədalətsizlik olardı. Ölkənin gözəl təbiəti vardır. Ona vurulan əcnəbilər də az deyildir, Ermənistan dövlətinin siyasətini isə geosiyasi maraqlar kənara qoyulduqda, bəyənənlər, yəqin ki, çox azdır. Ona görə də tənqid hədəfini düzgün seçmək lazımdır, portretlər işlənəndə hamısını Maleviçin kvadratı kimi bir qara rənglə təsvir etmək düzgün olmazdı. Cinayətkarlar qrup şəklində olsalar da, bütün xalqın arxasında gizlənməyə çalışsalar da, onları fərqləndirməmək ciddi səhvə yol vermək olardı. Lakin bu o demək deyildir ki, erməniləri lap mələk hesab etmək olar. Əsla yox, çünki öz qatı millətçiləri onları aldadıb, səhv yola salır, çox asanlıqla azdırmağı bacarırlar. Bunu danmaq olmaz ki, Azərbaycanın işğal edilmiş ərazilərində yaşayış məntəqələrini xaraba qoymaqda ermənilər bir-birilə yarışır, öz şeytan əməllərindən həzz alırdılar. Bu mənzərəni isə yalnız kütləvi şizofreniya epidemiyası adlandırmaq olar.

Ermənistanın son yarım əsri

XX əsrin sonu, XXI əsrin əvvəlki iki onilliyi əksər xalqlar üçün inkişaf, evolyusiya dövrünə çevrilmiş, ayrı-ayrı ölkələr çiçəklənməkdə davam etmiş, bütün sahələrdə irəliləyişə nail olmuşdur. Ermənistan isə bu illərdə xərçəng kimi geriyə addımlamışdı. Qonşu ölkənin ərazilərini işğal etdikdən sonra militarizm yoluna keçmiş, digər iqtisadi və sosial vəzifələri bütünlüklə yaddan çıxarmışdı. Ölkədə elmin və mədəniyyətin tənəzzülü də baş vermişdir.

Ermənistan rəhbərliyi diqqətini xalqın ümdə vəzifələrindən yayındırmaqla, ağılsızcasına işğalın əbədi xarakter daşımasını guya təmin etmək xülyasına üstünlük vermişdi. Güman edirdi ki, Azərbaycana dəymiş zərbə, bir milyona qədər qaçqın və məcburi köçkün probleminin mövcudluğu onu bütünlüklə çaşdıracaq, sarsıdacaq, ölkə bu ağır yükə dözə bilməyəcəkdir və nəticədə süquta uğrayacaqdır. Onların bu ümidi Azərbaycan rəhbərliyinin sarsılmaz iradəsini təmsil edən qayaya çırpılıb, darmadağın oldu. Azərbaycan nəinki tənəzzül yoluna qədəm basmadı, süqut etmədi, əksinə, iqtisadiyyatını görünməmiş iti sürətlə inkişaf etdirdi. Ölkəyə güclü maliyyə axını daxil oldu, əhalinin rifahı xeyli yaxşılaşdı. Qaçqınlar və məcburi köçkünlər üçün qəsəbələr və abad şəhərciklər salındı, onlar vaqonlarda yaşamaqla birdəfəlik vidalaşdılar, əksəriyyət komfort yaşayış şəraitinə malik oldu.

Ermənistan Azərbaycanın 1990-cı illərdə aldığı zərbədən özünü bərpa edə bilməyəcəyini, sürünəcəyini, işğalçı düşməndən mərhəmət diləyəcəyini güman etdiyi halda, hər şey tərsinə oldu. Azərbaycan yıxılmadı, diz çökmədi, əksinə, qamətini daha qətiyyətlə düzəldib, bütünlüklə qisas almağa hazır olduğunu göstərdi. Bu, erməni hərbçilərinin dəfələrlə bəyan etdikləri boş sözlər olmayıb, real məhvedici qüvvənin mövcudluğundan xəbər verirdi. Bu qüvvə hərəkətə gətirildikdə qarşısına qoyulan vəzifələri uğurla yerinə yetirdi. Azərbaycan sürünmədi, düşməni sürünməyə, qaçmağa məcbur etdi, Mikelancelonun təsvir etdiyi nümunəvi igid bədəninə malik olan David kimi zərbəsi ilə özünü Qoliaf hesab edən düşməni yerə sərib, başını kəsməyə qadir olduğunu göstərdi.Tənəzzülə heç də torpaqları işğal edilən Azərbaycan deyil, işğalı ilə fərəhlənən və lovğalıqdan özünü itirən Ermənistan məruz qaldı.

Azərbaycan təkcə hərbi qələbə deyil, həm də diplomatik qələbə qazandı. Ermənistanın dünənki dostları ondan uzaqlaşdıqları halda, Azərbaycan dünya dövlətləri arasında özünə çox sayda dost, müttəfiq qazandı.

Azərbaycanın qələbəsi həm də Ermənistanda siyasi vəziyyətin xeyli gərginləşməsinə səbəb oldu. Məğlub ölkə siyasi bataqlığa çökdü, dərin siyasi böhrana məruz qaldı. Məğlubiyyət hesabına baş nazir Nikol Paşinyan əhalinin müəyyən hissəsini gözündən düşdü, etiraz mitinqlərində onu «xain» adlandırıb, istefaya getməsini tələb etdilər. Buna bəzi generallar və yüksək rütbəli zabitlər də qoşuldu. Müharibədən əvvəl isə o, keçmiş prezidentlər Robert Koçaryanı və Serj Sarqsyanı korrupsiyada ittiham edərək, ifşa etmişdi, onlar isə fürsətdən istifadə edib, baş qaldırmış, Paşinyanla mübarizədə, hərbi çevriliş də daxil olmaqla bütün vasitələri məqbul saydılar. Onlar hakimiyyətə Azərbaycana qarşı xəyanət dalğası üzərində gəlmişdilər; daim «məqsəd vasitələrə haqq qazandırır» prinsipinə üstünlük vermişdilər. İndi də onlar hakimiyyəti ələ keçirməyə can atır, hərbçiləri qiyama, dövlət çevrilişinə təhrik edirlər. Vəzifə Olimpinə çıxmaq üçün çox şeyi oda vermək, ölkəni anarxiyaya da sürükləmək olar.

Hakimiyyəti ələ keçirmək üçün demokratik prinsipləri kənara atmaq, güc tətbiq etmək vacibdir. Onlar xalqa yaşıl ot kimi baxırlar, bilirlər ki, külək hansı tərəfə əssə, ot da o tərəfə yıxılacaqdır. Xalqı da məhz güc idarə edir və bir ovuc narazı qalanları da əymək, sındırmaq çətin iş deyildir. Onlar üçün xalq təcrübə altında olan ada dovşanlarıdır, onun müqavimətini də asanlıqla qırmaq mümkündür. Nə qədər ki, onlar keçmiş əməllərinə görə cavab verməyib, məsuliyyətə cəlb edilməmişdirlərsə, iddialarına son qoymayacaqlar. Belə çıxır ki, «qozbeli yalnız qəbir düzlədir».

Ölkədəki siyasi qarışıqlıq, xaos meyilləri, mitinqlərin fasiləsiz davam etməsi ölkənin ağır vəziyyətini bir qədər də ağırlaşdırmışdır. İqtisadiyyat aqoniya vəziyyətindədir. Çox sayda problemlər üzə çıxmış, militarizmin Pandora qutusunun açılması ilə xalqa böyük dərdlər bəxş edən mərəzlər toplusu meydana gəlmişdir. Siyasi böhranın davam etməsi iqtisadiyyatın koma vəziyyətinə düşəcəyindən xəbər verir, bu isə dövlətçiliyin özü üçün böyük təhlükədir.

Təəssüf ki, hər iki tərəfi ölkənin, xalqın vəziyyəti deyil, yalnız ali vəzifə kürsüsü və onun bəhrələri maraqlandırır. Müxalifət dövlət çevrilişinə əl atsa, bunu guya Azərbaycanın Ermənistanı işğal etmək təhlükəsi ilə izah etməyə çalışacaqdır. Onlar öz uğurları üçün hər cür böhtan və iftiralara hazırdırlar. Onsuz da ölkədə xalq iki hissəyə bölünmüşdür, dövlət xeyli zəifləmişdir, belə bir dövlətin süqutu üçün hansısa bir xarici həmləyə də ehtiyac olmayacaqdır.

Qatı millətçilər yenə dividend sorağında

Hər iki tərəf – həm müxalifət, həm də hakimiyyət məğlubiyyətin səbəblərini araşdırıb, xalqa düzgün izahat vermək əvəzinə, yorğanı öz üstünə çəkmək qayğısına qalır, milli biabırçılığın bulanıq suyunda balıq tutmaq istəyir. Müxalifət hakimiyyəti günahlandırdığı kimi, hakimiyyət də uzun illər ərzində ordunun ağır vəziyyətə salmış öz sələflərini ittiham edir. Paradoks orasındadır ki, ordunun yüksək rütbəli zabitləri döyüş səhnəsində biabır olduqları halda, məğlubiyyətin baiskarı qismində baş naziri ittiham edirlər, qanunu pozaraq birbaşa siyasətə qarışırlar.

Dövlət çevrilişi baş versə, hərbi xunta rejimi keçmiş prezidentlər üçün daha əlverişli olacaqdır. Tərəflər arasında mübarizə daha da kəskinləşir. Üfüqdə isə üçüncü qüvvənin meydana gəlməsi əlamətləri görünmür. Cek Londonun «Həyat eşqi» hekayəsindəki aclıqdan hər ikisi

taqətdən düşmüş və bir-birini boğmağa, öldürməyə çalışan adamla canavarın mübarizəsi yada düşür. Hər ikisi digərinin ölümündə özünün xilasını görür.

Qarşıda isə Ermənistanı çox ağır bir problem gözləyir. Vurduğu nəhəng məbləğdəki ziyanı təzminat şəklində Azərbaycana ödəməlidir. Viran qoyulmuş şəhərlər və kəndlər nəzərə alındıqda təzminat yüz milyardlarla dollar təşkil edəcəkdir. Bəziləri belə fikir yürüdür ki, Ermənistan bunu ödəyə bilməyəcəkdir və bu vaxt Versal müqaviləsinə görə, I Dünya müharibəsində məğlub olmuş Almaniyaya təzminat iddiası yada salınır. Onu da qeyd edirlər ki, bu, Almaniyada revanş dalğası yaratdı və Hitler hakimiyyətə gəldi. Həqiqətən də, almanlar nəhəng məbləği özləri üçün təhqir hesab edirdilər. Lakin Hitleri hakimiyyətə daha çox dünya böhranı gətirdi, bu olmasaydı, o, kiçik siyasi fiqurdan başqa bir şey olmazdı. Digər tərəfdən əgər Ermənistan nəqd şəkildə təzminatı ödəyə bilmirsə, başqa əvəzedici vasitələr axtarıb tapmalıdır. Bu, torpaq güzəşti, vaxtilə Azərbaycanın Ermənistana verdiyi Zəngəzur (ermənilər onu Syunik adlandırırlar) ərazisinin öz həqiqi sahibinə qaytarılması ola bilər. Ona təzminat barədə güzəştə getmək, ağır cinayətə yol vermiş adama bəraət elan etməyə bərabər olardı.

Ermənistanda revanşistlər asanlıqla kiçik hitlerciklər qiyafəsində çıxış edə bilərlər, ona görə də bu səbəbi şişirtməyə ehtiyac yoxdur. Kim hakimiyyətə gəlsə, millətçilik mövqeyindən uzaqlaşa bilməyəcəkdir və müharibədəki məğlubiyyəti təftiş etmək yolunu seçməklə öz uğursuzluqlarına haqq qazandırmağa çalışacaqdır. Hətta bütün variantlar nəzərə alındıqda belə, Azərbaycan təzminat məsələsində güzəştə getməməlidir, axı millət bu tələbin reallaşması üçün öz qanını tökmüşdür. Təzminat, işğal və onun dövründəki vəhşilikləri cəzalandırmağa xidmət etdiyinə görə, Ermənistan rəhbərliyinin ağlamasına, mərhəmətə nail olmaq üçün uydurduqlarına fikir verilməməlidir. Xaraba qalmış yaşayış məntəqələrinin bərpası nəhəng pul məbləği tələb edəcəkdir. Onların xeyli hissəsini təqsirkar Ermənistan ödəməlidir. Bu həm də onlar üçün tövbə rolunu oynamalıdır. Hər şeyə görə haqq vermək tələb olunursa, işğalın nəticələri böyük olduğu kimi onun kompensasiyası da çox iri rəqəmlərdə ifadə olunmalıdır.

Alaq otu kökündən çıxarılmalıdır

Ermənistan qarşısında təzminatı ödəməklə yanaşı, ikinci mühüm problem özünün qatı millətçilərinin fəaliyyətinə, bəlkə də, varlığına birdəfəlik son qoymasıdır. Burada söhbət fiziki deyil, ideya varlığının məhv edilməsindən gedir. Alman xalqı özündə iradə tapıb, natsizmi məhkum etməklə, ondan uzaqlaşmaq yolunu tutdu. Bu sahədə Nyurenberq tribunalının hökmləri və qərarları da mühüm rol oynadı.

Natsistlər öz məqsədlərinə çatmaq üçün ari irqinin çox yüksək olması ideyasını xalqın şüuruna yeridirdi, ona görə də yəhudilərin təqib edilməsində onların qonşuları və iş yoldaşları olan sıravi almanlar da fəal iştirak etmişdilər. Erməni millətçiləri də guya öz xalqına xidmət adı altında, onu şovinizm ideyaları ilə silahlandırır, bu yolla yeni bəlalara salırdı. Qatı millətçiliyin mahiyyətinə nəzər saldıqda, görürük ki, bu bədnam ideologiya əhali arasında fanatizm yayır, bu isə, insanlardan ötəri, quduzluğun itlər üçün olduğu kimi, çox təhlükəlidir. Fanatizmin yaratdığı quduzluğa son qoymaq üçün onun mənbəyini – qatı millətçiliyi ləğv etmək lazımdır. Çünki milyonlarla adam bu dəhşətli epidemiyaya yoluxur, onun sədaqətli əsgərlərinə çevrilirlər. Belələrinə insansevərlik, humanizm hissləri bütünlüklə yaddır, onlar yalnız barbarlıqlarını həyata keçirmək imkanlarını itirə bilərlər.

Erməni xalqının qüsuru məhz ondan ibarətdir ki, əclaflara asanlıqla boyun əyir, özünün marionet kimi istifadə edilməsinə etiraz etmək əvəzinə buna dözür, özündə bu xəstəliyə qarşı immunitet yaratmaq əvəzinə, ona yoluxmaqdan qaçmağa səy göstərmir və bunun da nəticəsində faciələrin qurbanı olur. Bu xalq heç olmasa axırıncı ağır sınaqdan sonra millətçilik ideyası ilə birdəfəlik vidalaşmalıdır, bunu edə bilməsə, özünün növbəti fəlakətlərinin də şahidi olacaqdır.

Erməni millətçiləri etiraf etməsələr də, Hitleri təqlid etməyi sevirlər. Hitler isə özlərinin barbar adlandırılması ilə də fəxr etdiklərini deyirdi. Bəlkə ermənilər də fəaliyyətlərinin oxşarlığına görə özlərinin barbar adlandırılmasından heç də inciməzdilər.

Bu xalq xaricdə, birinci növbədə qonşularında özünə düşmən axtarmasına son qoymalı, öz daxilindəki ifritləri aşkara çıxarıb, zərərsizləşdirməlidir. Bağırsaq qurdu, qlist insan bədənində parazitlik edən kimi qatı millətçilər də xalq orqanizmində, xalqın içərisində yaşamaqla, vampir kimi onun qanını sorur. Qatı millətçiliyin hansısa xalqa xeyir verdiyini göstərən bir şəhadət mövcud deyildir, ona görə də onu beşikdəcə boğmaq lazımdır. Qlistlər vaxtında məhv edilmədikdə, orqanizmə ağır ziyan vurmaqda davam edir. Qatı millətçilər də onlara bənzəyirlər, onu sotsiumun bədənindən qovub çıxarmaq lazımdır. Elə şərait yaradılmalıdır ki, əhali onların nüfuzdan tam düşmələrini əyani qaydada hiss etsin, onlar bir daha adamların şüuruna hücum etməyə cəsarət etməsinlər.

Xalq öz marginallarının uydurduqları yalanlarda yaşamağa son qoymalıdır, birdəfəlik anlamalıdır ki, istənilən həqiqət nə qədər acı olsa da, həmişə faydalı olur. Marginallar daim xalq adından danışır, lakin onun iradəsinə məhəl də qoymurlar. Xalqa isə yalnız bir hüququ – onlara ləbbeyk demək hüququnu ötürürlər. Beləliklə, xalq, antik yunan teatrında olan kimi böyük xora çevrilir. Lakin erməni xalqı yaddan çıxarmamalıdır ki, onun gözü qarşısında Ermənistan rəhbərliyi 30 ildən çox bir müddətdə istər öz ölkələrində yaşayan, istərsə də işğal edilmiş ərazilərdəki azərbaycanlılara qarşı əsl etnofaşizm siyasəti həyata keçirmişdi. Təəssüf ki, erməni xalqı da bu iyrənc düşmənçiliyin bilavasitə iştirakçılarına çevrilmişdi.

Qatı millətçiliyi xalqın içərisində görünən qorxulu alaq otu hesab etmək olar, belələri karantin bitkiləri hesab olunur. Ambroziya adlanan alaq otunun üç növü insanlarda xəstəlik yaratdığına görə ona qarşı SSRİ-də karantin qoyulmuşdu, harada rast gəlinirdisə, orada da məhv edilirdi. Qatı millətçilik,əslində, irqçiliyin başlanğıc fazası sayılmalıdır və ona qarşı mübarizə aparılmasa, çoxlu fəsadlara gətirib çıxara bilər. Alman nasizminə qarşı dünyada ümumi mübarizə aparılmadığından həmin ölkədəki irqçilik yəhudilərin, qismən də slvayanların və qaraçıların genosidi, məhv edilməsi ilə nəticələndi. Almaniyanın həm öz ərazisində, həm də işğal etdiyi ölkələrdə həyata keçirdiyi holokost 6 milyon yəhudinin məhv edilməsinə səbəb oldu.

Bəşəriyyət insanlığa qarşı olan bu cinayətdən yalnız II Dünya müharibəsindən sonra nəticə çıxardı. XX əsrin son onilliklərində Cənubi Afrika Respublikasında azlıq təşkil edən ağdərili əhalinin çoxluğu təşkil edən qaradərililərə– zəncilərə qarşı iyrənc irqçiliyin nümayişi olan aparteidə artıq dünya dözmədi və həmin ölkəyə qarşı boykot tədbirləri, ciddi sanksiyalar həyata keçirildi. Beynəlxalq təzyiqlər öz işini gördü, 1991-ci ildə CAR prezidemti Frederik de Klerk vəziyyətin çıxılmaz olduğunu görüb, seqreqasiya qanunlarını ləğv etdi. 1993-cü ilin sonunda parlament aparteidə son qoyan yeni konstitusiya qəbul etdi. 1994-cü ilin aprelində ağ və qara vətəndaşların iştirak etdiyi parlament seçkilərində Afrika Milli Konqressi (ANK) 63 faiz səs çoxluğu ilə qalib gəldi. 9 mayda yeni parlament ilk dəfə olaraq Cənubi Afrika qaralarından ANK lideri Nelson Mandelanı prezident seçdi. Öz mübarizəsinə görə o, 27 il dustaqlıqda olmuşdu. Aparteid siyasətinə nəhayət bütünlüklə son qoyuldu.

Təəssüf ki, bu proses böyük fayda verməsi ilə yanaşı, qaraların heç də az təhlükəli olmayan irqçiliyinin meydana gəlməsinə şərait yaratdı. Qaralar sivilizasiya cəhətdən

ağdərililərdən, yerli bur mənşəlilərdən və ingilis əhalisindən geridə qalırdı və öz gerilik nümunəsi olan adətlərindən əl çəkmirdilər. Ağdərili əhalinin bir hissəsi ölkəni tərk etməli oldu, digərləri şəhərin mərkəzlərindən uzaqlaşıb kənarlarında yaşamağa başladı. Zəncilər şəhərləri antisanitariya vəziyyətinə salıb, qismən cinayət məkanlarına çevirdilər.

Dünyada irqçiliyə qarşı mübarizə isə əslində, xeyli uğur qazandı, ayrı-ayrı ölkələrdə bu müstəvidə hələ də baş verən hadisələr həmin bəlanın dərin kök saldığını göstərir. Ona görə də irqçiliyi, qatı millətçiliyi məhv etmək üçün onu alaq otu kimi kökündən çıxarmaq lazımdır. Ciddi karantin tədbirləri görülməlidir ki, onun yenidən cücərməsi bir daha baş verməsin.

Ermənistandakı qatı millətçiliyi birbaşa irqçiliyin təzahürü kimi qiymətləndirmək olar. Bu ölkədə yaşayan azərbaycanlı əhalinin kütləvi şəkildə öz ata-baba yurdlarından çıxarılması əvvəldən müxtəlif bəhanələr altında baş vermişdi. 1948–1950-ci illərdə guya vətənə dönən erməni repatriantlarını məskunlaşdırmaq üçün boş ərazi lazım imiş, bu məqsəd üçün azərbaycanlıların yaşadıqları yerlər seçilmişdi. Azərbaycanlı ailələrin mal-qara vaqonlarında yola salınması 1944-cü ildə Qafqazdakı və Krımdakı əsasən müsəlman əhalinin öz yaşayış yerlərindən Qazaxıstana, Sibirə, Özbəkistana deportasiya edilməsinə bənzəyirdi.Azərbaycanda da onların yaşaması üçün mənzillər olmadığından, yerli əhalinin evlərində yerləşməli oldular.

1988-ci ilin sonunda isə Ermənistandakı azərbaycanlıların öz yaşadıqları yerlərdən qovulması başlandı, bu iyrənc tədbir bir qədər əvvəl Dağlıq Qarabağda da həyata keçirilmişdi. Ermənistanı tərk etməyə məcbur edilənlər qış vaxtı, şaxtalı, qarlı havada dağları aşaraq Azərbaycana pənah gətirmişdilər. Ermənistan çox az sayda yezidi kürdlər və malakan rusları istisna olmaqla, yalnız titul millətin məkanı olmaqla, ölkə monomilli növ dövlət xarakteri qəbul etmişdi. Nə bizim eradan əvvəlki V əsrin Afinasında, nə XVI əsrin İstanbulunda buna bənzər hal olmamışdı, həmin şəhərlərdə və əslində, dini münaqişələrin baş vermədiyi əksər yaşayış məntəqələrində çox müxtəlif sayda olan xalqların nümayəndələri dinc qonşuluqda, mehriban şəraitdə yaşayırdılar, hansısa xalqa mənsubluğa görə heç kəsə qarşı ayrı-seçkiliyə yol verilmirdi, müəyyən məhdudiyyətlər tətbiq etməklə münasibətlər nizamlanırdı. Milli zəmində hansısa bir ixtilaf baş vermirdi.

Ermənistanda isə başqa xalqlara mənsub olanların ölkə ərazisindən,əslində, onların tarixi kiçik vətənlərindən qovulması əgər sırf irqçilik nümunəsi deyilsə, onu necə adlandırmaq olar? Bu iyrənc irqçiliyin davamı kimi Ermənistan ordusu Azərbaycan ərazisinə müdaxilə edib, yerli əhalini qırmaq təhlükəsi altında yaşayış yerlərindən çıxarmaqla, geniş əraziləri işğal etmişdi.

Təssüf ki, dünya dövlətləri, beynəlxalq aləm Ermənistan rəhbərliyindən bu cinayətlərinə görə məsuliyyət tələb etməyərək, anlaşılmayan süstlük, laqeydlik göstərdi. Boş bəyanatlar heç bir əməli tədbirlərlə müşayiət olunmadığından havanı titrətməkdən başqa bir şey deyildi. Vaxtilə CAR-a tətbiq olunan boykot tədbirlərinin hətta kiçik bir hissəsi Ermənistana qarşı işə salınsaydı, onu kirpi kimi qınına çəkilməyə məcbur edərdi. Təəssüf ki, bunlar baş vermədi və Azərbaycan «Qordi düyününü» öz qılıncı ilə kəsməli oldu.

Ermənistanın özünə isə hərbi məğlubiyyəti ağır zərbə vurmuşdur, lakin bu zərbənin qatı millətçilərə də dəyməsi, onları nakaut vəziyyətinə salması hələ sual altındadır. Təəssüf ki, ölkədə qatı millətçilər qalır və onlar əhalinin müxtəlif dairələrinə təsir göstərə bilirlər. Xaricdəki erməni diasporaları da millətçiliyi qızışdırmaq sahəsindəki ziyankar fəaliyyətlərindən əl çəkmirlər. Nə qədər ki, Ermənistanın siyasi rəhbərliyinə bu məsələdə ciddi təzyiq göstərilməyib, ölkədə vəziyyətin sağlamlaşması prosesinin gedəcəyinə ümid azdır. Təhlükəli qüvvə qaldıqca ondan hər cür bəd əməlləri gözləmək olar. Dünya dövlətləri Ermənistanın hərbi qüdrətinin bərpasına nəinki kömək göstərməməli, əksinə, hər cür vasitələrlə ona mane olmalıdır. Ölkədə militarizmin bərpası regionda sülhün yenidən pozulmasına yol aça bilər.

Vəziyyət dəyişdiyinə görə mimikriyaya uyğun olaraq erməni marginalları da azərbaycanlılara və türklərə qarşı yeni iyrənc böhtanlar və iftiralar uyduracaqlar. Onlar üçün provokasiya ən kəsərli silahdır. Onlardan bəzisi qəzəbini boğa bilməyəndə, karıxıb doğma dildə danışmaqdan it dilinə keçir, hürməyə başlayır. Bəziləri isə çoxları onları eşitsin deyə, at kimi kişnəməyə keçir. Azərbaycanı hədələyənlər arasında isə ağızlarından köpük daşanlar da az deyildir.

Alaq otu qalırsa, o, hökmən ətrafa yayılacaq, millət içərisində gur çiçəklənməyə meyl edəcəkdir. Ona görə də alaq otu kökündən çıxarılmalıdır. Beynəlxalq təzyiqin təsiri ilə bunu Ermənistan hökumətinin özü etməlidir, ən azı onlara qarşı karantin tədbirləri həyata keçirməlidir.

Assuriya çarı Sardanapalın ordusunu düşmən qoşunları mühasirəyə almışdı və onun məhv edilməsi qısa müddətdə baş verməli idi. Süquta uğradığı bir vaxtda çarın sağ qalacağına ümidi yox idi. Sardanapal əmr etdi ki, hərəmxanasındakı gözəl qızlar və özünün seçmə tərifli atları da onunla bir yerdə ölümə getsinlər ki, başqalarına qismət olmasınlar. Çarın gözləri qarşısında mühafizəçisi xəncər zərbəsi ilə gənc qızlar olan hərəmləri öldürürdü. Çar uca yerdə uzanıb, bu mənzərəyə tamaşa etməklə, həm də öz yaxınlaşan sonluğunu gözləyirdi. Ətrafda öldürülmüş atların cəsədi və həyat nişanəsi olmayan gənc qızların bədənləri sərilmişdi. Cangüdən növbəti bir çılpaq qızın kürəyinə xəncəri soxduqda, çar da bundan azacıq da olsa təsəlli tapırdı ki, hərəmləri ondan sonra başqasına xidmət edə bilməyəcəkdir. Öz yaxınlaşan ölümü fikrindən uzaqlaşmaq üçün bu qəssabxana dəhşətlərinə maraqla tamaşa edirdi, anlayırdı ki, özünün də son nəfəsini çəkməsinə az qalmışdır. Bunlar türkürpədici səhnələrlə böyük ingilis şairi Corc Qordon Bayronun “Sardanapalın ölümü” poemasında realistik üslubda təsvir edilmişdir.

Böyük fransız rəssamı, bizə əsasən “Azadlıq xalqa başçılq edir” məşhur əsəri ilə tanış olan Ejen Delakrua özünün «Sardananalın ölümü» tablosunda Bayron qələmindən geri qalmayan qaydada bu faciəli dramı olduqca canlı təsvir etmişdir. Çarın qəzəbi, amansızlığı, hətta yaxınlarına qarşı quduz münasibəti həyatının son anlarında da onu tərk etməmişdi, ölüm anında da günahsız cavan qızların, qaçışdan başqa heç nəyi bacarmayan fağır heyvanların da məhvinə fərman verir. Qatı millətçilər də öz xalqına qarşı öz iyrənc ideyaları naminə hər cür qəddarlığa hazırdırlar. Yeni cinayətlər törətmək üçün onlara imkan verilməməlidir. Xalqın mövcudluğunun davam etməsi naminə onları Sardanapalın, hərəmlərinin və atlarının acı taleyi gözləməlidir.

Erməni xalqı da öz daxilində olan qatı millətçilərinin ona vurduğu yaraların təkrar olunmaması üçün, çar Sardanapalın təcrübəsindən, özünü xilas qaydasında, tam oxşar şəkildə olmasa da, məqbul sayılmalı olan bir formada istifadə etməlidir. Onları fiziki cəhətdən deyil, mənəvi cəhətdən sıradan çıxarmağı bacarmalıdır. Xalq bunu öz varlığını qorumaq xatirinə etməlidir. Bu baş verməsə, onlar öz xalqının düşmənlərinin sayını daha da artıracaqlar, çünki başqa bir peşələri də yoxdur. Onlar peyin böcəyi kimi adət etdiklərindən uzaqlaşmayacaqlar. Qoy erməni xalqı hərtərəfli düşünüb, öz problemini özü həll etsin, onları tərksilah etməyə hökmən nail olsun. Buna gücü və iradəsi çatmasa, əlavə faciələrlə üzləşməyə hazırlaşmalıdır, bunu isə ona, yəqin ki, heç kəs arzu etmir.

25. 03. 2021

525-ci qəzet

Ermənilərin ürəyinə çəkilən qənimətlər dağı

Azərbaycan ordusunun Ermənistanın işğalçı qüvvələrinə qarşı 2020-ci ilin 44 günündə apardığı müharibə böyük qələbə ilə nəticələndi, özünün məğlubedilməzlik illüziyası ilə öyünən və orta əsrlər ordasını yada salan bu hərbi qüvvə tarmar edildi, işğal etdiyi bütün ərazilərdən qovuldu. Hərbdə məğlubiyyət qalibin düşməni alçaltmasının ən ali əlamətidir. Sonradan ona vurulan zərbənin xatırladılması heç də insan ləyaqətinin tapdanması olmayıb, sadəcə düşmənə edilən xəbərdarlıqdır ki, bir də ağılsız ideyalara, özünü məhvə aparan iştəklərə həvəs göstərməsin.Vəziyyəti yenə də düzgün qiymətləndirməyi bacarmasa, özünə daha dərin fəlakət quyusu qazacaqdır. Həm də qalib xalqa isə onun oğullarının fədakarlığını, döyüşlərdəki igidliklərinin əyani nəticəsini nümayiş etdirmək,yəqin ki, şərəfli bir iş sayılmalıdır.

Bu günlərdə Bakıda Hərbi Qənimətlər Parkının açılması təkcə Azərbaycan xalqına deyil, bütün türk dünyasına qazanılmış qələbənin əhəmiyyətini göstərməklə yanaşı, onu reallığa çevirənlərin gələcəkdə ən uca yerdə möhtəşəm abidəsinin qoyulacağına yönəldilmiş ilk addım sayılmalıdır. Qələbə bu günün işi, mərd vətəndaşlarımızın gerçəkliyə bəxş etdikləri töhfə xarakteri daşımaqla, həm də gələcək nəsilləri də düşmənə qarşı ayıq dayanmağa və onun istənilən təhlükə yaratmaq həvəsinə tutarlı cavab verməyə hazır olmağa səsləyir. Xalqın öz ordusunun çaldığı qələbə ilə, uzun illər ərzində həsrətlə gözlədiyinin baş tutması ilə öyünməyə, sevinc hissləri keçirməyə tam haqqı vardır. Heç kəs qalibə bayram etməyi qəbahət saymadığı kimi, məğlub olan tərəfə də ağı deməyi, matəm saxlamağı qadağan etmir.

Ordumuz hərbi qüdrəti hesabına haqq bir işi gördü, işğalçı düşməni öz torpaqlarından qovdu, dövlətinin ərazi bütövlüyünü bərpa etdi. Uzun illər ərzində bizə hüznümüzü bölüşdürmək, dərdimizə şərik olmaq ifadələri ilə yanaşı, həm də səbirli olmaq, məsələni yalnız dinc yola həll etmək barədə çağırışlar eşidilirdi, bu nəsihətlər işğalı əbədiləşdirmək cəhdi olmasa da, ən azı orta insan ömrü qədər uzatmağa nail olmaq istəyi ilə yanaşı, düşmənin dəyirmanına su tökməkdən başqa bir şey deyildi. Həm də çoxları Azərbaycanın iqtisadi və maliyyə yüksəlişlərinin şahidi olduqları halda, onun düşməni əzəcək hərbi qüdrətə yiyələnəcəyinə şübhə ilə baxırdı, xüsusən xaricdəki erməni diasporları elə güman edirdilər ki, işğal olunmuş ərazilər Suriyanın Qolan yüksəkliyi qaydasında hələ uzun illər düşmən tapdağı

atında qalacaqdır və fikirləşirdilər ki, nə vaxtsa fövqəldövlətdə yeni bir Tramp da meydana gəlib, həmin ərazilərin Ermənistana mənsub olduğu barədə beynəlxalq qanunlara tam zidd bir sərəncam imzalayacaqdır.

Lakin Ermənistanın və onun havadarlarının belə xəyalları bir andaca puç oldu, 2016-cı ilin bir neçə gün davam edən aprel döyüşlərindən sonra işğalçı onu qaçılmaz fəlakət gözlədiyini anlamağa başladı. 2020-ci il sentyabrın 27-də isə atəşkəs xəttində ermənilərin aramsız həmlələrinə cavab olaraq Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev orduya hücum əmrini verdi. Döyüşlərin gedişi, bütövlükdə müharibənin nəticəsi göstərdi ki, həmin addımı atmaq üçün hərtərəfli hazırlıq görülmüş, düşməni darmadağın etməyin yolları və vasitələri iti ağılla, tam matematik qaydada hesablanmışdır. Əgər 1990-cı illərin əvvəllərində siyasi başıpozuqluq, anarxiya meyilləri, hakimiyyəti qəsb etmək istəyi çox cüclü idisə və bunlar da məğlubiyyətə yol göstərən nişan dirəyi rolunu oynayırdısa, son illərdə Azərbaycanda siyasi sabitlik bərqərar olmuş, hakimiyyətin hərəkət vektoruna, siyasi və hərbi məsələləri həll etməyə mane olmağa qadir olan neqativ hallar bütünlüklə sıradan çıxmışdır. Əgər 1992-ci ilin fevralında Xocalı soyqırımının xalqdan gizlədilməsi cəhdi edilmişdisə və bu ağılsızlıqdan hakimiyyəti dəyişməyin əlverişli vaxtının gəldiyi ilə əlaqədar olan fürsət heç də əldən verilməmişdi. 2020-ci ildə isə Azərbaycandakı möhkəm dayaqlara söykənən prezidenti idarəetmə üsulu öz üstünlüyünü bütünlüklə göstərdi.

Digər mühüm bir cəhət isə xalqın birliyi, torpaqların işğaldan azad olunması üçün hər cür əziyyətlərə qatlaşmağa və qurbanlar verməyə hazır olmağın olduqca güclü siyasi və sosial faktora çevrilməsi idi.

Müharibəyə heç də kor-koranə deyil, qüvvələr nisbətinin və iqtisadi-hərbi potensialın düzgün qiymətləndirilməsi əsasında başlanmışdı. İlk günlər gedən döyüşlər göstərdi ki, Azərbaycan ordusu hərtərəfli böyük üstünlüklərə malikdir və düşmən təzyiqə davam gətirməyib, geri çəkilməyə, qaçmağa üz tutur. Bibliyadakı İernixonun məğlub edilməsi səhnəsi yada düşürdü. İosif Navinin çaldığı trubanın səsi şəhərin divarlarını uçurtmuşdu. İndi isə Azərbaycan oğullarının nərəsi və hərbi ustalığı düşmən ordusunun canına vəlvələ salmışdı. Ermənilər ilk dəfə idi ki, onun üstünə gələn aslan dəstələrini görürdülər.

Vaxtilə, 1960-cı illərin əvvəllərində Xankəndinə (o vaxtkı Stepanakertə) gedən yolda pəncəsində donuz balasını boğan aslanı təsvir edən bir heykəl var idi. Sonralar onu postamentdən götürdülər. Səbəb də o olmuşdu ki, guya iki millətin bir-birinə pis münasibəti heykəldə öz əksini tapmışdır.. Altı onillikdən sonra Azərbaycan ordusunu təşkil edən şir ürəkli oğlanlar işğalçılara divan tutub, onun sağ qalmış cılız qalıqlarını doğma ərazilərdən qovdular.

Ermənistan rəhbərliyi işğalın ömrünü uzatmaq üçün hər cür hiyləgərliklərə əl atır, torpaqlarımızı azad etmək istəmirdilər. Onlar Madrid prinsipinə, mahiyyətcə onun təkrarı olan sonrakı Kazan formuluna məhəl qoymadılar, bu sənədlərdə isə əvvəlcə beş rayonun ərazilərinin erməni qoşunlarından azad

olunması nəzərdə tutulurdu. 2016-cı ilin aprel döyüşlərində Azərbaycanın vuruşda qələbə çalmasının real təhlükəyə çevrilə biləcəyini nəzərə alıb, ermənilər təşvişə düşdülər. Bu. əslində təbil səsi siqnalı idi. Onlar anlamırdılar ki,öz ölkələrində çalınacaq növbəti musiqi rekviyem olacaqdır.

2020-ci ilin 27 sentyabrında başlanan müharibədə isə ağır vəziyyətə düşən Ermənistan rəhbərliyi Rusiya vasitəsi ilə Kazan formuluna qayıtmağa razılaşdığını bildirdikdə, Azərbaycan Prezidenti mərhələli planı nəzərdə tutan həmin təklifi rədd etməklə yeddi rayonun hamısının ərazilərinin azad olunmasını tələb etdi, lakin əks tərəf yenə kar qalmaqda davam etdi. Yalnız Ermənistan ordusu məhv olmaq təhlükəsi ilə üzləşdikdə, diz üstə çöküb, bütün şərtləri qəbul etdiyini bildirməklə Azərbaycandan müharibəni dayandırmağı yalvardı.

Uzağı görməyi bacarmayan Ermənistan rəhbərliyindən fərqli olaraq, Prezident İlham Əliyev öz ölkəsində gedən iqtisadi-hərbi inkişafın dinamikasına yaxşı bələd olduğundan müharibəni dəqiq müəyyən edilmiş bir vaxtda başlamaq barədə əmr vermişdi. O, çox sayda və müxtəlif çalarda olan cəhətləri nəzərə alaraq, bu addımı atmışdı və nəticənin uğuru ilə bütün xalqı sevindirdi.

Ermənilərin gecikmiş təklifi rədd edilərkən,yəqin ki, tarixə də nəzər salınıb, onlara belə kəskin cavab verilmişdi. Bizim eradan əvvəl 333-cü ildə İss döyüşündən əvvəl Persiya çarı III Dara Makedoniyalı Aleksandrın hücumundan qorxub, ona çoxlu qızıl təklif etdi ki, ölkəsinə toxunmasın. Böyük Aleksandr təklifi aldıqda, təcrübəli general, atasının yanında da xidmət etmiş Parmeniondan nə etmək lazım olduğunu soruşduqda, bu təcrübəli adam məsləhət gördü ki, təklif olunan böyük miqdarda qızılı qəbul etmək və vuruşa girməkdən imtina etmək lazımdır. Ona Aleksandr belə cavab verdi:

– Mən Parmenion olsaydım, qızılı qəbul edərdim, ancaq mən Makedoniyalı Aleksandram, vuruşu seçirəm.

İss döyüşü Aleksandrın böyük qələbəsi ilə nəticələndi. III Dara var-dövlətini atıb qaçdı, arvadı və qızları Makedoniya sərkərdəsinə əsir düşdü.

Azərbaycanın siyasi rəhbərliyi həm də güclü şahmatçı kimi bütün gedişləri nəzərdən keçirmiş, ev tapşırıqlarını ustalıqla yerinə yetirmişdi. Şəraitə təsir göstərə biləcək qüvvələrin də işə qarışmaq imkanları hərtərəfli görür-qoy edilmişdi. Rusiya Azərbaycanın ərazi bütövlüyünü təkcə sözdə deyil, Ermənistan rəhbərliyinə göstərdiyi təsir məqamlarında da daim müdafiə etmişdi və öz mövqeyindən heç də geri çəkilməyəcəkdi. ABŞ-ın isə başı prezident seçkiləri kampaniyasına qarışmışdı. Minsk Qrupunun digər həmsədri olan Fransanın ermənipərəst mövqeyi onsuz da hansısa bir deformasiyaya uğramayacaqdı. Ona görə də əlverişli vaxtı əldən vermək olmazdı və düzgün qərar verməyə ölkə liderinin cəsarəti və iradəsi bütünlüklə çatdı.

Ermənistan rəhbərliyi isə daim xülyalarla yaşamağa üstünlük verir, başqa dövlətin ərazisinə olan iddialarından əl çəkmirdi. Özgə torpaqlarının virtual

qaydada onun olması illüziyası ermənilərin çoxdankı hallüsinasiyasının bəhrəsi idi. Ermənistan Türkiyə ərazisində olan Ararat dağını özününkü hesab edib, lap çoxdan dövlət gerbində onun təsvirini vermişdi.Bu dağla da ermənilər daim olduğu tək özlərini qədimiləşdirməyə can atırlar, axı Bibliyaya görə, dünyanın üzünü su alanda Nuhun xilasedici gəmisi Ararata gəlib çıxmışdı və orada quru yerin olduğunu bilmişdi. Ermənilər hətta Nuhun (Noyun) şərəfinə yüksək markalı brendilərini «Noyak» adlandırmışlar. Türkiyə isə öz adətinə sadiq qalaraq, Araratı Ağrı dağ adlandırmışdı. Türklər Aralıq dənizini də Ağ dəniz adlandırırlar və dünya buna etiraz etmir. Dağın təsvirini gerbə salmaqla özgə ərazisini ələ keçirmək qeyri-mümkündür. Ermənilər daim Ararat dərdi ilə yaşayırdılar, indi də onun üstünə Bakıdakı Hərbi Qənimətlər Parkı əlavə olundu. Dərd çəkməyi sevən xalq kimi, buna səbəb tapmaqla özünə problem yaratdığından, ermənilərə bu xüsusiyyətini tərgitməsi də mümkün deyildir. Qələbədən bir ay sonra, 2020-ci ilin 10 dekabrında paytaxt Bakıda Zəfər paradı keçirildi, təntənəli mərasimdə Prezident İlham Əliyev və Azərbaycanın sədaqətli dostu, beynəlxalq aləmdəki cəsarətli siyasi addımları ilə seçilən Türkiyənin Cümhur başqanı Rəcəb Tayib Ərdoğan təbrik nitqi ilə çıxış etdi. Yarım ilə yaxın vaxtın keçməsinə baxmayaraq Qələbə ruhu yaşamaqda davam edir.

Prezidentin sərəncamı ilə bu günlərdə Bakıda Hərbi Qənimətlər Parkı açıldı və Vətən müharibəsi Memorial Kompleksinin, həmçinin Zəfər muzeyinin yaradılması qərara alındı. Qələbə müzəffər ordumuzun böyük döyüş hazırlığı, əsgər və zabitlərin igidliyi, həm də çox sayda qurbanlar verilməsi və yaralıların meydana gəlməsi hesabına əmələ gəldiyindən, gələcək nəsillərin bunu bilməsi üçün onun əbədiləşdirilməsi tədbirləri olduqca düzgün işdir. Persiyanın məşhur çarı I Dara öz ölkəsi üçün, həqiqətən, böyük işlər gördüyünə görə, onun xidmətləri Bisütun dağında qayaya həkk olunmuşdu. I Dara özündən əvvəlki Persiya çarı Böyük Kirin işini böyük ustalıqla davam etdirmişdi. Azərbaycanın da Vətən müharibəsindəki qələbəsi bu tədbirlərin köməyi ilə yaddan çıxmayacaq, digər maddi və bədii abidlərdə də hökmən öz əksini tapacaqdır.

Hərbi Qənimətlər Parkında nümayiş etdirilən eksponatların çoxluğu və qiymətliliyi onların belə kütləvi nümayişinə haqq qazandırır. Bu silahlar döyüş cəbhəsində düşmən ordusunu darmadağın etməklə əldə edilmişdir. Qənimətlər sayca olduqca çoxdur və məhv edilənlərin isə onlardan ən azı 3-4 dəfə, bəzən hətta 10 dəfə çox olması ordumuzun hərbi salnaməsini daha da zənginləşdirir. Onların birlikdə dəyəri 5 milyard dollara bərabərdir. Növlərin adlarını sadaladıqda, onların nə qədər çox olduğu daha aydın nəzərə çarpır. Burada düşməndən götürülmüş «qrad»lar, toplar, tanklar və digər adlarda olan hərbi texnika vardır. Həm də artilleriya qurğuları, minaatanlar, qumbaraatanlar, zenit qurğuları, minlərlə atıcı silah götürülmüşdür. Çox sayda komanda məntəqəsi və sursat anbarı dağıdılmışdır. Erməni generallarının çox güvəndiyi «Su-25» təyyarəsinin beşi məhv edilmişdir. Qənimət kimi götürülən hərbi avtomobillərin sayı isə hesaba gəlmir.

Texnikadan əlavə, erməni əsgərlərinin geyimləri, qumqumaları nümayiş etdirilir. Parkın açılışında iştirak edən Prezident düşmən əsgər və zabitlərinin kaskalarından qurulmuş uzun iki divarın arası ilə addımlayıb, keçmişdir. Bu bədbəxt kaskaların yiyələri Ermənistanın azğın rəhbərliyinin günahı üzündən, başqa torpaqları tutub, onları qorumaq naminə öz həyatlarını qurban vermişlər.

Parkda həmçinin erməni raketlərinin zərbəsi ilə döyüş səhnəsindən uzaqda olan şəhərlərimizdəki mülki yaşayış evlərinin dağıdılması nümayiş etdirilir.

Ermənistanın baş naziri Nikol Paşinyan parkın açılışını narazılıqla qarşılamış, onu qələbədən eyforiyaya qapılmaq əlaməti kimi qiymətləndirmişdir. Onun bəyanatları havada uçn yarpaqları xatırladır. Vaxtilə, Qarabağ məsələsinin güc vasitəsilə həlli yoxdur deyə, özündən razı qaydada bu diletant ideyanı irəli sürmüşdü. Azərbaycan rəhbərliyi isə otuz ilə qədər səbir nümayiş etdirdikdən sonra məhz güc tətbiq etməklə, hərbi yolla problemi birdəfəlik həll etdi.

Park kiçik bir sahədə– 5 hektarda yerləşdirilmişdir. Lakin mahiyyətcə ərazilərin bütünlüklə işğaldan necə azad olunması barədə əyani təsəvvür yaradır.. Özü də yaxşı haldır ki, Xocalı qətliyamına həsr olunmuş abidənin yaxınlığındadır və işğal niyyətinə düşənlərə xəbərdarlıq edir ki, nəticə etibarilə aqibətiniz belə olacaqdır.

Digər tərəfdən, belə qələbə və ya mübarizə nümaişinin təcrübələri də az deyildir.1812-ci il Vətən müharibəsi, Napoleonun ölkədən qovulması Moskvadakı böyük Panoramada, Sevastopoldakı diaramada isə1853–1856-cı il Krım müharibəsində şəhərin müdafiəsində dənizçilərin və rus əsgərlərinin qəhrəmanlığı təsvir olunur və heç kəs onu qələbədən eyforiyaya düşmək kimi qiymətləndirmir. Krım müharibəsində isə,əslində, ruslar məğlub olmuşdular.

Paşinyanı hiddətləndirən, xüsusən əsgər və zabitlərin hərbi geyimdəki manekenlərinin Madam Tyusso muzeyindəki kimi dəqiqliklə nümayiş etdirilməsidir.Onlar 30 ilə yaxın müddətdə Azərbaycan torpaqlarında cəzasız gəzirdilər, lakin axır ki, layiq olduqları cəzaya çatdılar və Qənimətlər Parkının biabırçı eksponatına çevrildilər.

Qoy ermənilər bu sərgidən deyil, özlərinin başabəla liderlərindən incisinlər, onlardan cavabdehlik tələb etsinlər. Azərbaycan ordusu qənimətləri götürmüşdür və bu, yəqin ki, erməni generallarının heysiyyətinə toxunur. Ancaq bu azdır, onlar və siyasi liderlər layiqli cəzalarına çatdırılmalıdırlar.

Ermənistan rəhbərliyi, qatı millətçiləri və ordusu son 30 ildə ən ağır cinayətlərə əl atmış, azərbaycanlıları kütləvi faciə səhnələrini yaşamağa məcbur etmişdilər. Onlar döyüşdə çox sayda gəncləri qırmış, mülki əhaliyə - qocalara, qadınlara və uşaqlara da aman verməmişdilər. Öz xalqının gənc övladlarını da hərb qəssabxanasıına göndərməkdən çəkinməmişdilər. Qətlə yetirilən və həlak olan azərbaycanlıların, həmçinin məhv edilmiş erməni gənclərinin ruhları onları bağışlamayacaqdır. Günahsız qətliyam qurbanları olan insanların ruhu isə, nə qədər

ki, onlar sağdır, daim onlara lənətlər yağdıracaqdır. Bəlkə də, bu, bir qədər mistik görünür, lakin ermənilərin törətdikləri qırğınların dəhşəti hətta mistikaya da müraciət etmək lüzumunu yada salır. Lənətlər sözün sehrli gücünə inamdan yaranır və qarğışın həyata keçməsi üçün həm də Tanrıdan kömək diləməkdə ifadə olunur. Lənətlər vasitəsilə cəzaya layiq olan cinayətkara qisas şəklində cavab verilməsi arzulanır. İnsanlar antik dövrlərdən lənətlərdən çox istifadə edirdi, indi də Göylərə inamı olanlar qətl nəticəsində həyatdan gedən ərəfədə bu vasitəyə əl atmalı olurlar. Və qəribə görünsə də, lənət də öz işini görür, qisas alınması ünvanının cəzaya məhkum edilməsi isə çox hallarda ən azı məntiqi qaydada onun nəticəsi kimi qəbul edilir.

Qədim yunan mifologiyasına görə, Fiva çarı Layın, onun arvadı İokastanın oğlu olan Edipin gələcəkdə atasının qatili və anasının əri olacağını orakul xəbər vermişdi. Ona görə də atası körpəni məhv etmək üçün vəhşi heyvanlara yem olmağa atdı, çobanlar körpəni tapıb, övladsız olan Korinf çarına verdilər və burada o, çarın oğlu kimi tərbiyə edildi. Gənc Edip arabada gedərkən yol ayrıcında digər arabadakı bioloji atası Layla rastlaşdıqda, yol vermək üstündəki sözləşmədə (o vaxtlar yollar olduqca dar idi) öz atası olduğunu bilmədən onu vurub öldürdü. Sonra onun yerinə burada çar oldu və heç nədən şübhələnmədən çarın dul arvadı olan öz anasına evləndi. Həqiqət aşkar olduqda Edip özünü kor etdi. Anasından olan oğlanları onu təhqir edəndə, onları lənətləyərək, özü sürgünə yollandı.

Erməni qatı millətçiləri çar Edipi andırırlar, onlar öz iyrənc niyyətləri naminə bilərəkdən bütün cinayətlərə hazırdırlar, mif qəhrəmanı isə öz cinayətləri baş verməmişdən əvvəl onlardan hali deyildi. Onlar öz çirkin ideyalarına və əməllərinə görə lənətə layiq olduqları halda, onların iç üzünü açanları lənətləyirlər. Əslində isə ən ağır cəzaya layiqdirlər. Çünki daim başqa qonşu xalqlara quyu qazmaq istəyirlər, çox hallarda isə ilk növbədə öz xalqını fəlakətə sürükləyirlər. Onlar onsuz da yarasa kimi kordurlar, ağıllarında dəyişiklik baş verməsə, buna isə ümid çox azdır, daha böyük cinayətlərə yol verə bilərlər.

Günahsız insanlar həyatdan məhrum olduqlarına görə onları lənətləmiş, cəzaya çatdırılmaları barədə Allaha yalvarmışdılar. Lənətlər də bəzən arzu etdiyinə çatır. Buna faktiki misallar da vardır. XIV əsrin əvvəllərində Fransada Tampliyer ordeninin üzvləri təqib edilməyə, zindanlara atılmağa, dinsizlikdə ittiham edilməyə başlanıldı. Onların əmlakları müsadirə edildi, şeytan ordenlərinin ibadətlərini icra etməkdə ittiham edildilər. Kral Qəşəng IV Filipp Tampliyer ordenini darmadağın etdi. İnkvizisiya məhkəmə prosesinə başlayıb, iddia edilən saxta cinayətləri işgəncələr yolu ilə etiraf etməyə onları məcbur etdi. Roma papası V Kliment nəinki ordeni ədalətsizlikdən müdafiə etmədi, əksinə, kralın təzyiqi ilə ordeni ləğv etdi.

Fransada Tampliyer ordeninin qrossmeysteri Jak de Mole işgəncə altında iddia edilən saxta günahını etiraf etmişdi, lakin sonra öz etirafından imtina etdi və 1312-ci ildə tonqalda yandırıldıqdan əvvəl Allaha müraciət edib, günahsız

olduğunu deyib, ədalətsizlik edənlərin cəzalandırılmasını xahiş etdi və bu,onun lənəti idi. Lənət heç də yerdə qalmadı, iki il sonra Roma Papası öldü. Elə həmin il Fransa kralı da ovda həlak oldu. Tampliyer Ordeninin Fransadakı liderinin lənətindəki arzu olunan cəza az sonra gerçəkliyə çevrildi.

Günahsız qırğına məruz qalan azərbaycanlı qocaların, qadınların, uşaqların lənət müraciətləri də təsirsiz qalmadı, 2020-ci ilin payızının 44 günü ərzində Ermənistan ordusu darmadağın edilməklə, bu dövlətin siyasi, iqtisadi, hərbi və sosial həyatına ağır zərbə vuruldu. Ermənistan rəhbərliyini və qatı millətçilərini bu layiqli cəzaya məhz Azərbaycan ordusu çatdırdı.

İndiyədək Bakının Qız Qalası və müasir Alov qüllələri kimi xalqın yaradıcı istedadından xəbər verən rəmzləri var idi, indi isə onlara Hərbi Qənimətlər Parkı timsalında qəhrəmanlıq rəmzi əlavə olundu. Burada nümayiş etdirilən qənimət götürülmüş hərbi texnika və düşmən hərbiçilərinin manekenləri və dəbilqələri sərgisi Azərbaycan əsgərlərinin, ingilislər sərkərdəni də əsgər adlandırırlar, ağlı, iradəsi, şücaəti və döyüş igidlikləri hesabına əldə edilmişdir. Qəhrəmanlarımız indi, hətta torpağa gömülənlər də daxil olmaqla, göz önündədirlər. Parkı ziyarət edənlərin onların rəşadətinə baş əyməsi, düşməni diz çökdürənlərin hamısına ehtiram əlaməti olacaqdır. Xalq iftixarla deyəcəkdir ki, bizim də Əl-Alameynimiz, Stalinqradımız vardır. Şuşa əməliyyatı isə XXI əsr döyüşünün təkrarolunmaz nümunısi kimi tanınacaqdır. Gələcək nəsillər qəhrəmanları rəvayətlərdə axtarmayacaq, Qarabağ döyüş səhnəsində igidlik göstərənlərin, düşməni mərdliklə əzənlərin şəxsində görəcək, onların nəslindən olmaları ilə fəxr edəcəklər. Vətən müharibəsindəki ordumuzun, xalqımızın zəfəri sönməz günəş kimi gələcək tariximizə də daim işıq salacaqdır.

17.04. 21.

525-ci qəzet

Azərbaycanın hərbi qələbəsi «Qarabağ klanı»nı məhvə aparır

Ermənistandakı yeni parlament seçkilərində Nikol Paşinyanın başçılıq etdiyi "Bətəndaş müqaviləsi" partiyası qalib gəldi, bu həm də revanşizm xülyası ilə xalqı aldatmağa çalışan keçmiş prezidentlər Robert Koçaryanın və Serj Sarqsyanın ağır məğlubiyyətə düçar olması idi. Axırıncıların ümidlərinə görə bu paradoks baş verməməli idi, çünki Ermənistan ordusunun müharibədə darmadağın edilməsindən cəmi yeddi ay keçmişdi. Adətən hökumətə başçılıq edən müharibədəki uğursuzluğun başlıca günahkarı hesab olunur və Paşinyanın quduz rəqibləri onun üstünə ağıla sığan və sığmayan itləri asırdılar.

Müharibədəki məğlubiyyətlərini və Azərbaycanın öz torpaqlarını hərbi yolla, yeni növ döyüşlər aparmaq hesabına azad etməsi faktını hətta erməni politoloq və tarixçi dəllalları da inkar edə bilmədilər. 1990-cı illərin əvvəllərində başlanan Ermənistanın təcavüzü nəticəsində respublikamızın ərazilərinin işğal edilməsi və bu iyrənc siyasətin 30 ilə qədər davam etməsinin baş arxitektorları və həqiqi iştirakçıları hamıya məlumdur. Onlar azərbaycanlıların və ermənilərin yaxşı tanıdığı, vəhşilikləri, barbarlıq nümunələri ilə tarixdə az rast gəlinən Qarabağ quldurları Koçaryan və Sarqsyan idi. Dinc azərbaycanlı əhalisinin kütləvi qırğnlarını təşkil edib, ad çıxarmaqla, onlar həm də təcavüzkar Ermənistan ordusunun işğalçılıq fəaliyyətinə bələdçilik etmişdilər. Sonra Koçaryan Qarabağdan Ermənistana sıçrayış edərək, işğal eyforiyasından məst olan xalqın cinayətdən betər olan səhvindən istifadə edərək, həmin dövlətin ali hakimiyyətinə yiyilənmişdi. Ayrılmış müddət başa çatdıqda öz prezident kürsüsünə sədaqətli vəliəhdi kimi bandit yoldaşı Sarqsyanı oturtmuşdu. Buna nail olmaq üçün etiraz edən yerevanlıların qanını axıtmaqdan da çəkinməmişdi. İlk prezident Levon Ter-Petrosyan isə adamların yaddaşının zəifliyinə bel bağlayaraq, indi özünü "sülh göyərçini" kimi qələmə verməyə çalışır, Azərbaycan ərazilərinin işğalı isə məhz bu "quzğunun" hakimiyyəti dövründə, kölgə fazasını keçirən "Qarabağ klanı"nın əl-qol açması nəticəsində baş vermişdi.

Robert Koçaryan təkcə işğal edilmiş əraziləri viran qoymaqla kifayətlənməyib, öz ölkəsini də iqtisadi-siyasi fəlakətlə üzləşdirmişdi. Azərbaycanın 7 rayonunun mərkəzi və yüzlərlə kəndləri görünməmiş şəkildə

xaraba qoyulmuşdu. Bunların hamısı «Qarabağ klanı»nın, şəxsən Koçaryan və Sarqsyan cütlüyünün cinayətləridir və onlar siyasət taxçasında gizlənməklə və ya havadarları hesabına məsuliyyətdən qaçmağa çalışsalar da, bunu bacarmayacaqlar, ədalət qılıncı onların başının üstünü tərk etməyəcəkdir. Şekspirin ifadəsiylə deyilsə, onlar öz «skarlet sin»ini – "al-qırmızı günah"ını dana bilməyəcəklər.

Seçkinin ən mühüm cəhəti erməni xalqının öz bədxahlarını, onu dərin uçuruma sürükləyənləri tanıması və hər cür yağlı vədlərinə, revanşizm barədəki şizofreniya tutmalarına baxmayaraq, onlara arxalarını çevirməsidir. Koçaryan yeni, təxəyyülündə qurduğu qələbə ilə, Şuşanı, Hadrutu qaytarması ilə xalqı aldatmaq, 30 illik tarixi məsafədəki geriyə doğru irəliləmək istəyirdi. Bu ideyalar işə yaramadı, yaraya da bilməz. Öz xalqı ona bildirdi ki, artıq müharibədən, qonşularla düşmənçilikdən yorulmuşdur, onların uzun dövr ərzindəki səyləri ilə xalq bütünlüklə taqətdən düşmüşdür. Cinayətkar rəhbər xalqı aldada bilir, lakin eyni çaya iki dəfə girmək mümkün olmur. Yalanlardan, xəyanətdən, aldadıcı işğaldan xalq heç nə qazanmamışdı. Qazanan yalnız bu işə başçılıq edən bir qrup oğru dəstəsi olmuşdu.

Bu cütlük axıtdıqları qanlardan həzz alır, "qılıncla rəqsə" üstünlük verirdilər. Anlamırdılar ki, böyük bəstəkar Aram Xaçaturyan bunu "Qayane" baletini zənginləşdirmək üçün yazmışdı, kiminsə özünü qan içməyə coşdurmaq üçün yazmamışdı. Onu da nəzərə almırdılar ki, bu qığılcım saçan musiqi parçası əvvəlcə "Kürd rəqsi" adlanmışdı. Əlbəttə, teatr səhnəsi ilə hərb teatrı tam başqa-başqa şeylərdir. Qətl səhnədə də baş verdikdə ikrah hissi doğurur, həyatda isə kütləvi qətllərin təşkilatçılarını, baş cəlladları ağır cəza, ümumxalq nifrəti gözləyir.

Seçkini udan Nikol Paşinyanın partiyasıdır və hərbi məğlubiyyətə baxmayaraq, xalq onu siyasi məğlubiyyətə uğratmaq istəmədi, banditlərin onun üzərində qələbə çalmasına və siyasi meyiti üzərində düşmənlərinin arzuladıqları ritual rəqsinin baş tutmasına imkan vermədi. Ancaq Paşinyan da erməni millətçisi olaraq qalır. Lakin onun öz rəqiblərindən bir üstünlüyü - reallığı qəbul etməsi, düzgün qiymətləndirməsi, həqiqəti dilinə gətirməkdən çəkinməməsidir. O, «Qarabağ klanı»nı çılpaq faktlarla ifşa etdiyi halda, onun üstünə uydurmalar çirkabı atılırdı. O, müharibədə uduzmuş və

məğlubiyyət sənədinə qol çəkməyə məcbur olmuşdu. Çünki generalları əvvəllər ona nə qədər yalan desələr də, son anda əgər məğlubiyyəti etiraf etməsə, Ermənistan ordusunun hökmən məhv olacağı təhlükəsini dilə gətirmişdilər. Tarixdə buna bənzər hadisə olmuşdur. Birinci Dünya müharibəsinin son fazasında, iyul ayında Marna döyüşündəki ağır məğlubiyyətdən sonra Almaniya silahlı qüvvələrinin komandanlığı – Hindenburq və Lyudendorf kayzer II Vilhelmi məcbur etdilər ki, məğlubiyyəti elan etsin, əks təqdirdə alman ordusu məhv olacaqdır. Ona görə də 11 noyabr 1918-ci ildə Birinci Dünya müharibəsi Antantanın qələbəsi ilə başa çatdı və alman imperiyası tarixdən silindi. Qısa müddətdə mövcud olan və karikaturanı andıran Ermənistan neoimperiyası da belə taleyi yaşamalı oldu.

Azərbaycan ordusunun da ardıcıl qələbələri erməni generallarını yuxudan ayıltdı və onlar yeganə çıxış yolunu gecikmədən məğlubiyyətin elan edilməsində gördülər və Paşinyan silahlı toqquşmanı dayandırmağı xahiş etməyə, yalvarmağa başladı. Bununla da Ermənistan onu gözləyən daha ağır fəlakətdən xilas edildi.

Paşinyan seçkidəki qələbədən başgicəllənməsinə yol verməməli, Azərbaycan və Türkiyə ilə münasibətləri bütün sahələrdə yoluna qoymalıdır. Bu, onun həmin ölkənin rəhbərlərinə heç də güzəştə getməsi olmayıb, uzun illərdən sonra hökumət başçısının birinci növbədə öz xalqına həqiqi xidmət göstərməsi nümunəsi olardı. Tarix yenidən onu sınağa çəkir, əvvəlki tək məntiqə söykənsə, yenə uğur qazanacaqdır. Ağılsız hərəkəti isə xalqı əsl faciəyə aparacaqdır, qoy bunu siysətçi kimi bir an da olsun yaddan çıxarmasın.

22.06.2021

525-ci qəzet

Qartal və şahin nümunəsi

Elə insanlar vardır ki, onlar ürəklərinin hökmü ilə xalqına əvəzsiz xidmət göstərməklə, onun nəhayətsiz hörmətini qazanır, mübaliğəsiz olaraq, məhəbbətinə sahib olurlar. Öz millətinin üstündən qara ləkəni götürməyə qadir olan bu şəxsə adamlar təkcə öz müasiri kimi deyil, əfsanəvi qəhrəman kimi baxır, az qala ona sitayiş edirlər. Bu şəxsiyyətin adı və hünəri daşa həkk olunan kimi, insanların xatirəsinə silinməz qaydada yazılmaqla, gələcək nəsillərə ötürülür. Bir igid hansısa döyüşdəki rəşadətinə görə dillərə düşür, hər məclisdə onun şücaəti barədə, bəlkə də, bir qədər şişirdilmiş söhbət gedir. Öz xalqının tarixində isə keçmiş əsrlərdə də görünməmiş qəhrəmanlıq səhifəsini yazanın ünvanına isə hökmən bu millətin təkcə indiki deyil, gələcək nəsillərinin də alqış dualları səslənəcəkdir. Bu dualar qulaqlarda həm laylay nəğməsi, həzin və şirin melodiya kimi, həm də fədakarlığa haraylayan cəngi səsi təsirini göstərəcəkdir. Onun yandırdığı şam millətin vüqarlı mənliyindən xəbər verdiyinə görə heç vaxt sönməyəcək, həmvətənləri üçün yol göstərən ulduz rolunu oynayacaqdır.Tarixi yaradanlar tarixin kiçik səhifəsində deyil, böyük bir bölməsində xatırlanmağa layiq olur. Millətə əsaslı xidmətin qiyməti də özü kimi böyük və nəhayətsiz olur.

Belə şəxsiyyət qartala bənzəyir, onun həsəd aparılan xüsusiyyətlərinə malikdir. Qartal səmanın fatehidir. Təbiət belə yüksəkliyə qalxmaq üçün ona güclü qanadlar vermişdir. Uçanda onların havanı yarması ölçüsü iki metr yarıma çatır. Ən yaxşı xüsusiyyəti isə gəmiriciləri məhv etməsidir. Türk dilində qartalı nişan verən obrazlı, idioma şəklindəki «Beşiktaş» ifadəsi vardır. Yəni, bu quş qayalarda, daş beşikdə meydana gəlmiş, böyümüş, oradan da ənginliklərə pərvazlanmışdır. Bizim qartalımız da ölkəmizin məkanına soxulmuş gəmiriciləri məhv etməli idi və təbiətindən irəli gələn bu işi uğurla həyata keçirdi. Belələri haqqında deyirlər: “Müharibədə birinci, sülh dövründə birinci olmaqla, öz həmvətənlərinin ürəyində də birinci yeri tutur.”

Şahinlər qartallara nisbətən kiçik qanadlara malikdir, ona görə də onların fəth etdikləri yüksəkliklərə qalxmasalar da, uçuşu, cəsarəti ilə digər öz sinfinə daxil olan varlıqlardan fərqlənir. Avropada, Asiyada şahinlə ov etmək ən maraqlı istirahət növü hesab olunur. Şahin ovladığı quşu özü yemir, sahibinə çatdırır. Bu quş öz xüsusiyyətlərinə görə daim diqqəti cəlb etmiş, onu vəsf edən nəğmələr qoşulmuşdur.

Xalqımız qartal kimi, şahin kimi oğulları ilə öyünə bilər. Onlar mənsub olduqları elin, millətin daim başını ucaldır, onun mənliyini tanıtmağa kömək

edirlər. Qartal öz xalqını xəcalət hissindən birdəfəlik azad etməyi bacarmış, şahin də öz ləyaqəti ilə ad çıxarmışdır.

Əgər biz bu xilaskarın nadir nümunəsini qartala bənzədiriksə, öz nisbətən kiçik qanadlarını geniş açıb, səmada uçuşu ilə başqalarının paxıllıq etdiyi şahinlərə bənzərlər də vardır. Əgər insanlardan söhbət gedirsə, onlar kiməsə hücum çəkməklə, heç də ovla məşğul deyillər, adamları yalnız öz alicənablıqları ilə heyrətləndirməyi bacarırlar. Onların nə orduları, nə qoçu dəstələri vardır, onlar nə vuruşa yollanmış, nə şəhərlər və ərazilər zəbt etmişlər. Onlar üçün döyüşkənlik qüvvəsini kökslərindəki döyünən ürək əvəz edir, bu ürək başqalarına yaxşılıq etməkdən, yad olanlara kömək əli uzatmaqdan həzz alır. Onlar kimisə utandırmaqdan ötəri borclu salmaq üçün bunu etmirlər, yaxşılıq etməyi özlərinin borcu, vəzifəsi hesab edirlər. Elə bil ki, onlar dünyaya alicənablıq nümunəsi kimi, yaşamağın, ömür sürməyin mahiyyətini eyş-işrətdə, dəbdəbəli həyat tərzində deyil, başqalarına dayaq olmaq, onları ehtiyac girdabından xilas etmək üçün gəlmişlər. Belələri elədiyi yaxşılıqdan heç nə qazanmırlar, özlərinin xarakterindən irəli gələn işi görməklə əsl könül rahatlığı tapırlar.

Onlarda müraciət edənləri fərqləndirmək, dərəcələrə bölmək istəyi də yoxdur. Ona müraciət edən adam istər imkansız və ya imkanlı olsun, xəstə və ya sağlam olsun, fiziki qüsurları olsun və ya onlardan xali olsun, dəxli yoxdur, xahiş və ya müraciət etmişdirsə, hökmən buna reaksiya veriləcək və cavab kimi ona tərəf uzanan kömək əlin istisi hiss olunacaqdır. Onlardan biri alicənablıq əlaməti kimi ölkənin vaxtilə varlı sayılan doğma şəhərindəki indi ehtiyacı olanların sayının artdığından hali olduqdan sonra, onların xəbəri olmadan siyahı tutmuş və hər ay müəyyən məbləğdə maddi yardım göstərməklə, öz rahatlıq bilməyən ruhunu sakitləşdirmişdir.

Bəzən aqil adamlara hansısa bir hadisənin mənəvi təsiri onların malik olduğu keyfiyyətləri daha da dolğun biruzə verir, ləyaqət nişanələrini xeyli artırır. Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında ordumuzun Vətən müharibəsində çaldığı böyük qələbə şahin timsallı bu şəxsə əlavə güc və ilham vermişdir. O, müharibədə şəhid olanların ailələrinə və yaralanan qazilərə dövlətin göstərdiyindən əlavə maddi kömək etməyi özünün vətəndaşlıq missiyası hesab edərək, qələbə yolunda bu canını və qanını verənlərə özünü daim borclu hesab edir. O, xalqını bu xoşbəxtliyə satdırmağa kömək etmiş Tanrıya da öz minnətdarlıq hisslərini ifadə etməklə yanaşı, müharibədə qələbə sevinci ilə yanaşı, həm də ağrıya sahib olmuş adamların yanında olmağı, onların dərdlərinə məlhəm qoymağa can atmasını özünün məhz Allah qarşısındakı təəhhüdlərindən biri kimi qiymətləndirir.

Bir dostum onu hindlilərin, hindusların Allahı olan çoxqollu Şivaya bənzədir və deyir ki, elə bil ki, bu adamın da onlarla əli vardır və bu əllər hamıya kömək etməyə çatır. Hinduslar Şivaya xüsusi məhəbbət bəsləyirlər. Onun Parvati ilə evləndiyi gün böyük bayram kimi qeyd edilir və onun heykəli iri arabada Hindistanın və Nepalın şəhərlərinin küçələrində gəzdirilir. Ona sitayiş edənlərdən

basdırıq nəticəsində iri arabanın təkərlərinin altına düşüb ölənlər də olur. Lakin belə bədbəxt hadisələr də Şivaya olan məhəbbəti qətiyyən azaltmır.

Başqa birisi onu Mario Pyuzonun «Xaç atası» romanının məşhur qəhrəmanı don Vito Karleoneyə bənzədir. Əlbəttə, don Karleone ona müraciət edənlər üçün hər şeyi edirdi. Məhkəmənin ədalətsizliyi ucbatından adamlar ədalət üçün onun qarşısında diz çökürdülər. Lakin Don Karleonenin əli həm də qana batmışdı. O, adamları öldürməklə hədələyirdi. Yeganə şərt də bu idi ki, ona müraciət edənlərin xahişini hökmən yerinə yetirə bilsin.

Bizim tanıdığımız alicənab iş adamının isə cinayət aləmi və əməli ilə heç bir yaxınlığı, əlaqəsi yoxdur. Karleone öz titulunu daha da şöhrətləndirmək üçün bunları edirdi. Bizim həmyerlimizi isə heç bir titul maraqlandırmır. O, belə hisslərdən, əslində, tam uzaqdır. Ona görə də onun həmvətənlərinə göstərdiyi alicənablıq ilə Don Karleonenin mərhəmət göstərməsi arasında böyük fərq vardır. Həmyerlimiz bir adamın da barmağının qanamasını istəmir, ümumiyyətlə qəddarlığa nifrət edir.

O, əvvəlcə elmi işçi, alim, professor- doktor olmuşdu, sonra sahibkarlıqla məşğul olaraq, varlı adamlardan birinə çevrilmişdi. Ölkədə varlı adamların sayı xeyli çoxalmışdır. Onlardan çoxu tikdirdikləri evlərlə, malikanələrlə, bahalı maşınlarla tanınırlar. Bizim misal çəkdiyimiz isə onların arasında, bəlkə də, yeganə adamdır ki, bütün gücünü sahibkarlıqla yanaşı, xeyriyyəçiliyə vermişdir. O, bu əməlini də heç vaxt reklam, təbliğ etmir. Böyük Pyotrun saldığı şəhərdə tələbə ikən uzaqdan tanıdığı bir azərbaycanlı, arvadının ağır xəstəliyinə görə böyük dərdlə üzləşəndə onun yanına gəlmişdi ki, ondan kömək diləsin. O, bu adamı ən yaxın dostu kimi qarşılamış, xanımının xərçəng xəstəliyinin cərrahiyə əməliyyatı üçün böyük məbləğdə pul xərcləmiş, bu bədbəxt professor qadının ömrünün 20 ildən çox uzanmasına səbəb olmuşdu. Onun əri ölənə qədər bu yaxşılığın əvəzini çıxa bilməyəcəyini öz dostlarına dəfələrlə etiraf etmişdi. Bu hadisə bir bədii əsərdə də öz əksini tapmışdır.

O, yanına xahişə gələn adamların dərdlərini öz ürəyinə salırdı. Heç vaxt hansısa bir fayda üçün deyil, yalnız hörmət etdiyini göstərmək üçün bu yaxşılıqları edirdi. Qoy hər yerdə onlar yalnız onun alicənablığından faydalandıqlarını etiraf etsinlər, ona başqa bir əvəz cavabı lazım deyildir.

O, başqalarından fərqli olaraq kömək göstərdiyi adamların hansı zümrədən olmasına da əhəmiyyət vermir. Hər bir adamı – varlı və ya kasıbı, qüdrətli olanı da, fağır birisini də qəbul edir, hamısına bərabər məhəbbət göstərirdi. Heç kəs onun laqeydliyindən şikayətlənə bilməzdi. Sadəcə olaraq bu xüsusiyyətləri onun xarakterindən irəli gəlirdi. Şahin ovladığını özü yemir, ovdan həzz alan və ovunun uğuruna sevinən sahibinə çatdırır. Bu adam da qazandıqlarından xalqına çatdırmağı özünə təlqin etdiyindən, «ən yağlı tikəni də» bunu yemək anrzusunda olan insanlara, öz xalqının nümayəndələrinə çatdırır və bundan xüsusi xoşbəxtlik hissləri duyur.

Ümumiyyətlə, elm adamları və istedad sahibləri tez-tez ona yardım barədə müraciət etmiş, heç biri naümid yola salınmamışdı. Ondan bu müqayisə olunmayan alicənablığının səbəbini soruşduqda, o, gülə-gülə demişdi: «Məgər siz nəfəs almaq üçün vacib olan havadan, yaxud sağlamlığınız naminə qəbul etdiyiniz qidadan yaxud sudan imtina edirsinizmi? Yaxşiliq etmək də mənim mənəvi tələbatima çevrilmişdir. Kimisə əliboş yola sala bilmirəm, bəs bu sərvəti nəyə görə qazanmişam. Heç kəs var-dövləti özü ilə qəbrə aparmir, onu iri məbləğdə uşaqlara, nəvələrə miras kimi vəsiyyət etmək də ağılsızlıqdır. Yalnız fironlar dəfn ediləndə, sərdabədə onun cəsədinin yanına ləzzətli xörəklər qoyurdular ki, ondan istfadə etsin. Sonradan başa düşüldü ki, ölüyə yemək lazım olmur.

ABŞ-ın polad maqnatı və filantrop kimi şöhrət tapmış Endryu Karneqi XX əsrin əvvəllərində istirahətə yollanarkən xeyriyyəçiliyə 350 milyon dollar, indiki pulla 300 milyard dollar pul ayırmışdı. Ölümündən bir əsr sonra da onun adı yaşayır, müxtəlif fondları və muzeyləri şöhrətə çatdırmışdır. Onun yolu ilə gedənlər də az deyildir. Mən Karneqi deyiləm, ancaq öz imkanım daxilində xeyriyyəçiliyə çox pul xərcləyirəm və elə bilirəm ki, bu vaxt mən heç nə itirmirəm, ancaq qazanıram. Amerikan milyarderi Bill Geyts xeyriyyəçilik fonduna 28 milyard dollar pul qoymuş və milyarderlərə müraciət edərək, öz sərvətlərinin yarısını xeyriyyəçiliyə sərf etmək təklifi ilə çıxış etmişdir. Son dövrlərdə iqlimin dəyişilməsinə qarşı mübarizəyə 2 milyard dollar pul ayırmışdır. Bunlara görə o, heç də kasıblamadı, əvvəlki sərvətinə yenidən yiyələndi, ancaq xeyriyyəçilikdə də ad çıxartdı. Mən ehtiyacı olanlara laqeyd qala bilmirəm. İmkanım olduğuna görə onlara kömək əlimi uzatmağı özümə borc və şərəf hesab edirəm.

Əgər bir nəfərin dərdinə yarayıramsa, narahatlığını azaltmağa nail oluramsa, onun üzündə təbəssümün meydana gəlməsini görürəmsə, paxıllarımın mənə hədsiz nifrəti müqabilində də mən özümü xoşbəxt hesab edirəm».

Onun haqqında çox danışmaq olar, əməlləri onun haqqında yazılacaq iri əsərdən də, yəqin ki, şöhrətli və qiymətlidir. Arzu edirik ki, bu bulağın zümzüməsi bundan sonra da çoxlarını ovutsun, bu qaya öz varlığını qoruyub saxlasın, bundan isə hamı, heç şübhəsiz, razı qalacaqdır.

Həmin şəxsi qayaya da bənzətmək olar, zaman və təbiət hər şeyi dəyişsə də, qayaya təsir göstərə bilmir. Yalnız təbii kataklizm baş verdikdə, vulkan püskürdükdə qayanın əzəmətində müəyyən bir dəyişiklik baş verə bilər. Həmyerlimizə arzu edərdik ki, o, həyatda heç bir təbii fəlakətlə, həm də süni, insan ağlından irəli gələn kataklizmlilərlə üzləşməsin. Onun sabit varlığı başqaları üçün təskinlik mənbəyi, arxalandığı dayaq olacaqdır.

Belə qartala və şahinə malik olan xalq xoşbəxtdir, çünki onun belə qəhrəman və qeyri-adi dərəcədə xeyirxah övladları vardır. Gənc nəsil qorxaq pinqvinlərdən, sürüsünə xilaf çıxan sərçələrdən deyil, belə qartal və şahin rəmzlərindən ibrət götürməli, onlardan vətənə, xalqa xidmət göstərməyi öyrənməlidir. Onlar totem roluna iddia etmirlər, nümunələri xalq üçün, xüsusən yeniyetmələr və gənclər üçün

örnək mənbəidir. Əslində, onlar çoxlarının faydalandığı həyat universiteti rolunu oynayır.

20.03.2021

525-ci qəzet

Xalqın qələbə təbəssümü

Xalqımız böyük sevinc və şadlıq şəraitində Zəfər Gününün ikinci ildönümünü təntənə ilə qeyd etdi. 44 günlük müharibə Azərbaycan tarixinə, hətta arzulardan da uzağa gedən qələbə ilə başa çatmışdı. 1990-cı illərin əvvəllərində Ermənistanın təcavüzkar siyasətinin icrası şəklində onun hərbi qüvvələri geniş ərazilərimizi işğal etmiş, bir milyona yaxın günahsız insanı qaçqına və məcburi köçkünə çevirmiş, qəsb etdikləri əraziləri dəhşətli miqyasdakı vandalizmə məruz qoymuşdular. Ordumuzun azad etdiyi torpaqların xarabalıqlara çevrilməsi Orta əsr barbarlarını da viranedici əməllərini kölgədə qoyur. Bunları həyata keçirən ermənilər bizim xalqa qarşı ən vəhşi düşmənçilik nümayiş etdirmişdilər.

XXI əsrin ikinci onilliyində ərazilərimizin azad edilməsi əməliyyatları, cəmi bir ay yarım çəksə də, düşmən üzərində tam və qəti qələbə ilə nəticələndi. Vaxtilə siyasi qarışıqlığın hakim kəsildiyi ölkəmiz acı məğlübiyyətlə üzləşmişdi, həmin dövrdə həm də milli qururumuza ağır zərbə vurulmuşdu. Torpaqlarımız üç onilliyə yaxın mddətdə düşmən tapdağı altında inləmişdi.

Öz cəbbəxanalarından onları silahlandıranların timsalında xeyli hamilərinin köməyi ilə Ermənistan "saxta danışıqlar" pərdəsi altında status-kvonu, işğal müddətini mümkün qədər uzatmağa çalışırdı. Havadarları isə münaqişənin həllinin gələcək nəsillərə ötürülməsini məsləhət görməklə, işğalı az qala əbədiləşdirmək istəyirdilər.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev onların məkrli danışıqları uzatmaq niyyəti ilə mənfur siyasətlərini davam etdirdiklərini aydın hiss edib, Ermənistanla yeni müharibəyə əsaslı, hərtərəfli qaydada hazırlaşmağa başladı. İlk növbədə o, iqtisadi yüksəlişə nail olmaqla, dövlətin maliyyə imkanlarını xeyli genişləndirdi. Bu, ordunu yenidən qurmağa və onu ən müasair silahlarla təmin etməyə şərait yatatdı. Əslində, ölkədə mənəvi və hərbi hazırlığı ilə fərqlənən yeni, tam müasir ordu meydana gəldi. Dost ölkələrdən döyüşün taleyini həll edəcək ən səmərəli silahlar alındı. By sahədə Türkiyənin və İsrailin hərbi-sənaye kompleksləri ordumuzun təchizatında xüsusilə fərqləndi. Ordunun tərkibində hər bir fədakarlığa hazır olan xüsusi təyinatlı qüvvələr yaradıldı və onlar öz igidliklərini sıldırım qayalarla əhatə olunmuş Şuşanın azad olunmasında əyani şəkildə, əlbəyaxa döyüşdə göstərdilər.

Prezident həm də Ali Baş Komandan kimi müharibənin başlanğıcından sonuna qədər hərbi əməliyyatlara bilavasitə başçılıq etdi. Ermənilər işğal etdilkləri ərazilərdə möhkəm istehkamlar qurmuşdular, onlara birbaşa hücum səmərə verməzdi. Ona görə də hücum istiqamətlərində düzəlişlər edildi və düşmən gözləmədiyi halda ağır zərbələr aldı. Ermənistan generalları isə məğlubiyyətə görə məsuliyyətdən yaxa qurtarmaq üçün "hərbi tələ" barədə yalanlar uydurur və buna öz naşı siyasi rəhbərliyini inandırırdılar.

Nəhayət, onlar I Dünya müharibəsinin sonunda alman ordusunun başçıları Hindenburqun və Lyudendorfun təcrübəsinə nüraciət edib, ordularının tam məhv olması təhlükəsinə görə məğlubiyyət müqaviləsinin bağlanmasına getməyi hökumət başçısından israrla tələb etdilər. Beləliklə, 10 noyabr 2020-ci ildə Azərbaycan, Rusiya və Ermənistan rəhbərliyinin imzaladığı üçtərəfli bəyanat meydana gəldi. Ermənistanın tikdiyi və çox bel bağladığı istehkamlar isə qəfil hücumlar nəticəsində erməni əsgərlərinin qardaş qəbiristanlığına çevrildi.

Təəssüf ki, Ermənistandakı revanşist qüvvələr ağır məğlubiyyətdən düzgün nəticə çıxarmağı bacarmır. Onlar anlamırlar ki, Azərbaycan artıq 90-cı illərin əvvəllərinin ölkəsi olmayıb, böyk iqtisadi və ən başlıcası, daha böyük hərbi gücə malik olan qüdrətli bir dövlətdir və onu əvvəlki tək hədələrlə qorxutmaq mümkün deyildir.

Qələbə Azərbaycana təkcə işğal olunmuş əraziləri qaytarmadı, ona həm də zahirən görünən və görünməyən çox böyük üstünlüklər bəxş etdi, dövlətimizin beynəlxalq aləmdə nüfuzu xeyli yüksəldi. Hərbi uğur xalqımıza, hər bir azərbaycanlıya böyük sevinc gətirmişdir. Şəhidlərimizə görə axıdılan göz yaşları qurumasa da, onlar Vətən yolunda həlak olmaqla həm özlərinə, həm də mənsub olduqları xalqa və ölkəyə şərəf gətirmişlər. Ona görə də təbəssüm Zəfər Bayramında bütün çöhrələri bəzəmişdi, kütləvi

şadlıq əlamətinin əsl təsdiqinə çevrilmişdi. Axı uzun müddət ərzində qisas alınacağı, torpaqlarımızın azad ediləcəyi perspektivi barədə adamların şüurunda bədbinlik ruhu kök salmışdı. Məhz ölkə prezidentinin çoxtərəfli fəaliyyəti buna son qoymağı və Zəfərin reallaşmasına nail olmağı mümkün etdi. Hamını əhatə edən qürur hisslərinə görə bu gün minnətdarlıq hissləri birinci növbədə şəxsən ona, həm də onun yetişdirdiyi orduya ünvanlanır.

Azərbaycan otuz il əvvəlki məğlubiyyətindən və ərazilərinin itirilməsindən sarsılmışdı. Lakin Perezident İlham Əliyev qalib Azərbaycanı axtarırdı və onu tapdı. Bu axtaranın özünün böyük olduğunu sübut etdi, lakin kəşf Allahın özündən gəlmişdi. Müharibə dövründə xalq bir yumruq kimi birləşib, düşmənə tutarlı və onun layiq olduğu cavabı verə bildi. İndi hər bir vətəndaşımız bu ölkəyə, bu xalqa, bu dövlətə məxsus olduğuna görə qürur hissləri keçirir və bunu bütün dünyaya bəyan etməkdən də çəkinmir.

Azərbaycan xalqı mehriban və zəhmətkeş olduğu kimi, sərt və döyüşkən bir xalqdır, torpağında yaşayanların hamısı ilə və qonşularla dinc şəraitdə yaşamağa üstünlük verir. Özünə qarşı nankorluq isə düşmənçilik həddinə çatdıqda, qəzəbini belələrinin üzərinə tökməyi də bacarır. Sınaq anında o öz ölçüsü səviyyəsindəki qılınca, mənfur təcavüzkara qarşı amansız qüvvəyə çevirilir, istilik-nüvə enerjisi effekti yaradır, düşmənin üstünə ildırım yağdırır. Bunu 2020-ci ilin payız günlərində gedən müharibə aydın şəkildə biruzə verdi. Ona görə də bu xalqın yaşadığı ölkə - Azərbaycan heç də sadə coğrafi məfhum sayılmamalıdır. Onun gücü dağları, çayları, düzənlikləri və hətta dənizi ilə müəyyən olunmur. Azərbaycan, qatı millətçilərin hakim kəsildiyi ölkələrdən fərqli olaraq, qan, irq və din məsələsi də deyildir, bu ölkə artıq öz ərazisinin əbədi azadlığına qovuşmuş xoşbəxt bir diyarın əsl təcəssümüdür. Çünki onun qüdrətinin başlıca mənbəyi xalqdır, dövlətinə sadiq olan vətəndaşlarıdır. Qoy bunu dostlarımız qəbul etdiyi kimi, bizə qənim kəsilməyə çalışan az sayda düşmənlərimiz də anlasınlar, keçmiş iyrənc təcrübəni heç kəs bərpa etməyə cürət etməsin. .

Xalqımızın qazandığı Zəfər dalğalanan bayrağa bənzəyir, çünki hamıya- sevinənlərə də, ağı deyən məğlub olanlara da açıq şəkildə danılmaz həqiqəti deyir.

SON